# İQTİSADİ ARAŞDIRMALAR

# № 6

*«İqtisadi araşdırmalar» jurnalı, (İAJ) 2017-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 4124 qeydiyyat nömrəsi ilə dövlət reyestrinə alınmış beynəlxalq elmi jurnaldı.*

*«İqtisadi araşdırmalar» jurnalı, mərkəzi Fransanın Paris şəhərində yerləşən dövri nəşrlər üçün nəzərdə tutulan Beynəlxalq Standart Seriya Nömrəsi (International Standard Serial Number) təşkilatından qeydiyyatdan keçmişdir (ISSN 2522-9451).*

**"Elm və təhsil"**
**Bakı – 2023**

**REDAKSİYA HEYƏTİ**: akademik İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü Əli Nuriyev, iqtisad elmləri doktoru, professor Rasim Nəbiyev, iqtisad elmləri doktoru, professor İsa Alıyev, iqtisad elmləri doktoru, professor Yaşar Kəlbiyev, iqtisad elmləri doktoru, professor Tərbiz Əliyev, iqtisad elmləri doktoru, professor Yadulla Həsənli, iqtisad elmləri doktoru, professor İbad Abbasov, iqtisad elmləri doktoru, professor Vilayət Vəliyev, professor İsmayıl Tatlıoğlu (Türkiyə),

**Buraxılışa məsul: Bilman Allahverdiyev**
**İqtisadi araşdırmalar. Bakı, 2023, № 6**

**ISSN 2522-9451**

**© ”Elm və təhsil” nəşriyyatı, 2023**

www.iaj.az
www.iqtisadiarasdirmalar.com

# İQTİSADİYYAT

**UOT:519**

**i.f.d, dosent, DAĞBƏYİ ALLAHVERDİYEV**
**AMEA-nın İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi.**
**E-mail: dagbeycahani@gmail.com**
**i.f.doktor VÜSALƏ BƏKİROVA**
**Kapital Bankda Hüquqların idarə olunması**
**şöbəsinin baş mütəxəsisi**
**vusalabakirova@hotmail.com**

## GEOSİYASİ MƏNZƏRƏDƏ MAKROİQTİSADİ MƏNAFELƏRİN GÜCLƏNDİRİLMƏSİ

### Xülasə

**Tədqiqatın məqsədi,** Geosiyasi-iqtisadi əlaqələrdə tərəqqi və beynəlxalq ticarətin intensivliyi, xarici investisiyanın çoxalması, davamli iqtisadi sərvətin artımı və vahid dövlət siyasəti, xarici iqtisadi əlaqələrin mahiyyəti təhlil edilmişdir. Eyni zamanda davamlı iqtisadi artımın təmin olunmasında makroiqtisadi sabitliyə mane olan meyarların təhlili və sosial-iqtisadi artımın gücləndirilməsi, iqtisadi təhlükəsizliyin aktual meyarları kimi ictimai rifahda vətəndaş məmnunluğunun davamlı tərəqqisi şərh edilmişdir. Belə ki, geosiyasi mənafelərin təminatı kimi dövlətin Vahid iqtisadi siyasəti, davamlı maliyyə dəstəyi və onun tənzimlənməsi prinsipləri və ölkənin məcmu iqtisadi meyarları, bu sahədə dünya ölkələrinin təcrübələri müqaisəli tədqiq edilmişdir.

**Tədqiqatın metodologiyası,** müxtəlif elmi metodlar əsasında, müqayisəli və analitik təhlil.

**Tədqiqtın nəticələri,** Məlum olduğu kimi geoiqtisadi əlaqələr ölkə iqtisadiyyatının tərəqqisi ümumi daxili məsulun (ÜDM) artımına təkan verən faktorlar hesab edilir. Beləliklə elmi tədqiqat analitik təfəkkür əsasında şəxsi fantaziyaların ümumiləşdirilmiş elmi mülahizələr təşkil edir. Həmçinin elmi məqalə müqayisəli və analitik təhlil əsasında siyasi-iqtisadi idrak, məntiqi ümumiləşdirmə, sintez, induksiya və deduksiya kimi ümumməntiqi metodlar əsasında tədqiq edilmişdir.

**Açar sözlər:** siyasət-iqtisadi perspektiv, iqtisadi rifah, davamlı iqtisadi tərəqqi, geoiqtisadi mənafelər, iqtisadi diplomatiya.

**Giriş**

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdə əsas pirinsipi suveren, müstəqil ölkə kimi dünya birliyi tərəfindən tanınması və geosiyasi mənafelərinin gücləndirilməsi prorutet istiqamət olmuşdur. Beləliklə, Azərbaycanın zəngin iqtisadi potensialı və təbii sərvətləri mühüm faktor kimi dünya ölkələrində geosiyasi maraqlar yaratmışdır. Belə geosiyasi mənzərədə Azərbaycanın siyasi-iqtisadi ələqaləri dünya dövlətləri və beynalxalq iqtisadi təşkilatlarların diqqətində olmuşdur. Bu siyasi-iqtisadi əlaqələr Azərbaycanın makroiqtisadi sabitliyinin tənzimlənməsini, social-iqtisadi tərəqqini zəruri etmişdir.

Beləliklə, geosiyasi əlaqələrin möhkəmləndirilməsi, sərbəst iqtisadi fəaliyyətinin təşkili, sosial-iqtisadi təminatın davamlı artımına nail olmaq üçün təkcə inflyasiyanın tənzimlənməsi yetərli deyildir. Bu ölkədə büdcə çatışmazlığının azaldılması və iqtisadiyyatın təhlükəsizliyi və sosial-iqtisadi mənafeyin qorunması makro, mikro iqtisadiyyatda, real iqtisadi problemlərinin həllinin aktual məsələlərini dövlət tənzimlənməsində zəruri meyar hesab edilir. Bu səbəbdən ölkənin iqtisadi təhlükəsizliyin dövlət tənzimlənməsi bir sra daxili və xarici makroiqtisadi faktorlarla tənzimlənir. Bu meyarlardan biri də beynalxalq maliyyə qurumlarının tövsiyələridir. Mövcud siyasi-iqtisadi şəraitdə respublikamız bir çox beynalxalq siyasi-iqtisadi təşkillatlarla əməkdaşlıq edir. Belə beynalxalq təşkilatlardan Birləşmiş Millətlər Təşkilatını, Beynalxalq Valyuta Fondunu və Dünya Bankını qeyd etmək olar. Bu təşkilatlarla əməkdaşlıqda siyasi-iqtisadi mənafelərin nəzərə alınmasını zəruri edir və bu əlaqələrin ölkəmizin sosial-iqtisadi məsələlərinin təminatında davamlı dəstəklənməsi ilə səciyyələnir.

Müasir siyasi-iqtisadi şərait dönya iqtisadiyyatdında tərəqqi naminə təsərrüfat meyarını müqayisə etmədən artım dərəcəsini şərtləndirir. Belə ki, müasir dünya iqtisadiyyatının prinsipləri, beynəlxalq əmək bölgüsünün obyektiv reallıqlarını və istehsalın və kapitalın beynəlmiləlləşməsini səciyyələndirir. Beləliklə, dünya iqtisadiyyatı davamlı tərəqqisi və artımlı olması üçün beynəlxalq əlaqələrə nail olan, sosial-iqtisadi reallıqları əks etdirən təsərrüfatların məcmusu kimi səciyyələnir. Bu meyarlar əsasında  vahid makroiqtisadi sistemi dünya ölkələrində də formalaşmasını zəruri edir.

**Əsas hissə / Main part**

**Ədəbiyyatların təhlili** ilə yanaşı əsas məntiqi təhlil belə bir fikir formalaşdırır ki, sosial-iqtisadi təminatda insan rifahı zəka ilə ruhları ritmə gətirən model, məna təyinatı baxımından xeyli dərəcədə yeni elmi reallıqlar və siyasi ideyaların məntiqi davamını şərtləndirir. Bu ideyaların məzmun mahiyyəti sosial-iqtisadi təminatına və təhsil siyasətində insan rifahını əks etdirir. Bu səbəbdən də görkəmli dövlət xadimi Heydər Əliyev qeyd edirdi ki, "Təhsil millətin gələcəyidir, cəmiyyətin tərəqqisinin əsasıdır" (D.Allahverdiyev,

2021). Azərbaycan elm-təhsilinə diqqət qayğı müstəqillik illərində də təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Ulu öndər Heydər Əliyev qeyd edirdi ki, Akademiyanı qoruyub saxlamaq və daha da inkişaf etdirmək zəruridir. Bu pirinsiplərlə bağlı bəzi tədqiqatlarda qeyd olunur ki, insan rifahının birmənalı tərifi yoxdur. Belə ki, bu meyarlara müxtəlif ölkələrdə sosial-iqtisadi sisteminin eyni olmadığını nəzərə alaraq, insan rifahını mühüm əhəmiyyəti ilə empirik olaraq təsdiq edilir.

**Metodologiya**

Tədqiqatın məqsədi elmi ümumiləşdirmə və statistik məlumatlar əsasında təhlil edilmişdir. Həmçinin tədqiqat nəzəri əsaslar formasında, dialektik, induksiya-deduksiya və məntiqin vəhdəti, statistik, müqayisəli, təhlil, iqtisadi-riyazi modelləşmənin ümumi elmi metodlarına əsaslanmışdır.

Belə ki, makroiqtisadi mənafelərin gücləndirilməsi siyasi quruluşdan asılı olmayaraq bütün ölkələr üçün ümumi olan iqtisadi meyarların (tələb və təklif qanunu) fəaliyyəti, ölkələrdə məhsuldar qüvvələri sosial-iqtisadi tərəqqiyə kökləyən elmi-texniki nailiyyətlər dünya təsərrüfatında obyektiv, subyektiv reallıqları əks etdirir.

Bunlar əsasən xarici iqtisadi əlaqələrdə sosial-iqtisadi rifah tərəqqisinə nail olmaq və siyasi-iqtisadi təhlükəsizliyin tənzimlənməsinin zəruri meyarları kimi səciyyələnir. Beləliklə, beynəlxalq iqtisadi əməkdaşlıq, milli mənafelər, iqtisadi təhlükəsizlik və makroiqtisadi sabitliyin zəruri istiqamətlərinin qorunması dünya təcrübəsində əsas meyar hesab edlmişdir. Qeyd edilənlərin əsası kimi makroiqtisadi pirinsipləri yalnız bu zaman ən kiçik dövlət güclü ölkə ilə müqayisə edilir. Bu fikirlərin məntiqi nəticəsindən məlum olur ki, təbiətin, insan və cəmiyyətin, cəmiyyət və dövlətin, ayrı-ayrı ölkələrin bir-biri ilə siyasi-iqtisadi əlaqələri mövcuddur. Geosiyasi mənzərənin reallıqları da bunlardan ibarətdir ki, "heç bir ölkə ən böyük ölkədə yalnız öz çərçivəsində iqtisadiyyatını tam səviyyədə inkişaf etdirə bilməz"(5). Bu səbəbdən də ümumi problemlərin həllində daha düzgün və ən səmərəli makroiqtisadi tənzimləmə meyarı, siyasi-iqtisadi təhlükəsizliyin əsas istiqamət kimi sosial-iqtisadi rifah təminatını şərtləndirir. Beləliklə, bu proseslər milli mənafelər və makroiqtisadi təhlükəsizlik, sosial-iqtisadi rifah baxımından dövlətin iqtisadi tənzimləməsi meyarının elmi təhlilini aktuallaşdırmışdır.

Bununla yanaşı beynalxalq maliyyə təşkilatları əsasəndə Beynalxalq Valyuta Fondu bir sıra tövsiyələri bir çox hallarda ölkələrin milli maraqlarımıza uyğun gəlmir, bəzi hallarda bu tövsiyələr geoiqtisadi mənzərədə reallığa və sahibkarlığın tərəqqisinə maneələrin yaradılması ilə müşahidə edilir. Bu səbəbdəndə BVF-nun şərtləri birmənalı olaraq ölkənin makroiqtisadi mənafelərinə, sosial-iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsinə xələl gətirə biləcək meyarlar kimi səciyyələnməlidir. Bir çox politoloqlar, iqtisadçı alimlər

Dünya iqtisadiyatının statistik məlumatlarını təhlilindən belə nəticəyə gəlmişlər ki, heç də BVF bu və ya digər ölkələrin siyasi-iqtisadi və makroiqtisadi sabitliyinə, sosial-iqtisadi rifahına müsbət təsiri olmamışdır. Hadisələrin real iqtisadi mənzərəsinə nəzər saldıqda mulum olar ki, mövcud siyasi-iqtisadi şəraitdə dünyada BVF-nin fəaliyyətindən çoxsaylı alim və mütəxəssilər ciddi narazılıq edirlər. Onun hiper-inflyasiya, yüksək büdcə çatışmazlığına qarşı mübarizədə, iqtisadi tərəqqinin reallaşmasında bəzi hallarda köməyi olmuşdur. Lakin onların tövsiyələri geosiyasi mənafelər və makroiqtisadi sabitlik mövqeyindən nəzərə almaqla həyata keçirilməlidir.

Beləliklə, Dünya Bankının Baş qərargahı makroiqtisadiyyat, ticarət və investisiyalar təcrübəsində rəsmisi Ukraynadakı, digər dünya ölkələrində mövcud olan münaqişə və müharibələrin geosiyasi hadisələrdə iqtisadi əlaqələrə, idxal, ixraca ciddi təsir etdiyini bildirmişdir. Belə geosiyasi şəraitdə Azərbaycan və digər dünya dövlətləri ilə iqtisadi əməkdaşlığın gücləndirilməsi iqtisadi cəhətdən səmərəli, eləcə də ölkələrdən tranzit daşımaları üçün ticarət qaydalarının sadələşdirilməsi səciyyəvi hesab edilir.

**Mövcud geosiyasi mənzərə və xarici iqtisadi əlaqələr**

Geosiyasi reallıqların nəticəsi kimi makroiqtisadi tarazlıq, sosial-iqtisadi rifah təminatını və iqtisadi sabitliyi təmin etməsi beynəlxalq iqtisadi müqaşinənin zəruri şərtlər hesab edilir. Belə ki, Birləşmiş Millətlər Təşkilatının beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi ilə əlaqəli olaraq ölkələrdə sosial-iqtisadi rifahın davamlı təminatının təşkili BMT-nin fəaliyyəti ilə koordinasiya edilən təşkilatların Baş Məclisinin hesabatında qeyd edilən insan rifahının məmnunluğun əsas prinsiplərin qəbulu kimi səciyələnir. Beləliklə, BMT-nın Baş Məclisi dünyada beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması istiqamətində əməkdaşlığın mühüm prinsiplərini, o cümlədən antiterror tədbirləri, tərksilah və silahların tənzimlənməsi məsələlərini müəyyən edən prinsipləri nəzərdən keçirərək BMT üzvlərinə və ya Təhlükəsizlik Şurasında heç bir vətəndaşın məmnunluğuna əngəl olan hallara yol verilməməsi tövsiyələri ilə şərtlənmişdir.

Belə ki, geosiyasi mənzərədə real hakimiyyət məlum koorporasiyalara məxsusdur, onların məqsədi dünya miqyasında siyasi-iqtisaddi istismar sistemini qoruyub saxlamaqdır. Bu səbəbdən də müəyyən geosiyasi mənsublar böyük biznes və lobbiçilərlə, fondlarla əlaqələr yaratmaqla sosial-iqtisadi rifah təminatını tənzimləyir, makroiqtisadi sabitliyi balanslaşdırır. Beləliklə, bəzi politoloq və iqtisadçıları qeyd edillər ki, bir çox parlametin deputatları Corc Sorosun strukturları tərəfindən idarə olunur. Bu geosiyasi mənzərədə dünyada real siyasi hakimiyyətin iqtisadi resurslara mənsubluğu məlum qrupun və koorporasiyaların inhisarında cəmləşdiyi fikrini ifadə edir. Belə koorporasiyalar və qrupların dünyada 500 dən böyük şirkətinin ümumi gəliri, 2021-ci ildə 41 trilyon dollara bərabər olmuşdur(3). Belə olduğu halda bir sı-

ra məlum şirkətlərin kapitalı dünya iqtisadiyyatında bir sıra ölkələrin ÜDM-dan üstün olduğu müəyyən edilir. Bu şəraitdə daha da iqtisadi zənginliyə nail olmaq üçün yaratdıqları fondlar bəşəriyyətin idarə olunmasında geosiyasi təsir vastəsinə nail olmaq niyyətində olduqları məlum olur. Bu koorporasiyalar bilavastə xarici investisiyalar vasitəsi ilə yeni texnologiyaları tətbiq edir və əmək məhsuldarlığını artırır, eyni zamanda yerli inhisarçıya çevrillər. Belə şəraitdə vətəndaşın öz mənfəətindən istifadə edə bilməməsi dövlətlər üçün siyasi-iqtisadi təhlükə yaradır, makroiqtisadi sabitliyin və sosial tarazlığın pozulması ilə nəticələnir.

Bu səbəbdən də dövlətlərin öz vətəndaşının soaial-iqtisadi rifahını təmin etmək məqsədi ilə BMT-nın dünya ölkələrində siyasi, hüquqi, sosial-iqtisadi və digər sahələrdə fəaliyyət istiqamətlərini əsaslanır, bu qurumlar da aşağıdakı kimi təsnifləşir.

BMT-nin əsas strukturu

Müşahidə, nəzarət və təftiş üzrə BMT-nin Kompensasiya Komissiyası

Sülhün dəstəklənməsi üzrə BMT əməliyyatları və missiyalar

Daimi komitələr və xüsusi təşkilatı BMT-ın fondu.

ƏSAS FONDLARI

BMTİP, BMT-nin İnkişaf Proqramı, BMT-nin Ticarət və İnkişaf Komtəsi.

BTM, Beynəlxalq Ticarət Mərkəzi Ətraf mühit üzrə BMT Proqramı,

İqtisadi, Sosial və Xüsusi İnkişaf Komissiyası olan İnsan Haqları Komissiyası.

Elm tərəqqi Komissiyası,

Asiya İqtisadi və Sosial Komissiyası, ÜTT (ticarət), Ümumdünya Ticarət Təşkilatı;

Beynəlxalq Valyuta Fondu - BVF Beynəlxalq Mülki təşkilatı;

Beynəlxalq Ümumdünya Meteorologiya və Ümumdünya Əqli Mülkiyyəti Təşkilatı;

Beynəlxalq Kənd Təsərrüfatı İnkişafı Fondu, BM-in Sənaye İnkişafı Təşkilatı.

İctimai İnformasiya Departamenti, İdarəetmə Məsələləri Departamenti.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı,

Beynəlxalq Maliyyə Koorporasiyası.

Hüquqi məsələlər üzrə BMT-nin elmi-tədqiqat institute,

Hərbi Qərargah Komitəsi,

Beynəlxalq Himayəçilik və Təhlükəsizlik Şurası,

Mənbə: Müxtəlif məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb.

Bununla yanaşı BMT-ın Təhlükəsizlik Şurasının Krım konfransı, dövlətlərin ümumi birliyi əsasında himayədə olan ərazilərin və əhalinin sosial-iqtisadi rifah tərəqqisi üçün qəyyumluq sistemi yaradılması ilə nəticələnmiş-

dir(5). Belə ki, əvvəllər bu təşkilat əsasında təhlükəsizlik mühüm istiqamət hesab edilirdisə, müasir geosiyasi şəraitdə isə sosial-iqtisadi rifah meyarını səciyələndirir.

Belə ki, həmin dövürdə Krım konfransından Konqresə məruzə edən Ruzvelt dünyanın və Asiyanın siyasi-iqtisadi gələcəyini proqnozlaşdırmaq üçün BMT-nın razılaşmalarını zəruri hesab edirdi. Dünya müharibəsindən sonra anti-faşist koalisiyasının rəhbərləri Krımda toplaşaraq müharibədən sonrakı dünyanın siyasi-iqtisadi sisteminin əsas istiqamətlərini müəyyənləşdirmişdilər. Beləliklə, Almaniyanı və dünyanı nüfuz dairəsinə parçalayan, dünyanın yeni siyasi-iqtisadi xəritəsini müəyyən edən Stalin, Ruzvelt və Çörçill, faktiki olaraq beynəlxalq iqtisadi münasibətlər sisteminin əsasını yaratmışlar(2). Bu səbəbdən də beynəlxalq siyasi-iqtisadi sistem reallıqda qısa zamanda qəbul edilən və müharibə şəraitinə uyğun müəyyənləşdirilən müvəqqəti bir dünya düzənini formalaşdıran geosiyasi plan kimi səciyyələnir.

Bununla yanaşı BMT-nin fəaliyyəti qeyd edilən təşkilat və komitələr vastəsi ilə dünya olkələrində siyasi-iqtisadi şəraitə nəzarəti və sosial-iqtisadi tərəqi istiqamətli funksiyaları həyata keçirir. Beləliklə, geosiyasi mənzərədə beynəlxalq iqtisadi münasibətlərin əsas predmeti kimi sosial-iqtisadi rifah təminatının artım meyarının həllinə tövsiyələrin verir. Bununla yanaşı BMT təsisatların fəaliyyət ilə dünya iqtisadiyyatında və beynəlxalq geosiyasi əlaqələrdə mövcud ictimai-iqtisadi sahələrdə, beynəlxalq təşkilatlarda öz əhəmiyyətini artırmaqla prosesləri tənzimləyir. Belə ki, geosiyasi əlaqələrdə sosial-hüquq bərabərlik uğrunda tarixən insanlar mübarizə aparıblar, qeyri bərabərliyin bütün formalarına qarşı çıxıblar. Bu səbəbdən də, BMT dünya ölkələrində sosial-iqtisadi artımın davamlı təminatın əsas prinsipi kimi makroiqtisadi sabitliyi və vətəndaşlara yeni iş yerləri yaradılmasını, investisiya fəallığını dəstəkləyir və beynəlxalq tədbirlərdə siyasi-iqtisadi tövsiyələr verir. Bununla yanaşı BMT ixracda və ticarətə maneələrinin aradan qaldırılması, vahid ticarət meyarını dəstəkləyir, insan haqlarının müdafiəsi sahəsində təşəbbüslə çıxış edir.

Beləliklə, Beynəlxalq maliyyə təşkilatlar (Beynəlxalq Valyuta Fondu) BMT-nin konfranslarında təqdim etdikləri sosial-iqtisadi tərəqqi təminatı proqramlarında qeyd edilir ki, pul-maliyyə sahəsində beynəlxalq əməkdaşlığı təmin etmək, beynəlxalq ticarətə və tarazlı tərəqqiyə şərait yaratmaq zəruridir. Belə ki, dünya ölkələrin iqtisadi tərəqqisinə yardımçı olmaqla, bəşəriyyətdə insanların sosial-iqtisadi rifahına nail olmaq, makroiqtisadiyyatın tədiyyə balansında qeyritarzalıqları aradan qaldırmaq məqsədi ilə BMT üzv ölkələrində maliyyə təminatı təşkil etmək BVF əsas pirinsipləri kimi səciyələnir.

Beləliklə, BVF-da əsas maliyyə vəsaiti olan ölkələr, ABŞ 19.78%,- Rusiya 2.8%, Almaniya 5.58%, Fransa 4.98%, Yaponiya 5.95%, Böyük Britaniya 4.91%, Səudiyyə Ərəbistanı 3.98%, kimi dövlətlər hesab edilir. Bu

siyasi-iqtisadi şəraitdə BVF-nu əsas məqsədi, dünya ölkələrinin iqtisadi meyarlarının tədiyyə balansındakı qeyri-tarzlığı aradan qaldırmaq, sosial yönümlü büdcə xərclərini təmin etmək və ölkənin makroiqtisadi stabilliyini həyata keçirilməkdir.

Bununla yanaşı BVF və Dünya Bankının proqnozlarına əsasən Azərbaycan yüksək gəlirli ölkələr kimi 2055-ci ilədək davamlı artımlı dövlətlər cərgəsinə daxil edilmişdir. Belə ki, əlverişli siyasi-iqtisadi artımın əsas meyarı makroiqtisadi sahədə məhsuldarlığın yaxşılaşdırılması və sosial-iqtisadi rifahın yaradılmasıdır. Bu pirinsiplərin əsasında ölkələrdə makroiqtisadi sabitliyi təmin etmək, kompleks məhsuldarlığı və orta gəlirli sahələri daha da artımına nail olmaqdır.

Beləliklə, qlobal iqtisadi problemlərin öyrənilməsi və aradan qaldırılması istiqamətində ki, təcrübələr Azərbaycanın gələcəkdə beynalxalq iqtisadi əməkdaşlığında sosial-iqtisadi mənafeyin qorunması və sosial-iqtisadi sahədə təhlükə hesab edilən meyarların tənzimlənməsini zəruri edir.

Bu səbəbdən də BVF və DB-nın Gömrük Konvesiyasına düzəlişlərin təsqid edilməsi iqtisadi tərəqqi və iqtisadi təhlükəsizliklə bilavastə əlaqəlidir. Belə ki, Gömrük prosedurlarının sadələşdirilməsi, "Beynəlxalq Konvesiyanın dəyişdirilməsi haqqında" bəyənnamənin Azərbaycanda tətbiqi ölkənin siyasi-iqtisadi mənafeləri və iqtisadi təhlükəsizliyi baxımından uyğunluğu ilə səciyyələnir. Bu kontekisdən yanaşdıqda Azərbaycanda gömrük siyasətinin liberallaşması və "Gömrük tarifi haqqında" Qanunda dəyişikliklərin edilməsi səciyyəvi hesab edilir. Belə ki, mövcud geosiyasi şəraitin əsas məqsədi gömrük rusumalarının düzgün müəyyənləşdirilməsi və gömrük tarifində liberallıq, şəffaflıq xarici iqtisadi əlaqələrin zəruri şərtlərindəndir.

Belə ki, dövlətin siyas-iqtisadi strategiyasının reallaşması əsasən iqtisadi təhlükəsizlik sisteminin dövlət tənzimlənməsinin, statik tədbirlər sistemi kimi deyil, yeniləşən şəraitdə mühüm meyarlara adekvat olan sosial-iqtisadi tərəqqinin davamlı təminatı kimi şərtlənir. Bu meyarlar əsasında ölkənin makroiqtisadi sabitliyi və tərəqqisi xarici ticarət dövriyyəsi ilə yanaşı ölkənin ixrac və idxal meyarının cəmi kimi ifadə olunur. Lakin xarici ticarətin həcmi isə mövcud siyasi-iqtisadi şəraitə uyğun real valyuta məzənnəsinin cari qiymətləri ilə hesablanır və tənzimlənir.

Bu səbəbdən də dünyanın makroiqtisadi dövriyyəsi xarici ölkələrdə ixracın həcminin cəmi ilə müəyyən edilməklə ABŞ dolları ilə hesablanır. Beləliklə, dünya iqtisadi əlaqələri ixrac və idxalın həcminin bərabərliyini səciyyələndirir. Belə ki, hər bir ölkə tərəfindən idxal edilən əmtəə digər ölkə tərəfindən ixrac edilir və belə formada idxal və ixracın tənzimlənməsi əsas iqtisadi meyar hesab edilir.

Beləliklə, Dünya ticarətinin obyektləri isə insan əməyinin məhsuldarlığının istismarı makroiqtisadi sabitliyin tənzimlənməsində antiinhisar siyasəti-

nin aktuallığını şərtləndirir. Belə ki, antiinhisar siyasətinin zərurliyi isə insan cəmiyyəti öz təkamülünü, antik, feodalizm və kapitalizm, kommunizm mərhələlərindən keçərək müasir siyasi-iqtisadi tərəqqi dövrünü xarakterizə edir. Burada antikliyin əsasını həmin dövrün məhsuldar qüvvələri olan insan (haqları) faktoru kimi mülkiyyət təşkil edir. Didər mərhələ isə feodalizm və kapitalizm dövrləri əsasən kapitala, kommunizm dövrü isə əməyə və əmək haqqına olan mülkiyyəti xarakterizə edir. Beləliklə, kapitalizmin tərəqqi meyarı əsasən istehsal vasitələri və mülkiyyət münasibətləri ilə müəyyənləşir.

Bu səbəbdən də merkantilistlər iqtisadi sistem üç mərhələdə təsnifləşdir. İstehsal sahələri, təsərrüfat və xarici koloniyalar kimi səciyyələndir. Belə ki, merkantalislərin fikirlərinə əsasən, tacirlər iqtisadi sistemin ən mühüm subyekti və istehsalın əsas meyarı hesab edilərsə haqsız rəqabət formalaşar və bunlarda ümumi siyasi-iqtisadi şəraitdə inhisarçılığın yaranmasına səbəb olar. Belə şərait isə ölkənin iqtisadi təhlükəsizliyi üçün real təhlükə formalaşdırar. Bu şəraitin yaranmaması üçün dünya ticarətində müxtəlif təcrübələr və nəzəriyələri mövcuddur ki, bunlarda beynəlxalq ticarətin müasir liberal formasını səciyyəldirir.

Beləliklə, merkantilistlər ölkənin iqtisadi gücünü onun qızıl və qiymətli metal ehtiyatları ilə ölçərək hesab edillər ki, qızıl ehtiyatlarının artımı dövlətin əsas vəzifəsi olmalıdır. Bütün növ xarici ticarətin əsasını bu xidmətlə əlaqələndirillər və hesab edirlər ki, dövlət öz mövqelərini gücləndirmək üçün makroiqtisadi ticarət balansını dəstəklənməlidir. Beləliklə, makroiqtisadi sabitliyə də daha çox əmtəə ixracı ilə qızıl axınını təmin etmək, daxili istehsalı və məşğulluğun artımına nail olmaqla əsaslandırırdılar. Merkantilistlərin bu fikirləri ticarət siyasətində idxalı artırmaqla ixracı məhdudlaşdırır və nəticədə ölkə daxilində hasil edilməyən xammalın rüsumsuz idxalına şərait yaradar. Beləliklə, merkantilistlər qızıl və digər qiymətli metalları ölkə sərvətinin qaynağı hesab etməklə, dövlət büdcəsinin və ölkənin geosiyasi-iqtisadi gücünün təməli kimi səciyyələndirillər(3). Bu meyarlar beynəlxalq iqtisadi əlaqələrdə ticarətin ölkə iqtisadiyyatı üçün əhəmiyyətimüasir siyasi-iqtisadi şəraitdə tədiyə balansını real təsvirin formalaşdırır.

Beləliklə, cəmiyyətin məhsuldar qüvvələri və istehsal münasibətləri, iqtisadi sistem və mülkiyyətin müxtəlifliyi, əmtəə və pul, qiymət, tələb-təklif və rəqabət, ictimai təkrar istehsal meyarları, istehsal xərcləri və mənfəət, sosial-iqtisadi artım və onun modelləri və inflyasiya, maliyyə sistemi və dövlət büdcəsi, vergilər və dövlətin fiskal siyasəti, pul-kredit sistemi və gəlirləri və əhalinin həyat səviyyəsi, beynəlxalq valyuta sistemi və xarici iqtisadi ticarət əlaqələri, makroiqtisadi təhlükəsizliyin inteqrasiyası və Azərbaycanın bu mərhələlərdə iştirakı, qloballaşmanın sosial-iqtisadi nəticələri və bunların optimal həllinin aktuallığı ilə səciyyələndirilir(5).

Beləliklə, bu meyarlar əsasında ölkədə makroiqtisadi sabitlik, sosial-iqtisadi rifah gücləndirməlidir və mühüm problemlərin həlli üçün, dünya təcrübəsində bu sahədə özünü doğrultmuş güzəştli meyarların tətbiq edilməsi zəruridir. Belə ki, dünyanın iqtisadi təcrübəsinə əsasən hər bir güzəştin səmərəliliyi üçün mütləq düşünülmüş makroiqtisadi tənzimləmə meyarı mühüm faktor hesab edilir. Belə ki, beynəlxalq təskilatlar olan BVF, DB, BMT, İƏT və digər qurumların Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatında mövqeyi 2025-2059-ci illərdə daha da artımlı olacağı və dövlətlərin sosial-iqtisadi meyarlarının müqayisəsi nəticəsində vətəndaş rifahın güclənəcəyini proqnozlaşdırmışdır. Bu proqnozlar əsasında mövcud fikirlərə əsasən Azərbaycanın xarici ticarət dövriyyəsi və ticarət tərəfdaşlarının artımı xarakterik hal hesab edilmişdir.

Belə möhtəbər beynəlxalq təşkilatın (BMT) çox illik fəaliyyət təcrübəsinin təhlili belə bir nəticə formalaşdırır ki, dünyanın geosiyasi və makroiqtisadi meyarlarının tənzimlənməsində BMT-nın mövqeyi əhəmiyyətli hesab edilir. Bununla yanaşı ABŞ-ın iqtisadi artım təcrübəsi hər dövlətin geosiyasi və iqtisadi mənzərəsi ilə müqaisədə onun dünya ticarətində ki, idxal, ixrac meyarlarının mahiyyəti mühüm faktor hesab edilir.

Bu səbəbdən də Azərbaycan dünyada çox etibarlı və ciddi siyasi-iqtiadi tərəfdaş kimi tanınır(1) və dünya ölkələri ilə xarici iqtisadi əlaqələrin əsas olan idxal meyarı aşağıdakı kimi təsvir edilir.

Xarici iqtisadi əlaqələrdə idxal ABŞ $ CƏDVƏL 1.

| Ölkələr | | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| Azərbaycan | İdxal | 251,9 | 12,7 | 19,5 |
| Rusiya | İdxal | 235,9 | 251,9 | 231,9 |
| Böyük Britaniya | İdxal | 571,9 | 591,5 | 781,9 |
| Almaniya | İdxal | 1284,3 | 1234,0 | 1151,9 |
| ABŞ | İdxal | 2551,9 | 2759,1 | 2595,5 |
| Fransa | İdxal | 551,9 | 554,7 | 592,5 |
| Türkiyə | İdxal | 231,59 | 251,9 | 259,1 |
| Gürcüstan | İdxal | 9,15 | 9,5 | 9,15 |
| Yaponiya | İdxal | 758,3 | 751,9 | 781,9 |

Mənbə: DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Beləliklə, ölkənin idxal və ixrac meyarları ticarət, istehsal fəaliyyətin tənzimlənməsində dövlət tərəfindən müəyyən dərəcədə təminat olması səciyyəvidir. Blə ki, dünya təcrübəsinə əsasən hansı ölkədə makroiqtisadi sabitlik

mövcudursa həmin ölkənin geoiqtisadi mənafelərin tənzimlənməsi ÜDM artımı ilə nəticələnir. Geoiqtisadi naliyyətlər ölkə iqtisadiyyatının tənzimlənməsində beynalxalq iqtisadi əməkdaşlıq, milli mənafelər və iqtisadi təhlükəsizlik baxımından əhəmiyyətli hesab edilir.

Bununla yanaşı reallıqda tədqiqat sahəsi sosial-iqtisadi rifahın davamlı artımına yönəldilən maliyyə vəsaitinin ümum daxili məhsulun həcminə əsasən müəyyən artım meyarı ilə səiyələnir. Belə ki, bu sahədə dünya bankının qiymətləndirdiyi meyarlara əsasən, Türkiyə 1%, Gürcüstan 0,4+05%, Azərbaycanda isə 0,2% təşkil edir. Bu səbəbdən də, ölkədə dövlət tərəfindən maliyyələşən bu istiqamətlər iqtisadi təhlükəsizlik meyarı kimi həssas və sosial-iqtisadi təhlükə mənbəyi kimi səciyələnir. Beləliklə, siyasi-iqtisadi sahədə haqsız rəqabət və zəyif biznes rəqabəti, sahibkarlıq sahəsində sosial-iqtisadi rifah artımına dəstək həcminin qənaətbəxş olmaması makroiqtisadi sabitliyin təhlükə meyarı kimi xarakterizə olunur. Belə ki, müstəqillik dövründə, xüsusi ilə də ölkənin intelektual potensialının xarici ölkələrə axını siyasi-iqtisadi təhlükə hesab edilən faktorlardandır. Bu hər hansı bir ölkə üçün ciddi siyasi-iqtisadi və sosial problem intelektual kapitalın, insan rifahının tərəqqisində öz mənfi əlamətləri ilə səciyələnir.

Geosiyasi mənzərədə makroiqtisadi sabitlik meyarı, siyasi-iqtisadi sistemi formalaşdıran normal sosial-iqtisadi və ictimai münasibətlərin nəticəsində mövcud olan iqtisadi tərəqqili cəmiyyətin bərabərliyinin əsasını səciyyələndirir. Beləliklə, geosiyasi və ictimai münasibətlər, əsasən də sosial-iqtisadi sistemə xas olan meyarlar kimi ümumilikdə cəmiyyətin iqtisadi mənafelərinin gücləndirilməsi ilə şərtlənir.

**Makroiqtisadi mənafelərin gücləndirilməsi**

Beləliklə, makroiqtisadi mənafələr dövlətin dəstəyi əsasında qiymət və mənfətin tənzimlənməsi və sosial-iqtisadi rifahın davamlı artımı ilə nəticələnməsini səciyyələndirir. Belə ki, iqtisadi şərait də torpaq və digər kapital mülkiyyəti, mülkiyyətçinin və kapitalist tərəfindən formalaşır. Burada mənfətli mülkiyyət iqtisadi katoqoriyalardan biri hesab edilir. Bunlar əsasən II dünya müharibəsindən sonra siyasi-iqtisadi sahədə "sosial-hüquq bərabərlik" anlayışlarına beynəlxalq ictimaiyyət daha həssas yanaşırdılar. Belə ki, BMT-ın İnsan hüquqları haqqında Ümumi Bəyannamədə qeyd edilir ki, bütün insanlar azad sosial hüquq bərabərliyində yaranmış idraka və vicdana malikdirlər.

Bu səbəbdən də sosial-hüquq, bərabərlik insan haqlarının ali prinsipi kimi obyektiv zərurətdən yaranmışdır. Bu sosial-hüquq prinsiplərə həmişə əməl olunması sosial-iqtisadi azadlıqların təminatı ilə səciyyələnir. Belə ki, sosial-iqtisadi təminat siyasi-hüquq bərabərlikdə vətəndaş məmunluğunun tam reallaşması ilə şərtlənir. Beləliklə, dövlətlərin büdcəsində, siyasi-iqtisadi

tərəqqinin əsası kimi insanların yeni işlə təmin edilməsi, ölkənin sosial-iqtisadi rifah təminatının gücləndirilməsində mühüm meyar hesab edilir.

Bu əsasda ölkənin makroiqtisadi meyarları 2020-ci ildə xarici ticarət dövriyyəsinin 11815,9 mln. ABŞ dolları, 2019-cu ildə 14687 mln. ABŞ dolları, 2021-ci ildə 18195,5 mln. ABŞ dolları, 2022-ci ildə 19592,5 mln.ABŞ dolları təşkil etməsi sosial-iqtisadi rifahın davamlı artımında əhəmiyyətli hesab edilir.

Beləliklə, makroiqtisadi siyasət əsasən monetar və fiskal metodlarla tənzimlənir və iqtisadi sabitliyin mühüm meyarı kimi səciyyələnir. Bu meyarlara əsasında ÜDM-un artım tempi və iqtisadi səmərəlilik qorunur və tənzimlənir. Beləliklə, sosial-iqtisadi meyarlar əsasında fiskal, büdcə-vergi siyasəti və monetar isə Pul-kredit siyasəti ilə tənzimlənir.

Bu səbəbdəndə Mərkəzi Banklar monetar siyasət müxtəlif metodlarla maliyə və pul siyasətini tənzimləməklə dövlətin sosial-iqrisadi mənafelərinin tarazlığının nəzərə alınması ilə səciyələnir. Belə ki, mərkəzi bank pul siyasətində pul təklifini və faiz dərəcəsini azaldılması ilə inflyasiyanı tənzimləyir. Bəzən banklar çox hallarda, faiz dərəcəsini sabit saxlamaq məqsədi ilə pul təklifində dəyişikliklər edirlər. Belə maliyyə və pul siyasəti sosial-iqtisadi mənafelərə uyğun tərtib edilməsi səciyyəvi hesab edilir. Beləliklə, bankların tərtib etdiyi faiz dərəcəsində dəyişiklik həm inflyasiyanı tənzimləyir həm də, makroiqtisadi sabitliyin güclənməsinə əlverişli şərait yaratmış olur. Bu əsasda Mərkəzi bankların məqsədi inflyasiyanı tənzimləməklə istehsal artımını təmin etmək və ölkədə sosial-iqtisadi rifah meyarının artımına əlverişli şəraitin yaratması zəruridir.

Bu səbəbdən də, fiskal siyasət isə hökumətin dövlət büdcəsinin gəlir və xərclərindən istifadə edərək iqtisadiyyatı tənzimləyir. Belə şəraitdə istifadə edilən iqtisadi metodlarla dövlət xərcləri istehsaldakı bütün neqativ proseslər tənzimləməlidir. Belə ki, əgər dövlət sosial-iqtisadi rifah artımını gücləndirirsə bu ölkədə işsizliyi minimuma endirilməsi və istehsaldakı durğunluğu aradan qaldırılması ilə nəticələnər. Bu ölkənin siyasi, sosial-iqtisadi rifahın təmin edilməsinin əsaslarından olan işsizliyin aradan qaldırılması, sosial ödənişlər və işsizlərə verilən müavinətlərin ümumi həcminin artımı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və əməkhaqlarının artırılması makroiqtisadi sabitliyin tənzimlənməsini əks etdirir.

Belə ki, ölkə rəhbəri İlham Əliyevin Azərbaycanda cari ildən minimum aylıq əməkhaqqını 345 manat, əmək pensiyasının minimum məbləğinin 281 manat müəyyən edən fərman və sərəncamı, əhalinin sosial-iqtisadi rifahının davamlı artımına yönəlmişdir. Beləliklə, Azərbaycanda makroiqtisadi tarazlığı vətəndaşın sosial müdafiəsi dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətlə əks olunur.

Bu səbəbdəndə Heydər Əliyev qeyd edirdi ki, makroiqtisadiyyat və texnologi tərəqqi cəmiyyətdə sosial qrupların bərabərliyini zəruri edir. Belə ki, dövlətin əsas məqsədindən biri sosial-iqtisadi rifah artımıdır. Beləliklə, monetar siyasət fiskal siyasətdən daha effektli olduğu qeyd edilsə də, nəticədə hər birinin (fiskal və monetor) sosial-iqtisadi rifahın davamlı artımının gücləndirilməsi dair təşəbbüsü məqbul hesab edilir(7).

Cari ilin iqtisadi meyarlarına əsasən ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik təminatı, pul siyasətinin tənzimlənməsi və sosial-iqtisadi cəhətdən artımı əsaslı, davamlı olacağı proqnozlaşır. Bununla yanaşı ölkə prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2022-2025-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na əsasən vətəndaşların sosial-iqtisadi rifah təminatı davam xarakter olacağı müəyyənləşmişdir. Bu istiqamətində bir sıra qərarlar qəbul edilmişdir. Belə ki, 2022-ci ildə qlobal iqtisadi proseslərin ölkə iqtisadiyyatına çoxtərəfli təsirləri ilə xarakterizə olunsada 2023-cü ildə sosial-iqtisadi rifah artım tempili olacağı və pul siyasətində monetar meyarlar vasitəsi ilə inflyasiya təzyiqinin yumşaldılması planlaşdırılmışdır(5).

Bununla yanaşı geosiyasi və makroiqtisadi mənafelərin gücləndirilməsi qeyd etməyə əsas verir ki, hər il üçün ehtiyac meyarının dövlət büdcəsi əsasında təsdiq olunması şərtlənir. Bununla yanaşı Bankların siyasi-iqtisadi şəraitdə mövcud olan dəyişikliklərə fiskal siyasətə nisbətən daha çevik reaksiya verməsi səciyyəvi hesab edilir. Bu səbəbdəndə elmi təhlillər nəticəsində Azərbaycanda sosial-iqtisadi rifah tərəqqisini şərtləndirən əlamətlərin müəyyən edilən idxal və ixrac meyarı aşağıdakı kimi əks edilmişdir.

**İxrac və idxal meyarların təsnifati** Təsvir 1.

| İXRAC | İDXAL |
|---|---|
| Dünyanın bəzi ölkələrində istehsal olunan (istehsal və emal edilmiş) əmtəələrin ölkələrlə mübadiləsi, | Xaricdən ölkəyə daxil olan əmtəələrin mənfəətli olmasıdır. |
| İstehsal emalının yenidən xarici ölkələrə göndərilməsi. | Xaricə göndərmək şərti ilə emal məqsədli xammal gətirmək. |
| İxrac, əvvəl xaricdən gətirilmiş, o cümlədən beynəlxalq hərraclarda, birjalarda satılmış əmtəələrin xarici ölkələrə göndərilməsi. | İdxaldan əvvəl xaricə göndərilmiş əmtəələrin geri qaytarılması. |

| | |
|---|---|
| İstehsalının xarici ölkələrdə sərgilərə, yarmarkalara çıxışı. | əmtəələrin müəyyən müddətə beynəlxalq sərgilərə, yarmarkalarda sərgisi. |
| Xarici şirkətlərlə birgə istehsal edilən məhsullara tələbat. | Dövlət və özəl şirkətlərin xarici məhsulların ölkəyə gətirilməsi |

Mənbə: müxtəlif məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Beləliklə, Heydər Əliyevin daxili və xarici siyasətinin əsas pirinsipi idxal, ixracın balanslaşdırılması və iqtisadi azadlığın sosial bərabərliyə əsaslandığını qeyd etmişdir. Belə iqtisadi siyasəti davam etdirən İlham Əliyev güclü iradəsi, liderlik keyfiyətləri və xarici iqtisadi diplomatiyası Azərbaycanın dünya ölkələri ilə münasibətlərini daha da genişləndirmiş, xalqdan aldığı tükənməz gücü, ölkənin siyasi, sosial-iqtisadi mənafeylərinin tənzimlənməsinə üstünlük vermişdir.

Beləliklə, yaşayış minimum ehtiyac meyarındakı fərqin balanslaşdırılması siyasi-iqtisadi şərtdə sosial tarazlığın zərurəti hesab edilir. Makroiqtisadi mənafelərin gücləndirilməsi yaşayış minimu, ehtiyac meyarının artımlı və bərabər olacağı proqnozlaşıb. Belə ki, yaşayış minimumu istehlak səbəti və icbari ödənişlərin cəmindən ibarət olub sosial-iqtisadi normalarla tənzimlənir. Bu yanaşmaya əsasən hər bir vətəndaşın rifah təminatını nəzərə alan ehtiyac meyarı mövcud siyasi-iqtisadi şəraitdə daha da əhatəli rifah təminatını özündə əks etdirir. Bu meyarlar əsasında sosial-iqtisadi konsepsiya və Dövlət Proqramları əhalinin sosial rifahın mövcud vəziyyətini və davamlı artım tenpini proqnozlaşdırması ilə səciyyələnir.

Belə ki, makroiqtisadi tarazlıq, inflyasiyanın iqtisadi təhlükəsizlik meyarı kimi dövlətin ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin maraqlarını, cəmiyyətin, dövlətin hüquq və mənafelərinin qorunmasını özündə əks etdirir. Beləliklə, iqtisadi təhlükəsizliyin əsas prinsipi cəmiyyət, vətəndaş və dövlətin mənafelərinin tarazlığının təminatı zəruri meyar hesab edilir. Mövcud siyasi-iqtisadi şəraitdə sosialyönümlü məsələlər cəmiyyətin ən aktual problemləri kimi səciyyələnir. Bununla yanaşı dövlət işsizliyin azaldılması, gəlirlərin ədalətli bölgüsü, sosial rifahın davamlı artımı, eləcədə ətraf mühitin qorunması və s. prinsipləri makroiqtisadi sabitliyi şərtləndirir. Bu səbəbdəndə ölkə rəhbəri İlham Əliyev qeyd edir ki, Azərbaycanda investitsiya mühütü əlverişlidir və ölkəmiz enerji mərkəzlərindən biridir, hədəfimi isə bərpa olunan enerjidir(1).

Makroiqtisadi sabitliyin təminatı və tarazlığın qorunması əsasən sosial tədbirlərin genişləndirilməsi, sosial-iqtisadi sahibkarlığın artırılması və sosial

müəssisələrin fəallaşması ilə səciyyələnir. Belə ki, sosial müəssisə dedikdə vətəndaşların əlavə iş yerləri ilə təmin olunmasının proqramlaşdırılması, onların fəal iqtisadi fəalliyyətə yönəldilməsi mühüm meyarlar hesab edilir. Bununla yanaşı sosial sahibkarlıq, innovativ sosial-iqtisadi rifah artımı və mənfəət bərabərliyi ilə səciyyələnir. Makroiqtisadi mənafelərin gücləndirilməsində innovativ sosial-iqtisadi sahibkarlıq yeni anlayış olsa da, onlar cəmiyyətin tərəqqisi və vətəndaş məmunluğunda daimi aktual olmuşdur. Beləliklə, sosial-iqtisadi sahibkarlığın bütün formaları, əsasən də innovasiya əsaslı sosial-iqtisadi rifah artımlı meyarlarla səciyyələnir.

## NƏTİCƏ

Dövlət tərəfindən sosial-iqtisadi sahibkarlığa və vətəndaş rifahına dəstək proqramların yenilənməsini zəruri edir. Belə ki, dünya təcrübəsinə səsaən hər bir iqtisadi sistemin makroiqtisadi tarazlıq fəaliyyətin təmin edilməsində dövlət həlledici rolu ilə səciyyələnir. Elmi meyarların və innovasiya fəaliyyətinin dəstəklənməsi uzunmüddətli davamlı iqtisadi tərəqqini təmin etmək, "elmi iqtisadiyyatı"nı formalaşdırmaq, elmi əsaslı innovasiyalı fəaliyyətinin əsas istiqamətlərini təşkil edir. Bununla əlaqədar olaraq, elmin inkişafı müasir siyasi-iqtisadi şəraitə uyğunluğu və qlobal meyyarları nəzərə alınmalı və mütərəqqi dünya təcrübəsindən yararlanmaqla soaial-iqtisadi tərəqqinin təmin edilməsinin intensivləşdirməklə səciyyələnir .

Təhlillər nəticəsində belə bir fikir yaranır ki, 2022-ci, 2025-ci və gələcək illəridə əhatə etməklə Azərbaycanın siyasi-iqtisadi cəhətdən tərəqqili və davamlı insan rifahının təminatında yeni iş yerlərinin yaradılması ilə əhatə olunan innovativ sosial proqramların tətbiqini şərtləndirir.

Belə ki, iqtisadi nailiyyətlər, ictimai-siyasi sabitliyin qorunmasını və vahid dövlət siyasətinin təşkili, dövlətin iqtisadi siyasətinin səmərəliyi, dövlət proqramlarının sosial-iqtisadi tərəqqiyə əsaslanan hədəfləri vətəndaş rifahının davamlı təminatına yönəldilməsi ilə səciyyələnir.

Beləliklə "Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 2002-ci il 10 sentyabr tarixli, "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 28 sentyabr tarixli fərmanı və sərəncamı müxtəlif dövlət orqanlarının nəzarət funksiyalarını məhdudlaşdırmaqla vətəndaşların sosial-iqtisadi rifah təminatında mövcud olan problemlərin kompleks və sistemli həllini, sahibkarlıq üçün əlverişli siyasi-iqtisadi mühitin yaradılmasını şərtləndirir.

Beləliklə, Azərbaycanda sosial sahibkarlığın mövcud vəziyyəti və davamlı həyata keçirmək məqsədi ilə sosial-iqtisadiyata əsaslanan makroiqtisadi fəaliyyətin artımını şərtləndirir. Belə ki, sosial-iqtisadi sahibkarlıq sosial

problemlərin həllinə yönəldilmiş innovativ tərəqqiyə əsaslanır. Bunlar ölkəmizdə sosial-iqtisadi sahələrin tərəqqisi üçün zəruri olan sosial sahibkarlığa marağı artırmışdır. Beləliklə, sosial sahibkarlıq müəyyən edilmiş iş fəaliyyəti və prosesi, sosial müəssisə isə bu prosesin təşkilati quruluşu hesab edilir. Lakin özünüməşğulluqdan fərqli olaraq sosial sahibkarlığın əsas mahiyyətini özündə əks etdirən davamlı tərəqqi məsuliyyəti gəlirlərin bərabər paylanmasına yönəldilməsi ilə səciyyələnir.

Beləliklə, özünüməşğulluq proqramı "Əhalinin özünü məşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 aprel tarixli 194 nömrəli Sərəncamı əsasında həyata keçirilməsi ilə səciyyələnmişdir. Belə ki, dövlət özünüməşğulluq proqramı vasitəsi ilə əhalinin, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinin zəruri etmişdir.

Bununla Azərbaycanda siyasi, sosial-iqtisadi sahibkarlığın tərəqqisi bir çox zəruri problemlərin həllini səciyyələndirir. Belə ki, sosial məşğulluğun artırılması, sosial-iqtisadi tərəqqini və dövlətin sosial-iqtisadi tədbirləri isə ictimai rifah artımını şərtləndirir.

## ƏDƏBİYYAT

1.İlham Əliyev "İnkişaf – məqsədimizdir", 1-cu kitab, Azərnəşr, Bakı 2018,
2. F.Əliyev "Azərbaycan elminin inkişaf Perspektivləri", Bakı: 2014.
3.İ.Alıyev "Milli iqtisadi tərəqqi modelinin formalaşması və pirinsipləri", Baki 2021.
4. Ə.Əlirzayev,"Sosial-iqtisadi rifah və idarəetmənin əsas prinsipləri". Bakı, 2018.
5.D.İ.Allahverdiyev, "Dünya iqtisadiyyatı:İqtisadi mənafeylər, mövcud reallıqlar və
perspektivlər",Bakı 2021.
6. N.Məmmədov "Geosiyasətə giriş", Bakı 2021.
7.R.Ə.Mehdiyev, "Yeni dünya nizamı: tərəqqiyə doğru" kitab, Azərbaycan nəşriyyatı, Bakı 2014.

Dagbeyi Allahverdiyev
Vusala Bakirova

## MACROECONOMICS IN A GEOSITICAL LANDSCAPE STRENGTHENING OF INTERESTS

**Summary**

In the study, the application of geo-economic relations with the world countries to the macroeconomic stability and sustainable social-economic prog-

ress of Azerbaijan, geopolitical interests and current criteria of economic security were interpreted. The total economic criteria of Azerbaijan and the ways of increasing the continuous provision of citizen satisfaction in social-economic well-being were analyzed. Thus, the international geopolitical relations of the state, macroeconomic regulation and social-economic well-being as a criterion for sustainable growth, the political-economic experience and modern situation of the countries of the world were studied.

**Keywords:** political-economic perspectives, innovative economic prosperity, sustainable economic progress, geo-economic interests, economic diplomacy.

Дагбейи Аллахвердиев
Вусала Бакирова

## МАКРОЭКОНОМИКА В ГЕОЭКОНОМИЧЕСКОМ ЛАНДШАФТЕ УКРЕПЛЕНИЕ ИНТЕРЕСОВ

### Резюме

В исследовании было интерпретировано применение геоэкономических отношений со странами мира к макроэкономической стабильности и устойчивому социально-экономическому прогрессу Азербайджана, геополитическим интересам и текущим критериям экономической безопасности. Были проанализированы общие экономические критерии Азербайджана и пути повышения непрерывного обеспечения удовлетворенности граждан социально-экономическим благополучием. Таким образом, были изучены международные геополитические отношения государства, макроэкономическое регулирование и социально-экономическое благополучие как критерий устойчивого роста, политико-экономический опыт и современное положение стран мира.

**Ключевые слова:** политико-экономические перспективы, инновационное экономическое процветание, устойчивый экономический прогресс, геоэкономические интересы, экономическая дипломатия.

**ФАРИД НАБИЗАДЕ**
**Азербайджанский Государственный**
**Экономический Университет,**
**Международный Центр Магистратуры и Докторантуры.**
farid21st@gmail.com

# ЛОЯЛЬНОСТЬ ПЕРСОНАЛА КАК КОНКУРЕНТНОЕ ПРЕИМУЩЕСТВО

**Аннотация:** В статье описывается влияние лояльности (вовлеченности) персонала на конкурентоспособность и эффективность организации, приводятся примеры преимуществ компаний, в которых лояльность стала безусловно конкурентным преимуществом.

**Ключевые слова:** конкурентоспособность, конкурентное преимущество, лояльность персонала, вовлеченность персонала, формирование вовлеченности.

## ВВЕДЕНИЕ

Персонал в организации рассматривается, как важнейший ресурс, как важное конкурентное преимущество организации, за счет которого можно обогнать своих соверников, компании инвестируют огромные средства для поддержании лояльного духа сотрудников, и в конечном итоге улучшает почти все важные показатели компании. Под «важными показателями» подразумеваются не только финансовые результаты, но также то насколько люди счастливы в данной компании, что говорит о репутации компании на рынке. Необходимость формирования и поддержания высокого уровня лояльности у сотрудников обусловлена тем, что лояльность к организации, в которой они работают, является у них ключевым фактором при формировании высокой профессиональной мотивации, которая, в свою очередь, отражается на всех сторонах деятельности организации. Работники, которые лояльны к организации, легче переносят временные трудности, связанные с функционированием организации, испытывают чувство гордости за то, что являются частью коллектива. Они также могут быстро решать различные проблемы, которые могут негативным образом отразится на организации.

Конкуренция является ключевым инструментом и одним из основных аспектов экономической жизни. Его значение происходит от слова «конкурировать» и означает стремиться вместе, подразумевая, что рынок с высокой конкурентной средой стимулирует уровень

человеческих устремлений, позволяя достигать наивысших результатов, а также является движущей силой технологических инноваций и роста производительности труда. Но как можно увеличить производительность труда, чтобы организация стала более конкурентоспособной, самый очевидный путь – увеличение вовлеченности сотрудников.

Давайте рассмотрим какие же преимущества может обеспечить вовлеченный персонал, для этого рассмотрим исследования компании "Gallup", которая является весьма влиятельной консалтинговой компанией сильно углубившейся в вопросы вовлеченности персонала. Ниже приведены результаты исследований, которы сравнивает компании с высокой вовлеченностью сотрудников с компаниями конкурентами с средней вовлеченностью, у компании с высокой вовлеченностью:

• на 10% выше удовлетворенность потребителей
• на 22% выше прибыльность
• на 21% выше продуктивность
• на 25% ниже текучесть персонала
• на 48% ниже несчастных случаев
• на 28% ниже краж
• на 37% ниже абсентеизм
• на 41% ниже дефектов

Как видно компания с высоким уровнем вовлеченности персонала имеет конкурентное преимущество над компанией конкурентом, которая исходит из правильного использования кадрового потенциала компании.

И так рассмотрев взаимосвязь между вовлеченностью и конкурентоспособностью, перейдем к тому как можно измерить вовлеченность сотрудников. Для этого можно рассмотреть следующие метрики (показатели):

• Текучесть кадров (должна быть низкой)
• Средний период (стаж) работников
• Проведение опросов касательно вовлеченности
• Уровень абсентизма
• Низкое количество инцидентов (касательно охраны труда) на месте работе
• и т.д.

Следует различать вовлеченность и благополучие сотрудников, ведь благополучие отдельно взятого сотрудника не всегда означает что сотрудник лоялен и вовлечен. Какие-же различия существуют между вовлеченностью и благополучием:

Благополучие – когда на рабочем месте существует условия из-за которых сотрудник остается работать в данной компании, такие как:

• Достойная оплата труда
• Льготы доставляемые компаний
•  Чувство безопасности касательно рабочего места
• Атмосфера на рабочем месте
• Возможности карьерного роста

Вовлеченность – когда сотрудник старается отдать больше ожидаемого. Исходит из:

• Как оценивается их вклад в работу
• Они знают и следуют целям компании
• Знают что от них ожидают
• Значимость – они чувствуют что их работа значима и имеет вклад в общую деятельность компании.

Рассмотрим взаимосвязь на рисунке:




Рисунок 1. Взаимосвязь между вовлеченностью и благополучием

И так рассмотрев взаимосвязь между вовлеченностью и конкуренцией и раскрыв понятие вовлеченности перейдем к тому как можно увеличит вовлеченность.

• Постоянная коммуникация направленная на увеличение вовлеченность.

-Двухсторонняя коммуникация – когда руководство компании постоянно напоминает что их главный актив это их сотрудники и создает платформы для обратной связи.

- Объяснение стратегии и миссии компании всем сотрудникам и создание среды где каждый осознаст свой вклад в компанию.

• Выиграть сотрудника на старте. Внедрение эффективной системы адаптации новых сотрудников.

• Справедливые и прозрачные процессы:

-Системы заработной платы и льгот.

-Управление производительностью.

-Внедрить эффективную систему управления деятельностью сотрудников (перформанса).

-Возможности обучения.

• Создание ощущения гордости за свою работу. Это главный фактор лояльности, поскольку ощущение причастности к чему-то важному мотивирует людей на большие достижения.

• Благоприятный климат в коллективе – это возможность повысить приверженность сотрудников. Если работники относятся друг к другу положительно, вероятность их увольнения или недовольства работой существенно снижается.

• Совместные мероприятия. Многие компании практикуют совместные походы, мастер-классы, спортивные фестивали, психологические тренинги. Все это проводится для сплочения людей в коллективе, повышения корпоративного духа и формирования совместных профессиональных стремлений на благо компании.

• Поощрение персонала за выполненную работу. Приверженность к бренду стремительно повышается, если компания вознаграждает сотрудников за хорошую работу.

• Конкурсы. Кроме благоприятной атмосферы в коллективе, важно поддерживать здоровую конкуренцию между работниками. Проводите ежемесячные конкурсы на звание лучшего сотрудника, создайте «доску почета», отслеживайте эффективность каждого члена команды.

**Заключение**

Анализируя вышеизложенные соображения, можно констатировать, что специфика этого времени заключается как в конкуренции предприятий, так и в среде, в которой они работают. Конкурентоспособные компании должны характеризоваться внутренней способностью и гибкостью приспосабливаться к изменяющимся условиям работы и получать от этого процесса определенные выгоды. Современная концепция создания конкурентного преимущества подчеркивает особую необходимость умелого использования приобретенных знаний и ресурсов.

Компании, чтобы выжить и остаться на рынке, должны уметь прогнозировать и точно оценивать свое положение. Они должны

действовать эффективно и иметь возможность развиваться в постоянно меняющейся среде, постоянно принимать решения о структурных изменениях. Это фактические детерминанты не только выживания компании и восстановления баланса в изменчивой среде, но и формирования ее динамичных планов, обеспечивающих ее бесперебойное и эффективное функционирование, получение конкурентных преимуществ и дальнейшее развитие, а кадры компании являются самой важной составляющей в этом процессе.

## Список использованных источников.

1. Харский К. В. Благонадежность и лояльность персонала. – М.: Питер, 2003.
2. Парамонова,Т.Н. Конкурентоспособность предприятия розничной торговли. Учебное пособие / Т.Н. Парамонова, И.Н. Красюк. – М.: КноРус, 2016.
3. Рубин, Ю. Б. Высшее образование в России. Качество и конкурентоспособность/Ю.Б. Рубин. – М.:Московская Финансово-Промышленная Академия, 2017.
4. Шагиахметова А.Х.,Родионова А.В.Трудовая мотивация сотрудников транснациональной компании: на примере Икеа. // Управление устойчивым развитием. – 2017.
5. Pinto J.K.,(2015)., “Project Management Achieving Competitive Advantage”. Pearson Education Limited.
6. Kotter J., Rathgeber H. (2016)., “Our Iceberg Is Melting: Changing and Succeeding Under Any Conditions.” Penguin Random House; 2 edition.
7. D. Faulkner, C. Bowman, Competitive strategies, 1996, Gebethner & Ska, Warsaw.
8. Маурер Р., (2014) “Шаг за шагом к достижению цели: Метод кайдзен. — М.: Альпина Паблишер.
9. Мухамедьяров А.М., (2008). “Инновационный менеджмент”. Учебное пособие /. - 2-е изд. - М.: ИНФРА-М.
10. https://www.shrm.org/

Redaksiyaya daxil olma tarixi: 06.10.2022
Çapa qəbul olunma tarixi: 01.02.2023
Elm və Təhsil Mərkəzi "Təfəkkür"
Universitetitiin müəllimi
Cavid Ismayilov tərəfindən çapa tövsiyə olunmuşdur

**İLKIN BEHBUDOV**
**Bakı Biznes Universteti**
**Magistrant**
**Ilkinbehbudov188@gmail.com**
**Həsən Bəy Zərdai st.88a.Baku**

# SIĞORTA SEKTORUNDA SƏMƏRƏLİLİK GÖSTƏRİCİLƏRİ SİSTEMİ

Xülasə

Səmərəlilik göstəriciləri sığortaçılar üçün öz fəaliyyətini qiymətləndirmək, təkmilləşdirilməli sahələri müəyyən etmək və əməliyyat mükəmməlliyini təmin etmək üçün vacib vasitə kimi xidmət edir. Səmərəlilik göstəricilərinin möhkəm sistemini tətbiq etməklə, sığortaçılar özlərinin əsas fəaliyyət göstəricilərinə nəzarət edə, tərəqqini ölçə və səmərəliliyini artırmaq üçün əsaslandırılmış qərarlar qəbul edə bilərlər. Bu essedə müzakirə olunan göstəricilər sığortaçının anderraytinq təcrübələri, iddiaların idarə edilməsi, xərclərə nəzarət, müştərilərin saxlanması və investisiya strategiyaları haqqında dəyərli fikirlər təqdim edir. Nəhayət, səmərəli sığorta şirkəti bazar problemlərini həll etmək, maraqlı tərəflərə dəyər təqdim etmək və davamlı inkişafa nail olmaq üçün daha yaxşı mövqe tutur.

Səmərəlilik şirkətlərin əməliyyatlarını optimallaşdırmağa, xərcləri idarə etməyə və sığortalılara dəyər təqdim etməyə çalışdığı sığorta sektorunda uğur üçün mühüm amildir. Bu məqsədlərə nail olmaq üçün sığorta şirkətləri onların fəaliyyətini ölçməyə və təkmilləşdirməyə kömək edən hərtərəfli səmərəlilik göstəriciləri sisteminə etibar edirlər. Bu essedə biz sığorta sektorunda belə bir sistemin əhəmiyyətini araşdıracağıq və səmərəliliyi qiymətləndirmək üçün ümumi istifadə olunan əsas göstəriciləri araşdıracağıq

Açar sözlər:Səmərəlilik,sığorta,xərc nisbəti, zərər nisbəti

## Giriş

Səmərəlilik şirkətlərin əməliyyatlarını optimallaşdırmağa, xərcləri idarə etməyə və sığortalılara dəyər təqdim etməyə çalışdığı sığorta sektorunda uğur üçün mühüm amildir. Bu məqsədlərə nail olmaq üçün sığorta şirkətləri onların fəaliyyətini ölçməyə və təkmilləşdirməyə kömək edən hərtərəfli səmərəlilik göstəriciləri sisteminə etibar edirlər(wikipedia). Bu essedə biz sığorta sektorunda belə bir sistemin əhəmiyyətini araşdıracağıq və səmərəli-

liyi qiymətləndirmək üçün ümumi istifadə olunan əsas göstəriciləri araşdıracağıq.

Sığorta Sektorunda səmərəlilik:

Sığorta sektorunda səmərəlilik sığorta şirkətlərinin giriş və ya resurslardan istifadəni minimuma endirməklə hasilatı maksimuma çatdırmaq qabiliyyətinə aiddir. O, sığortaçının əməliyyatlarının müxtəlif aspektlərini, o cümlədən anderraytinq, iddiaların işlənməsi, xərclərin idarə edilməsi, investisiya strategiyaları və müştəri xidmətlərini əhatə edir. Səmərəliliyin artırılması sığortaçılar üçün rəqabətqabiliyyətli qalmaq, gəlirliliyi qorumaq və uzunmüddətli artımı davam etdirmək üçün çox vacibdir.

Əsas səmərəlilik göstəriciləri:

Kombinə edilmiş nisbət: Birləşdirilmiş əmsal sığortaçının anderraytinq fəaliyyətini qiymətləndirmək üçün istifadə olunan əsas göstəricidir. O, çəkilmiş itkilər, xərclər və qazanılmış mükafatlar arasındakı əlaqəni ölçür. 100%-dən aşağı birləşmiş əmsal anderraytinq mənfəətini, 100%-dən yuxarı isə anderraytinq üzrə zərəri göstərir.

Zərər nisbəti: Zərər nisbəti baş vermiş zərərlərin qazanılmış mükafatlara nisbətini ölçür və sığortaçının iddiaların idarə edilməsinin səmərəliliyinin mühüm göstəricisidir. O, sığortaçının risk qiymətləndirməsinin, iddiaların idarə edilməsinin və anderraytinq təcrübələrinin effektivliyini əks etdirir. Daha aşağı itki əmsalı daha yaxşı risk seçimi və idarə edilməsi, iddiaların səmərəli həlli və siyasətlərin dəqiq qiymətləşdirilməsi deməkdir(2/sh 20-22).

Xərc nisbəti: Xərc nisbəti sığortaçının əməliyyat xərclərini qazanılmış mükafatların faizi kimi ölçür.

Bu, sığortaçının xərclərin idarə edilməsi təcrübələrinin səmərəliliyini qiymətləndirməyə kömək edir. Daha aşağı xərc nisbəti daha yaxşı xərclərə nəzarət, sadələşdirilmiş əməliyyatlar və resurslardan səmərəli istifadəni göstərir. Sığortaçılar yüksək keyfiyyətli xidmət göstərməklə öz xərc nisbətini minimuma endirməyi hədəfləyirlər.

İddialara baxılma müddəti: İddiaların səmərəli işlənməsi müştəri məmnuniyyəti və saxlanılması üçün çox vacibdir. Bu göstərici sığorta iddialarının işlənməsi və ödənilməsi üçün sərf olunan vaxtı ölçür(3/sh45-46). Daha qısa emal müddəti təkmilləşdirilmiş səmərəliliyi, müştəri xidməti və iddiaların effektiv idarə edilməsini göstərir. Sığortaçılar iddiaların işlənməsini sürətləndirmək və müştəri təcrübəsini artırmaq üçün sadələşdirilmiş proseslər, rəqəmsal həllər və avtomatlaşdırılmış sistemlərdən istifadə edirlər.

Səmərəlilik Göstərici Sisteminin üstünlükləri:

Sığorta sektorunda səmərəlilik göstəricilərinin kompleks sisteminin tətbiqi bir sıra üstünlüklər verir:

Performansın Qiymətləndirilməsi: Səmərəlilik göstəriciləri sığortaçılara əməliyyat fəaliyyətini qiymətləndirmək və onu sənaye meyarları ilə müqayisə etmək üçün obyektiv ölçülər təqdim edir. Bu qiymətləndirmə məlumatlı qərar qəbul etməyi asanlaşdırır, güclü və zəif tərəfləri müəyyən edir və sığortaçılara təkmilləşdirmə üçün real hədəflər qoymağa imkan verir.

Əməliyyatın təkmilləşdirilməsi: Əsas səmərəlilik göstəricilərinin müəyyən edilməsi və monitorinqi sığortaçılara təkmilləşdirmə üçün sahələri müəyyənləşdirməyə və proseslərini optimallaşdırmağa kömək edir. Bu, onlara əməliyyatları sadələşdirməyə, xərcləri azaltmağa, məhsuldarlığı artırmağa və darboğazları aradan qaldırmağa imkan verir.

Rəqabət üstünlüyü: Səmərəli sığortaçılar rəqabətqabiliyyətli mükafatlar təklif etmək, yeni müştəriləri cəlb etmək və mövcud müştəriləri saxlamaq üçün daha yaxşı mövqe tuturlar(4/sh97-100).Səmərəliliyin artırılmasına diqqət yetirməklə, sığortaçılar izdihamlı bazarda fərqlənə və rəqabət üstünlüyü əldə edə bilərlər. Onlar texnologiyaya sərmayə qoya, innovativ məhsullar inkişaf etdirə və üstün müştəri xidməti göstərə, bununla da bazar payını və gəlirliliyini artıra bilərlər.

Müştəri Məmnuniyyəti: Təkmilləşdirilmiş əməliyyat səmərəliliyi təkmilləşdirilmiş müştəri xidmətinə, iddiaların daha sürətli işlənməsinə və daha yaxşı sığortalı təcrübəsinə çevrilir. Effektiv sığortaçılar operativ və dəqiq xidmətlər, fərdiləşdirilmiş qarşılıqlı əlaqələr və şəffaf ünsiyyət təmin etməklə müştəri məmnuniyyətini üstün tuturlar. Məmnun müştərilərin siyasətlərini yeniləmək, başqalarına müraciət etmək və sığortaçının ümumi böyüməsinə töhfə vermək ehtimalı daha yüksəkdir.

## Ədəbiyyat siyahısı

1.Wikipedia, .
2.Elay Zeynallı -Səmərəliliyin qiymətləndirilməsi
3.Wang, K.Huang,Zang :Sığorta sənayesində səmərəliliyin qiymətləndirilməsi (2020),
4.Fenn,Lozani-Vivas A: Xərc səmərəliliyinin qiymətləndirilməsi

Система показателей эффективности в страховой сфере

**Резюме**

Показатели эффективности служат для страховщиков важным инструментом для оценки их эффективности, выявления областей, требующих улучшения, и обеспечения операционного совершенства. Внедряя надежную систему показателей эффективности, страховщики могут отслеживать свои ключевые показатели эффективности, измерять прогресс и принимать обоснованные решения для повышения эффективности. Показатели, обсуждаемые в этом эссе, дают ценную информацию о методах страховой компании по андеррайтингу, управлении претензиями, контроле затрат, удержании клиентов и инвестиционных стратегиях. В конечном счете, эффективная страховая компания имеет больше возможностей для решения рыночных проблем, обеспечения ценности для заинтересованных сторон и достижения устойчивого роста.

Эффективность является важнейшим фактором успеха в страховой отрасли, где компании стремятся оптимизировать операции, управлять затратами и приносить пользу держателям полисов. Для достижения этих целей страховые компании полагаются на комплексную систему показателей эффективности, которая помогает им измерять и улучшать свою работу. В этом эссе мы рассмотрим важность такой системы в страховом секторе и рассмотрим ключевые показатели, обычно используемые для измерения эффективности.

Key words: Efficiency,insurance,cost ratio,lost ratio

System of Efficiency Indicators in the Insurance Sector

Summary

Performance metrics serve as an important tool for insurers to evaluate their performance, identify areas for improvement, and ensure operational excellence. By implementing a robust system of performance indicators, insurers can monitor their key performance indicators, measure progress and make informed decisions to improve efficiency. The metrics discussed in this essay provide valuable insights into an insurer's underwriting practices, claims management, cost control, customer retention, and investment strategies. Ultimately, an efficient insurance company is better positioned to

address market challenges, deliver value to stakeholders, and achieve sustainable growth.

Efficiency is a critical success factor in the insurance industry, where companies strive to optimize operations, manage costs and deliver value to policyholders. To achieve these goals, insurance companies rely on a comprehensive system of performance indicators that help them measure and improve their performance. In this essay, we will examine the importance of such a system in the insurance sector and examine the key indicators commonly used to measure efficiency

Ключевые слова: Эффективность, страхование, коэффициент затрат, коэффициент убыточности.

Redaksiyaya daxil olma tarixi: 06.15.2022
Çapa qəbul olunma tarixi: 05.02.2023
Elmi rehbər: Dos. Ə.İ.Əliyev
tərəfindən çapa tövsiyə olunmuşdur

**AYTAC XALIQZADƏ**
**Bakı Biznes Universiteti**
**Magistrant**
**a.xaliqzade026@gmail.com**
**Ünvan : Bakı şəhəri , H.Zərdabi küçəsi , 88a, AZ1122**

# UZUNMÜDDƏTLİ AKTİVLƏRİN TƏSNİFATI

**Xülasə**

Məqalədə uzunmüddətli aktivlərdən bəhs olunur. Uzunmüddətli aktivlər bütünlükdə müəssisələrin sahib olduğu əmlakın içində yüksək və əhəmiyyətli çəkiyə malikdirlər. Uzunmüddətli aktivlər uzun illər istifadə olunur və qeyri-likvid sayılır, yəni asanlıqla nağd pula çevrilə bilməzlər. İstehsal, ticarət və investisiya məqsədləri üçün istfadə edilirlər. İstehsal prosesinin əsasən gələcəkyönümlü, uzunmüddətli inkişaf göstəriciləri olduqları üçün onların uçotu və auditi məsələləri müəssisələr üçün çox vacibdir .

Mühasibatlıqda uzunmüddətli aktivlərin uçotu,düzgün qiymətləndirilməsi və auditi ciddi nəzarət tələb edir. Onların rəsmi sənədlərdə uçotu və qeydə alınması müsəssisənin fəaliyyətinin tənzimlənməsi və inkişafına gətirib çıxaran proseslərdir.

Uzunmüddətli aktivin təsnifatının aparılması bu aktivin uçotu və maliyyə əməliyyatları üzrə hesabatlarının təşkil edilməsinin metodoloji bazasından birini təşkil etməkdədir. Ancaq nəzəriyyədə, bu istiqamətdə hazırlanmış ədəbiyyatlarda aktivlərlə bağlı elmi aspektdən əsaslandırılmış bölmə və təsnifatlar əksikdir. Əvvəllər olduğu kimi, günümüzdə də aktivlərin təsnifatının aparılması onların mövcudluq strukturuna uyğun olaraq təsnifləşdirilir. Bu vaxt belə, naticədə əldə edilə bilər ki, uzunmüddətli aktivlərin müxtəlif növləri çeşidli funksiyalar icra edir. Bununla belə, mövcudolma strukturundan, ya da növündən asılı olmayaraq uzunmüddətli aktivlərin hamısı müəyyən funksiyaya sahibdir. Qeyd edilmiş bu meyar isə öz qaydasında uzunmüddətli aktivlərin təsnifi və qruplaşmasının əsasında mümkündür.

**Açar sözlər :** uzunmüddətli aktivlər , uzunmüddətli maddi aktivlər , uzunmüddətli qeyri-maddi aktivlər

## Giriş.

Mühasibat uçotunda aktivlər iki yerə ayrılırlar : uzunmüddətli aktivlər və qısa müddətli aktivlər . Bu ayrılma onların istifadə müddətlərinə əsasən baş verir. Qısamüddətli aktivlərin istifadəsi bir ilə qədər müddət ərzində gerçəkləşir . Onlara cari aktivlər də deyilir. Likviddirlər və asanlıqla pula

çevrilə bilirlər. Cari aktivlərə misal olaraq ehtiyatları , qısa müddətli debitor borclarını , pul vəsaitləri və onların ekvivalentlərini göstərmək olar.

Uzunmüddətli aktivlər - müəssisə tərəfindən istehsal fəaliyyətini həyata keçirmək üçün istifadə olunan və yenidən satış üçün nəzərdə tutulmayan , bir ildən çox faydalı istifadə müddəti olan aktivlərdir .Uzunmüddətli aktivlərə qeyri – maddi aktivlər , torpaq -tikili -avadanlıqlar ,uzunmüddətli investisiyalar ,uzunmüddətli debitor borcları , təbii sərvətlər , bioloji aktivlər daxildir. Uzunmüddətli aktivlər şirkətin istehsal fəaliyyətini həyata keçirməsi , işlərin görülməsi və ya xidmətlərin göstərilməsi üçün nəzərdə tutulmuşdur.

Uzunmüddətli aktivlər şirkətin asanlıqla pula çevrilməyən və ya hesabat ili ərzində nağd pula çevrilməsi gözlənilməyən investisiyalarıdır. Onların məsrəfləri aktivin istifadə olunduğu illərin sayına bölünür və şirkətin balansında görünür. Uzun müddətli aktivlər bizim maliyyə hesabatlarımızda qalır və biz onu hissə-hissə silirik . Yəni onların dəyəri bir period ərzində silinmir və nəticə etibariylə onlar özlərinin bütün dəyərini zamanla maliyyə hesabatlarında xərc olaraq itirirlər . Qeyri – likvid sayılırlar və asanlıqla nağd pula çevrilə bilməzlər .

Uzunmüddətli aktivlər uzunmüddətli maddi aktivlərə və uzunmüddətli qeyri – maddi aktivlərə bölünürlər. Uzunmüddətli maddi akivlər fiziki formada olan aktivlərdirlər . Hansı ki , biz onları görə və toxuna bilirik . Uzunmüddətli qeyri – maddi aktivlər isə fiziki formaya malik deyillər , onları nə görmək , nə də toxunmaq olmur .

Uzunmüddətli maddi aktivləri ümumilikdə beş yerə bölmək




olar.

Torpaq – digər aktivlərdən fərqli olaraq amortizasiya olunmur . Yəni ilkin olaraq biz onun alışı zamanı ilkin dəyərlə balansa alırıq və xüsusi hallar olmadığı təqdirdə sona qədər torpağın dəyəri balansda eyni olaraq qalacaqdır(1/ sh 88-90).

Tikili və avadanlıqlar – bunlar müəssisənin əsas maddi- texniki bazasını təşkil edən aktivlərdirlər . Bildiyimiz kimi tikili və avadanlıqlar elə bir maddi aktivlərdir ki, onlar köhnəlməyə uğrayırlar , yəni müddət keçdikcə

aşınırlar . İstehsal edildikləri tarixdən ömür müddətlərinin sonuna qədər biz bunlara amortizasiya hesablayırıq.

Təbii resurslar ( sərvətlər ) – tikili və avadanlıqlardan fərqli olaraq bu maddi aktivlərdə tükənmə baş verir. Təbii resursların tərkibinə neft yatağı , qaz yatağı , qiymətli daş-qaş yataqları ,mineral sular , meşə massivləri  və s. daxildir. Yerin tərkindən çıxan xüsusi resursların  hər birini bura aid etmək olar . Yataqda olan resursun miqdarı , həcmi qiymətləndirilir və onlar istifadə olunduqca tükənərək bu şəkildə amortizasiya edilir .

Bioloji aktivlər – bunlara əsasən  bitkilər və heyvanlar aid edilir . Qeyd edim ki , buraya bitkilərin və heyvanların bütün növləri aid edilmir . Yalnız uzunmüddət üçün istifadə olunan bitkilər və heyvanlar aid edilə bilər . Bitkilərə misal olaraq meyvə almağa uzunmüddətli yararlı olan ağacları ( qoz ağaclarını , alma ağaclarını) göstərmək olar , heyvanlara isə damızlıq heyvanları , işçi heyvanları , işçi atları misal göstərmək olar. Bioloji aktivlər də tikili- avadanlıqlar və təbii sərvətlər kimi amortizasiya olunurlar . Belə ki , istifadə edilən bitkilərin və heyvanların ömür müddəti müəyyənləşdirilir və həmin ömür müddətinə uyğun olaraq amortizasiya hesablanır .

Digər uzunmüddətli maddi aktivlər-  qeyd etdiyim dörd  kateqoriyaya aid olmayan uzunmüddətli maddi aktivlər bu kateqoriyaya aid edilirlər . Bunlara misal olaraq , kitabxana fondlarını , rəsm əsərlərini , heykəlləri göstərmək olar . Bu aktivlərə amortizasiya hesablanmır , sadəcə ilkin dəyərlə balansa oturdulurlar və  tam istifadəyə yarasız olduqları halda balansdan bir dəfəlik silinirlər .

Uzunmüddətli qeyri – maddi aktivlər indifikasiya olunan , qeyri -manitar , fiziki formaya malik olmayan aktivlərdir . Qeyri -manitar dedikdə , pul olmayan , maddi halda pul şəklində ifadə olunmayan aktivlər başa düşülür . İdendifikasiya dedikdə , qeyri -maddi aktivlərin müəyyən oluna bilməsi başa düşülür. Fiziki şəkildə görünməyən , bilinməyən varlığının sübut edilə bilməsi üçün qeyri-maddi aktivlər müəyyən oluna bilən olmalıdırlar  . İdendifikasiyanın əsasında hüquqi cəhətdən təsdiqlənmə dayanır. Qeyri – maddi aktiv hər hansısa bir sənəd , müqavilə əsasında tanınır. Bunlara misal olaraq qudvili,  müəllif hüquqlarını ,patentləri , nou-hau hüquqlarını , proqram təminatını və s. göstərə bilərəm .

Qudvill ( “good will” ) satın alınan əmlakın balans dəyəri ilə bazar qiyməti arasındakı fərq kimi başa düşülür(2 sh/ 45-46).

Nou -hau hüquqları ( ingilis dilindən tərcümədə “ etməyi bacarmaq” deməkdir ) əsasən müəssisənin malik olduğu  kommersiya , texnologiya , maliyyə sirləridirlər.

Faktiki olaraq qeyri-maddi aktivlər müəssiələrin fəaliyyətindən asılı olaraq ümumi aktivlərin 5-98 % -ni təşkil edir( 2 /sh 36-39).

Classification of long-term assets

Summary

The article deals with long-term assets. Long-term assets have a high and significant weight in the assets owned by enterprises as a whole. Fixed assets are used for many years and are considered illiquid, meaning they cannot be easily converted into cash. They are used for production, trade and investment purposes. Since they are mainly future-oriented, long-term development indicators of the production process, their accounting and auditing issues are very important for enterprises.

In accounting, long-term asset accounting, proper evaluation and audit require strict control. Their accounting and registration in official documents are processes that lead to the regulation and development of the enterprise's activities.

The classification of long-term assets constitutes one of the methodological bases for organizing reports on accounting and financial operations of this asset. However, in the theory, in the literature developed in this direction, there is a lack of divisions and classifications based on the scientific aspect of assets. As before, assets are classified according to their existence structure. Meanwhile, it can be concluded that different types of long-term assets perform different functions. However, regardless of the structure or type of existence, all long-term assets have some function. This criterion is possible based on the classification and grouping of long-term assets.

**Keywords :** non-corrent assets , tangible non-corrent assets, intangible non -corrent assets

Классификация долгосрочных активов

Резюме

В статье рассматриваются долгосрочные активы. Долгосрочные активы имеют высокий и значительный вес в активах, принадлежащих предприятиям в целом. Основные средства используются в течение многих лет и считаются неликвидными, то есть их нельзя легко конвертировать в наличные деньги. Они используются в производственных, торговых и инвестиционных целях. Поскольку они в основном являются перспективными, долгосрочными показателями

развития производственного процесса, вопросы их учета и аудита очень важны для предприятий.

В бухгалтерском учете учет долгосрочных активов, надлежащая оценка и аудит требуют строгого контроля. Их учет и регистрация в официальных документах являются процессами, которые приводят к регламентации и развитию деятельности предприятия.

Классификация долгосрочных активов составляет одну из методологических основ организации отчетности по учетно-финансовым операциям с этим активом. Однако в теории, в литературе, разработанной в этом направлении, отсутствует деление и классификации, основанные на научной стороне активов. Как и прежде, активы классифицируются по структуре их существования. Между тем можно сделать вывод, что разные виды долгосрочных активов выполняют разные функции. Однако, независимо от структуры или типа существования, все долгосрочные активы имеют определенную функцию. Этот критерий возможен на основе классификации и группировки долгосрочных активов.

**Резюме**: долгосрочные активы, долгосрочные материальные активы, долгосрочные нематериальные активы.

## Ədəbiyyat siyahısı

1. Financial Accounting (2021-2022) :tangible non-current assets ,133.s, intangible non -current assets ,169.s.
2. Məmmədov Altun (2017) "İstehsal müəssisələrində qeyri-maddi aktivlərin uçotu", 7.s , 67.s.

Redaksiyaya daxil olma tarixi: 06.10.2022
Çapa qəbul olunma tarixi: 05.03.2023
Elmi rəhbər: Novruz Hüseynov
tərəfindən çapa tövsiyə olunmuşdur

**SƏDAN DADAŞOVA**
**Bakı Biznes Universiteti**
**Magistrant**
**dadasovasedan@icloud.com**
**Ünvan: Həsən Bəy Zərdabi st 88a, Baku Azerbaijan**

# KOMMERSİYA BANKLARINDA KAPİTAL EHTİYYATLARIN UÇOTUNUN TƏHLİLİNİN NƏZƏRİ METEDOLOJİ ƏSASLARI

**Xülasə**

Bazar iqtisadiyyatı şəraitində kapital ehtiyatları bütün bütün kommersiya banklarının fəaliyyətində mühüm rol oynayır. Kapital ehtiyatlarının uçotu da kommersiya banklarının fəaliyyətinə birbaşa təsir göstərir. Bunu nəzərə alaraq qeyd etmək olar ki, kapital ehtiyatlarının uçotunun optimallaşdırılması elmi araşdırmalar tələb edən aktual məsələlərdən sayılır. Məhz bu baxımdan təqdim edilən məqalədə kapital ehtiyatlarının uçotu sahəsində mövcud problemləri və perspektiv imkanları araşdırılmasını əhatə edilməsinə görə əhəmiyyətli hesab etmək mümkündür. Sistemli bir yanaşmaya əsaslanaraq, kapital ehtiyatlarının və onların uçotunun inkişafının problemləri, prioritetləri və perspektivləri hərtərəfli öyrənilmiş, təhlil edilmiş və qiymətləndirilmişdir.

Tədqiqatda əldə edilmiş nəticələrdən kommersiya banklarında uçot siyasətinin beynəlxalq standartların tələblərinə uyğun qurulmasında, həmçinin onun lazımi qaydada sənədləşdirilməsində və mühasibat uçotunun təşkil edilməsində istifadə edilə bilər.

**Açar sözlər**:kapital ehtiyatları, ,kommersiya bankları, ehtiyatların qiymətləndirilməsi.

**Giriş.**

Məqalədə kommersiya banklarında maliyyə sabitliyini təmin etmək, risklərə qarşı dayanıqlılığını artırmaq və müştəriləri əmin etmək üçün müvafiq kapital ehtiyatlarından bəhs edilir.Bu məqalədə kommersiya banklarında kapital ehtiyatlarının nəzəri metodoloji əsaslarına toxunmaqla bu prosesin əsas anlayışlarına və üsullarına diqqət yetirilir.

Müasir dövrdə, bazar iqtisadiyyatı şəraitində kapital ehtiyatlarının, onların tərkibini təşkil edən ehtiyatların, fondların, cəlb edilmiş vəsaitlərin uçotunun düzgün bir şəkildə qurulması mühim əhəmiyyət kəsb edən proseslərdəndir.Hazırda iqtisadiyyatın tərkibində bank sektorunun payının rolunun çox olması bu iqtisadi subyektlərdə uçotun təşkili və formalaş-

masına böyük həcmdə diqqətin göstərilməsinə, uçot qaydalarının yenidən nəzərdən keçirilməsinə gətirib çıxarmışdır. Kapital və kapital ehtiyyatları banka aktiv əməliyyatlarının sayını genişləndirməyə imkan verir və eləcə də ayrı-ayrılıqda hər bir bankın və bütövlükdə bank sisteminin fəaliyyət bacarığı kimi göstəricilərdə rəqabət qabiliyyətliliyini təmin edir. Bankın kifayət dərəcədə kapitallaşmasının təmin olunmasının vacibliyi bank kapitalına olan obyektiv tələbi şərtləndirir və iqtisadi bir kateqoriya kimi onun mahiyyətinin elmi cəhətdən dərk edilməsi üçün əsas faktor rolunu oynayır. Kapitalın mahiyyətinin nəzəri cəhətdən əsaslandırılması əhəmiyyətli dərəcədə onun formalaşmasına və bankın praktiki fəaliyyətinə təsir göstərir.

Kommersiya banklarında kapital ehtiyyatları banklar üçün mənfəət əldə etmək, əməliyyatlarını davam etdirmək, müştərilərə xidmət göstərmək və maliyyə risklərini idarə etmək üçün lazımdır. Bu müddəalar bankların risk profillərindən, fəaliyyətlərinin həcmindən və normativ aktlardan asılı olaraq müəyyən edilir. Banklar ümumiyyətlə öz mənfəətlərindən kapital toplamaq və kapital artırmaqla kapital tələblərini artırırlar. Bundan əlavə, banklar tənzimləyicilər tərəfindən müəyyən edilmiş minimum kapital tələblərinə cavab verməlidirlər. Kapital xidmətləri bankların maya dəyəri siyasəti, risklərin idarə edilməsi strategiyaları və kapitalın planlaşdırılması prosesləri ilə birlikdə qiymətləndirilir və idarə olunurlar.

Ehtiyatlar bir valyutanın məzənnəsinə mənfi təsir göstərə biləcək amillərə qarşı amortizator rolunu oynayır, bu səbəbdən bir ölkənin mərkəzi bankı valyuta ehtiyatlarını sabit məzənnəni qorumağa kömək edir, mübadilə qiymətlərinin hansı istiqamətə yönəlməsini istədiklərinə əsasən alırlar və ya satırlar. Ehtiyat səviyyələrini tənzimləmək mərkəzi banka, valyuta məzənnəsinə təsir edərək və ölkənin öz valyutasına olan tələbi və dəyərini artıraraq valyutadakı dəyişkənliyin qarşısını almağa imkan verə bilər. Mərkəzi bankın idarə heyəti, vaxtaşırı olaraq pul siyasətinin bir hissəsi olaraq ehtiyat tələblərini qarşılayır və qərar verir. Bir bankın ehtiyatda saxlaması üçün tələb olunan məbləğ iqtisadiyyatın vəziyyətindən və idarəetmə şurasının optimal səviyyəsi olaraq təyin etdiyi şeydən asılı qaydada dəyişir. Kommersiya banklarının aktivlərinin müəyyən hissəsi əmanətçilərin hesabına maliyyələşdirilir. Xüsusi kapitalın məbləğinin azaldılması əmanətçilərin maraqlarının azaldılması anlamına gəlir. Kapitalın qoruyucu funksiyası kommersiya banklarının ləğvi zamanı əmanətçilərə kompensasiyanın ödənməsinə xidmət edir. Digər müəssisələrdən fərqli olaraq kommersiya banklarının likvidliyinin qorunması xüsusi maliyyə kapitalının bir hissəsi vasitəsilə həyata keçirilir. Ümumilikdə, bankın səhmdar kapitalı xərclənmədikdə bank likvid sayılır.

Kapitalın formalaşmasına və artırılmasına yönələn vəsaitlər Azərbaycan Respublikasının milli valyutasında ödənilir və bankın əsas kapitalı hesab edilir. Əlavə kapitala bu kompinentlər aiddir:

- Bank tərəfindən əvəzi ödənilməklə qiymətlilər;
- Emissiya gəliri;
- Təyin olunmuş qaydada reallaşdırılan əsas vəsaitlərin yenidən qiymətləndirilməsi məbləği;

Ehtiyat kapitalı – nizamnamə kapitalından nəzərdə olunan miqdarda ayırmalar nəticəsində formalaşdırılır. Ehtiyat kapitalı bankın mövcud zərərləri ödəmək, bank tərəfindən buraxılmış səhmləri ödəmək və s. məqsədlərilə yaradılır.

Kommersiya banklarında kapital ehtiyatları qanunvericiliklə nəzərdə tutulmuş ehtiyat fondundan, yenidən qiymətləndirmə üzrə ehtiyat və digər ehtiyat fondlarından təşkil edilmişdir. Kapital ehtiyatları 33№li "Kapital ehtiyatları" müvafiq sənədlərə uyğun olaraq yaradılan ehtiyat kapitalını və onun hərəkət məlumatlarını ümumiləşdirmək məqsədinə xidmət edir. Bankın maliyyə vəziyyəti haqqında hesabatlarda kapital ehtiyatlarının ancaq ümumi məbləğləri göstərilməlidir. Bu ehtiyatların bir-birindən fərqli komponentləri barəsində məlumat isə uçot siyasəti və izahlı qeydlərdə açıqlanır. Bu maddəyə uyğun olaraq, kapital ehtiyatlarının tərkibi kimi aşağıdakı hesablar açılır:

- ✓ 331 № Yenidən qiymətləndirmə üzrə ehtiyat;
- ✓ 332 № Məzənnə fərqləri üzrə ehtiyat;
- ✓ 333 № Qanunvericilik üzrə ehtiyat;
- ✓ 334 № Nizamnamə üzrə ehtiyat;
- ✓ 335 № Digər ehtiyatlar;

Mövcud sənədlərə uyğun olaraq kapital ehtiyatları hesablar planının 33-cü maddəsində uçotda alınır. Bankın ehtiyat kapitalının miqdarı nizamnamə kapitalının 15%-ni təşkil edir. İllik ayırmaların miqdarı isə illik xalis mənfəətin ən azı 5%-ni təşkil edir. Bankın Nizamnaməsində nəzərdə tutulduğu vəziyyətdə "Ehtiyat Kapitalı (Fondu)" yaradılması mümkündür.

Kommersiya banklarında "Ehtiyat Fondu" məcburi qaydada və bir qayda olaraq müəyyən edilmiş normativlər əsasında il ərzində, yaxud illik mühasibat hesabatı bankın təsisçilərinin (səhmdarlarının) ümumi yığıncağı tərəfindən təsdiq edildikdən sonra mənfəətdən ayırmalar hesabına yaradılır. Kommersiya banklarında ehtiyat kapital (fond) qüvvədə olan qanunvericiliyə müvafiq qaydada yaradılır və zərərlərin ödənilməsi üçün, eləcə də səhmdar cəmiyyətinin istiqrazlarının ödənilməsi və başqa vəsaitlər olmadıqda onun səhmlərinin girovdan çıxarılması üçün nəzərdə tutulmuşdur. Qanunvericiliyə əsasən ehtiyat fondunun yaradılması nəzərdə tutulmayan təşkilatlarda bu fond xalis mənfəət hesabına yaradıla bilər.

Banklar haqqında Azərbaycan Respublikasının qanunlarına əsasən bankın kapital ehtiyatları ilə bağlı aşağıdakı şərtlər yerinə yetirilmədikdə bakın fəaliyyəti dayandırılır:

✓ bankın nizamnamə kapitalının və ya məcmu kapitalının miqdarı və xarici bankın yerli filialının nizamnamə kapitalına bərabər tutulmuş vəsaitinin və ya məcmu kapitalının (xarici bankın yerli filialının məcmu kapitalına bərabər tutulmuş 28 vəsaitinin) miqdarı müvafiq olaraq Maliyyə bazarlarına nəzarət orqanının banklar üçün müəyyən etdiyi nizamnamə kapitalının və ya məcmu kapitalın minimum miqdarından az olduqda;

✓ bankın məcmu kapitalının və ya xarici bankın yerli filialının məcmu kapitala bərabər tutulmuş vəsaitinin adekvatlıq əmsalı 3 faizdən az olduqda;

✓ bank müflis elan olunduqda;

**Mənbə:** anklar haqqında Azərbaycan Respublikasının Qanunu. 4 mart 2005 - ci il.Səyfə 45

## Ədəbiyyat


1. Ş.Ə Abdullayev "Kommersiya banklarının əməliyyatları" Dərs vəsaiti. Bakı-2004
2. Elnur Sadıqov. Bank əməliyyatları. Dərs vəsaiti. Bakı: "İqtisad universiteti" Nəşriyyatı, 2010.-212səh.
3. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu. 4 mart 2005 - ci il


## Theory of analysis of accounting of capital reserves in commercial banks

## Summary


In the conditions of the market economy, capital reserves play an important role in the activity of all commercial banks. Accounting of capital reserves also directly affects the activity of commercial banks. Taking this into account, it can be noted that the optimization of capital reserves accounting is considered one of the urgent issues that require scientific research. It is from this point of view that it is possible to consider the investigation of existing problems and perspective opportunities in the field of capital reserves accounting as important due to its coverage. Based on a systematic approach, the problems, priorities and prospects of the development of capital resources and their accounting have been thoroughly studied, analyzed and evaluated.

The results obtained in the study can be used in establishing the accounting policy in commercial banks in accordance with the requirements

of international standards, as well as in its proper documentation and organization of accounting.

**Keywords**: capital reserves, commercial banks, reserve evaluation.

## Теория анализа учета резервов капитала в коммерческих банках

### Резюме

В условиях рыночной экономики резервы капитала играют важную роль в деятельности всех коммерческих банков. Учет резервов капитала также напрямую влияет на деятельность коммерческих банков. Принимая это во внимание, можно отметить, что оптимизация учета основных средств считается одним из актуальных вопросов, требующих научных исследований. Именно с этой точки зрения актуальные проблемы и перспективные возможности в области учета резервов капитала можно считать важными в силу объема представленной статьи. На основе системного подхода были тщательно изучены, проанализированы и оценены проблемы, приоритеты и перспективы развития капитальных резервов и их учета.

Результаты, полученные в ходе исследования, могут быть использованы при установлении учетной политики в соответствии с требованиями международных стандартов в коммерческих банках, а также при ее правильном оформлении и организации бухгалтерского учета.

**Ключевые слова:** резервы капитала, коммерческие банки, оценка резервов.

Redaksiyaya daxil olma tarixi: 06.10.2022
Çapa qəbul olunma tarixi: 25.03.2023
Elmi rəhbər : i.e.d.Prof.,İ.M.Abbasov
tərəfindən çapa tövsiyə olunmuşdur

**ELGÜN NƏCƏFOV**
**Bakı Biznes Universiteti**
**Magistrant**
**elgunnecef1997@gmail.com**
**Ünvan: Həsən Bəy Zərdabi st 88a, Baku Azerbaijan**

# KOMERSIYA BANKLARINDA AUDIT FƏALIYYƏTININ QIYMƏTLƏNDIRILMƏSI ISTIQAMƏTLƏRI

**Xülasə**

Məqalədə komersiya banklarında audit fəaliyyətinin təşkil edilməsindən bəhs edilir. Audit fəaliyyətinin araşdırılması, qiymətləndirilməsi və xüsusiyyətləri təhlil edilir. Audit standartları auditin vəziyyətinə və məqsədinə baxaraq, audit yoxlamaları təşkil edildiyi zaman əsas istiqamətləri, prosedurları, pirinsipləri göstərilərək şərh edir

Bank sistemi digər sistemlərdən özünəməxsus xüsusiyyətlərinə görə fərqləndiyi kimi, bank auditi də özünəməxsus xüsusiyyətlərə malikdir. O, aid olduğu sistemin, bütövlükdə onun strukturlarının xüsusiyyətlərini özündə əks etdirir.

Hər bir ölkədə bank auditinin özünəməxsus xüsusiyyətləri vardır. Bu hər şeydən əvvəl onun yaranma tarixi, kökləri, şəraiti, qanunvericilik bazası, tətbiq mexanizmi, fəaliyyət qaydaları və başqa amillərdən asılıdır.

**Açar sözlər:** Audit, Komersiya bankları, Daxili audit, Xarici Audit

İdarəetmədə qərarların qəbul edilməsində əsas göstəricilərdən biri audit hesab edilir. İdarə etmə sistemində auditin funksiyası onun nəzarət və yoxlama ilə bağlı fəaliyyətinin təşkilini həyata keçirir.

Bazar iqtisadiyyatının formalaşmasında auditin müstəqil ekspert və auditin nəzarət, yoxlayıcı xüsusiyyətlərini nəzarə alaraq, başlıca prinsipləri səmərəliliyin yüksəldilməsi, maliyyə resurslarından qənaətlə istifadə, əmlakın qorunub saxlanılması, Sui istifadələrin qarşısının alınması, dürüst uçot və hesabatlar təşkil edilməlidir. Auditin təşkil edilməsində məqsəd, auditor fəaliyyətinin tənzimlənməsi, qərarların qəbul edilməsi, auditor ilə müşdərinin müqavilə əsasında öhdəliklərinin müəyyən edilərək məsələlərin həlli yolları araşdırılır.

Nəzarət forması olaraq audit hesabat dövründə maliyyə nəticələrinin əks etdirilməsində düzgünlüyü, dəqiqliyi, tamlığı, aydınlığı müəyyən etmək üçün tərtib etdiyi illik maliyyə hesabatını yoxlamalıdır. Maliyyə (mühasibat)

hesabatlarının auditi müəyyən olunmuş qaydalara əsasən uçotun aparılmasında hesabat formalarırının uyğun tərtib edilməsi düzgünlüyün yoxlanılması məqsədi ilə aparılır. Auditin tək məqsədi təşkilatlarda və müəssisələrdə sənədlərin yoxlanılması ilə məhdudlaşa bilməz, beləliklə audit mövcud vəziyyətin analitik nəticələrini ümumiləşdirməli, gələcəkdə inkişaf üçün pronozlar verilməli, elm və texnikanın inkişafı nəticəsində yeniliklərin istehsala tətbiqini həyata keçirir, problemlərin həlli yollarının araşdırılması, idarəetməni təkmilləşdirmək və real təkliflər vermək mütləqdir.

Hazırda dövlətin komersiya banklarına və kredit təşkilatlarının maliyyə nəzarətinə xüsusi diqqət yetrilir. Komersiya banklarının və kredit təşkilatlarının fəaliyyətləri ilə bağlı dəqiq məlumatların əldə etmək istəyən, dövlətin, investorların, müştərilərin, tərəfdaşların daxili nəzarətə və audit yoxlamalarına ehtiyacı yaranıb. Auditin vacib olmadığı zamanlarda belə yoxlama aparılması zəruri hesab etmək olar. Auditor özünəməxsus nəzarət və risklərin qiymətləndirilməsi, sınaqların həyata keçrilməsi, prosedurlara nəzarət edilməsi proqramını işləyib hazırlamalıdır. Komersiya bankının kredit əməliyyatları üzrə auditin işinin artması və təkmilləşdirmək üçün bir sıra təkliflər təqdim edilmişdir. Kredit anlayışına və riskinə aid olan, kredit təşkilatlarının maliyyə maliyyə nəticələrini təhlil etmək, auditor maliyyə hesabatlarının bütün aspektləri üzrə sübutlar və faktlar toplayaraq rəy bildirmək məcburiyyətindədir. Auditorun məqsədinin əsas istiqaməti olaraq kredit portfelinin şaxələndirilməsini qiymətləndirməkdir.

Kredit portfelinin mövcud iqtisadi vəziyyətini nəzərə alaraq, resursların qiymətləndirilməsini aparmaq, makro-iqtisadi tendensiyaları nəzərə almaq, iqtisadiyyatının sahələri üzrə analtik məlumtlara əsaslanır. Auditor hesabatları təhlil edərək illik mühasibat hesabının etibarlığını təsdiq etmək üçün auditor bankda risklərin idarə edilməsini və kredit strategiyası, prosedurları haqqında araşdırma aparıb məlumat verməlidir.( R.N.Kazımov, C.B.Namazova.sh.122-123)

Audit fəaliyyəti qanunverici və normativ hüquqi aktlar, sahədaxili əsasnamə, təlimat, metodik vəsait və digər normativ sənədlərlə tənzimlənir. Bu fəaliyyəti həyata keçirmək üçün audit öz işini planlaşdırmalı, müfəssəl proqram tərtib etməli, nizamlamalı, konkret fəaliyyət mexanizminə və metodologiyaya malik olmalıdır (İ.M.Abbssov .sh.83)

İqtisadi ədəbiyyatlarda auditin iki növündən bəhs edilir xarici və daxili audit. Xarici audit müəssisə və şirkətlərdə münasibətdə müstəqil fəaliyyət göstərir, xarici auditin verdiyi informasiyalara əsasən kənar istifadəçilərin qarşısında məsuliyyət daşıyır (banklar, səhimdarlar, kreditorlar, təsisçilər)( Q.R.Rzayev.sh.156)

Xarici auditin əsas məqsədi informasiyamın düzgünlüyü, dəqiqliyi və maliyyə(mühasibat) balansının realığı və uçotun düzgünlüyünün yoxlanılmasıdır. Uçot informasiyaları özlərində böyük iqtisadi nəticələri əks etdirir, İnformasiyaların real və obyektiv olması , riskdən və qeyri məhsuldar xərclərdən qaçmaq üçün əsas şərtdir. Kredit təşkilatları auditor firmasını və ya fərdi auditoru müstəqil olaraq seçir. İllik məcburi hesabatı xarici auditor tərəfindən aparlılaraq kredit təşkilatlarının ümumi yığıncağında müzakirədən sonra, təsdiq edilir.

Daxili audit komersiya banklarında və kredit təşkilatlarında auditin bu forması özünün idarəsi, uyğun şöbələri, bölməıəri tətəfindən həyata keçrilir. Daxili audit yoxlamasının aparılması qaydası müddəti, istiqamətləri kredit təşkilatının rəhbərliyi tərəfindən təyin edilir. Komersiyya banklarında və kredit təşkilatlarında audit yoxlaması öz daxili qrumu olduğu üçün məlumatların düzgünlüyünü təsdiq edə bilməz. Daxili audit müəssisə rəhbərinin müəyyən etdiyi istiqamətıər üzrə araşdırmalar apararaq məlumatlar hazırlayır.

Daxili audit müəssisə və təşkilatların inkişaf fəaliyyətinə dəstək verən, əhəmiyyətinin yüksəldilməsinə yönəldilmiş müstəqil fəaliyyət, obyektiv məsləhət verici əsas göstəricilərdəndir. Daxili audit fəaliyyəti sahəsinə sistemli yanaşmaqla, nəzarət və idarəetməni, riskin idarə edilməsini, səmərəliliyin qiymətləndirilməsi və inkişafına şərait yaradaraq məqsədlərə çatmaq üçün kömək edir.

Daxili audit təşkilatlarının əməkdaşları banklarda yoxlama məqsədilə, mühasibat, pul-hesabat,uçot-hesabat icazəsi olur. Daxili audit əməkdaşları icra etdikləri vəzifələr, bank işçiıərinin hərəkətlərinin icra etdikləri əməliyyatların düzgünlüyünə, daxili sənədlərin normativ tələblərə uyğun olub olmadığını müəyyən etməklə məşğuldurlar. Kredit təşkilatlarının göstəriciləri bütün fəaliyyət istiqamətləri üzrə risk ehtimalları qaçılmazdır. Komersiyya banklarının həyata keçirdikləri fəaliyyət istiqamətləri üzrə bütün vəzifə və öhdəlikləri auditor təşkilatları tərəfindən icra olunur. Auditorların göstərdikləri vəzifələr bir biri ilə əlaqəlidir və onlar eyni məqsədə, bankın fəaliyyətində sabit inkişafa nail olmağa, fəaliyyətinin yüksəldilməsinə, göstəricilərinin artırılmasına, gələcəkdə uzunmüddətli inkişaf üçün addımlar atır, ölkənin bank sisteminin davamlı inkişafının təmin edilməsi üçün xidmət göstərir.

Ədəbiyyat siyahısı

İ.M.Abbssov; Ali məktəblər üçün dərslik (Bakı 2007)
R.N.Kazımov, C.B.Namazova; Praktiki Audit dərslik
Q.R.Rzayev; Mühasibat uçotu və audit( Bakı 2006)

Directions for assessing audit activity
in commercial banks

Summary

The article deals with the organization of audit activity in commercial banks. Investigation, evaluation and characteristics of audit activity are analyzed. Audit standards interpret the main directions, procedures, and principles when organizing audit inspections, looking at the situation and purpose of the audit.

Just as the banking system differs from other systems due to its specific features, so does the bank audit. It reflects the characteristics of the system to which it belongs, its structures as a whole.

Each country has its own characteristics of bank audit. First of all, it depends on the history of its creation, roots, conditions, legal basis, application mechanism, rules of operation and other factors.

Keyswords: Audit, Commercial banks, Internal audit, External audit

Направления оценки аудиторской
деятельности в коммерческих
Банках

Резюме

В статье рассматривается организация аудиторской деятельности в коммерческих банках. Анализируются расследование, оценка и особенности аудиторской деятельности. Стандарты аудита интерпретируют основные направления, процедуры и принципы при организации аудиторских проверок с учетом ситуации и цели аудита.

Как банковская система отличается от других систем своими особенностями, так и банковский аудит. Он отражает особенности системы, к которой принадлежит, ее структуры в целом.

Каждая страна имеет свои особенности банковского аудита. Прежде всего, это зависит от истории его создания, корней, условий, правовой базы, механизма применения, правил работы и других факторов.

Ключевые слова; Аудит, Коммерческие банки, Внутренний аудит, Внешний аудит

Redaksiyaya daxil olma tarixi: 06.09.2022
Çapa qəbul olunma tarixi: 25.03.2023
Elmi rəhbər :Novruz Hüseynov
tərəfindən çapa tövsiyə olunmuşdur

**ELTUN ELŞƏN OĞLU XƏLİLOV**
**Bakı Biznes Universiteti**
**Magistrant**
**eltun-xelilov855@mail.ru**

# SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ MƏSULİYYƏTMƏRKƏZLİ UÇOT SİSTEMİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Məqalədə məsuliyyətmərkəzli uçot sisteminin təşkili xüsusiyyətlərindən bəhs edilir.Məsuliyyətmərkəzli uçot sistemi sənaye müəssisələrinin idarə edilməsində həlledici rol oynayır. Biləvasitə burada müəssisənin müxtəlif bölmələrindən alınan sənədlər əsasında bütün sintetik və analitik uçotun aparılması həyata keçirilir Müasir dinamik və mürəkkəb biznes mühitində sənaye müəssisələri öz əməliyyatlarını səmərəli idarə etmək üçün çoxsaylı problemlərlə üzləşirlər. Səmərəli idarəetmənin vacib aspektlərindən biri təşkilatlara xərcləri izləmək və bölüşdürmək, fəaliyyəti ölçmək və əsaslandırılmış qərarlar qəbul etmək imkanı verən müvafiq uçot sisteminin tətbiqidir. Məsuliyyətmərkəzli mühasibat uçotu sistemi təşkilat məqsədlərini fərdi məsuliyyətlərlə uyğunlaşdıran, hesabatlılığı gücləndirən və ümumi fəaliyyəti yaxşılaşdıran geniş şəkildə qəbul edilmiş yanaşmadır. Bu məqalədə sənaye müəssisələrində məsuliyyətmərkəzli uçot sisteminin təşkili xüsusiyyətlərini araşdırır və onun əməliyyat səmərəliliyinin artırılmasında üstünlüklərini vurğulayır.

**Açar sözlər:** uçot, müəssisə, sənaye, məsuliyyətmərkəzli, təşkilati

Mühasibat uçotu sistemləri sənaye müəssisələrinin səmərəli idarə edilməsində həlledici rol oynayır. Son illərdə diqqəti cəlb edən belə sistemlərdən biri də məsuliyyətə əsaslanan uçot sistemidir.Məsuliyyətə əsaslanan mühasibat uçotu sənaye müəssisəsi daxilində müxtəlif təşkilati bölmələrə və ya şəxslərə maliyyə öhdəliklərini təyin edən yanaşmadır. Onun məqsədi qərar qəbuletmə səlahiyyətlərinin mərkəzləşdirilməsini və maliyyə nəticələri üçün hesabatlılığın bölüşdürülməsini nəzərdə tutur. Sistem hər bir məsuliyyət mərkəzinin maliyyə fəaliyyətini izləyir və ölçür, idarəetmə qərarlarının qəbulu üçün dəyərli məlumatlar verir.Xərc mərkəzləri müəssisə daxilində xüsusi fəaliyyət və ya şöbələrlə bağlı xərclərin idarə edilməsi və minimuma endirilməsi üçün məsul olan təşkilati bölmələrdir. Bunlara adətən istehsal şöbələri, texniki xidmət bölmələri və inzibati funksiyalar daxildir. Xərc mərkəzləri istehlak etdikləri resurslara görə cavabdehdirlər və onların

səmərəliliyi əsasında qiymətləndirilir [2,s.96].Gəlir mərkəzləri təşkilat üçün satış və gəlir əldə etmək üçün məsuliyyət daşıyırlar. Bu bölmələrə satış qrupları, marketinq şöbələri və biznesin inkişafı bölmələri daxildir. Gəlir mərkəzləri gəlirliliyi qoruyarkən satış həcmini və gəlir artımını maksimuma çatdırmağa diqqət yetirirlər.Mənfəət mərkəzləri həm xərclər, həm də gəlirlər üzərində nəzarəti olan müstəqil bölmələrdir. Onlar təşkilat daxilində müstəqil qurumlar kimi fəaliyyət göstərirlər və ümumi gəlirlərinə görə məsuliyyət daşıyırlar. Mənfəət mərkəzləri çox vaxt xüsusi məhsul xətlərinə, coğrafi bölgələrə və ya biznes bölmələrinə uyğun gəlir.İnvestisiya mərkəzləri sərmayə qoyulmuş kapitalın idarə edilməsi və investisiya gəlirinin (İG) qiymətləndirilməsi üzrə əlavə məsuliyyət daşıyır. Bu bölmələrə resursların bölüşdürülməsi qərarları üzərində səlahiyyət verilir və kapitalın səmərəli istifadəsi üçün cavabdehdir. İnvestisiya mərkəzlərinə adətən əhəmiyyətli aktivlərə və qərar qəbul etmədə muxtariyyətə malik olan törəmə şirkətlər və ya biznes bölmələri daxildir [1,s.134].Məsuliyyətə əsaslanan uçot sistemləri hər bir məsuliyyət mərkəzinin maliyyə fəaliyyətini qiymətləndirmək üçün müxtəlif performans ölçülərindən istifadə edir. Bu tədbirlərə aşağıdakılar daxil ola bilər:

1. Əsas Performans Göstəriciləri (KPI):

KPI-lər məsuliyyət mərkəzinin fəaliyyətini qiymətləndirmək üçün istifadə olunan xüsusi ölçülərdir. KPI nümunələrinə xərc fərqləri, gəlir artım templəri, investisiya gəliri (İG), mənfəət marjası və bazar payı daxildir.

2. Büdcə və proqnozlaşdırma:

Məsuliyyətə əsaslanan mühasibat uçotu sistemi hər bir məsuliyyət mərkəzi üçün hədəfləri və gözləntiləri təyin etmək üçün büdcə və proqnozlaşdırma üsullarına əsaslanır. Büdcələr performans göstəriciləri kimi xidmət edir və planlaşdırılmış və faktiki nəticələr arasında müqayisə aparmağa imkan verir, performansın qiymətləndirilməsini və düzəldici fəaliyyətləri asanlaşdırır.Məsuliyyətə əsaslanan mühasibat uçotu menecerlər və işçilər arasında sahiblik və hesabatlılıq hissini inkişaf etdirir. Maliyyə öhdəliklərini təyin etməklə, o, fərdi və şöbə məqsədlərini təşkilatın ümumi məqsədləri ilə uyğunlaşdırır, motivasiya və performansın yaxşılaşdırılmasına kömək edir [4,s.76].Vaxtında və dəqiq maliyyə məlumatlarını təqdim etməklə, məsuliyyətə əsaslanan mühasibat təşkilatın bütün səviyyələrində daha yaxşı qərarlar qəbul etməyə imkan verir. Menecerlər öz qərarlarının maliyyə təsirini qiymətləndirə və performans və resursların bölüşdürülməsini optimallaşdırmaq üçün müvafiq tədbirlər görə bilərlər.Məsuliyyət mərkəzlərinin uçotu müəssisənin strukturunun məhsul əsasında qurulmasını təklif edir. Bu struktur kadr funksiyalarını (məsləhətləşmələr) və xətt funksiyalarını (mənfəət üçün bilavasitə cavabdeh olan) müəyyən edir.Xərclərin baş vermə yerləri (mərkəzləri) üzrə qruplaşdırılması - təşkilatların inzibati, təşkilati və funksional cəhətdən ayrı-

ayrı struktur hissələri üzrə xərclərin idarə edilməsi sistemlərinin təşkili, büdcənin tərtibi və şirkətdaxili xərclərin uçotu və nəzarəti məqsədləri üçün lazımdır. Onlar həmçinin məhsulların (işlərin, xidmətlərin) planlı və faktiki maya dəyərinin müəyyən edilməsində vahidliyi təmin etməyə imkan verir, mühasibat uçotu sistemində məsrəflər üzrə müvafiq etibarlı analitik məlumatların formalaşdırılmasına şərait yaradır.

*Xərclərin baş vermə yerləri (mərkəzləri) ümumi qəbul edilmiş bölgüyə malikdir:*

1) əsas istehsala aid;
2) köməkçi istehsalla bağlı;
3) xidmət istehsalı və təsərrüfatlarla bağlı;
4) əsas və köməkçi istehsalata xidmət funksiyalarının yerinə yetirilməsi;
5) istehsal prosesi ilə birbaşa əlaqəli olmayan ümumi idarəetmə və texniki xidmət funksiyalarını yerinə yetirmək;
6) aparıcı satış, reklam və ticarət fəaliyyəti.

Xərclərin baş vermə yerləri (mərkəzləri) üzrə qruplaşdırılması əsas və köməkçi istehsalat sahələrinə aid olan emalatxanalar, sənayelər, sahələr tərəfindən, təşkilatın təşkilati strukturunda nəzərdə tutulmuş hər bir fərdi struktur bölmənin kontekstində, təfərrüatları ilə aparılır.

Vahid texnologiyaya və ya eyni istehsal növünə malik olan əsas istehsalın ayrı-ayrı bölmələrinin maya dəyərinin vahid yerlərdə (mərkəzlərdə) birləşdirilməsinə yalnız eyni çeşiddə məhsul (iş, xidmət) növləri olduqda yol verilir. Maliyyə Məsuliyyəti Mərkəzi müəyyən təsərrüfat əməliyyatlarını həyata keçirən, bu əməliyyatlardan əldə edilən gəlir və ya xərclərə birbaşa təsir göstərə bilən və qarşısına qoyulan məqsədlərin həyata keçirilməsinə cavabdeh olan struktur bölmə və ya bölmələr qrupudur.

Mərkəzi Federal Dairənin ayrılması bir neçə əsasla mümkündür:

- məsuliyyət sahələrinə görə;
- məhsullar və onların qrupları üzrə;
- müştərilər tərəfindən;
- gəlir mərkəzləri, xərc mərkəzləri, mənfəət mərkəzləri, investisiya mərkəzləri tərəfindən.

Gəlir mərkəzi - maliyyə məsuliyyəti mərkəzi, onun rəhbəri ayrılmış büdcə çərçivəsində satışdan əldə olunan gəlirin artırılmasına cavabdehdir, qiymətləri dəyişmək səlahiyyətinə malik deyil və vəsaitlərin xərclənməsi (büdcə daxilində) məhduddur.Xərc mərkəzi - rəhbəri müəyyən edilmiş xərclər smetası çərçivəsində öz funksiyalarının yerinə yetirilməsinə cavabdeh olan maliyyə məsuliyyəti mərkəzi. Bir qayda olaraq, bunlar şirkətin fəaliyyəti üçün dəstək və texniki xidmət göstərən və birbaşa mənfəət gətirməyən bölmələrdir. Xərc mərkəzləri arasında standart məsrəf mərkəzi də fərqlənir - məsrəf standartlarının təyin olunduğu belə bir xərc mərkəzi və

ya bu mərkəzin meneceri faktiki xərclərin planlaşdırılanlardan kənara çıxmasına görə məsuliyyət daşıyır.

Səmərəli fəaliyyət ya giriş elementlərinin minimum istifadəsi ilə müəyyən bir məhsul həcminin istehsalında, ya da giriş elementlərindən istifadənin verilmiş miqyası ilə maksimum məhsulun həcmində ifadə edilməlidir.Nəticə etibarilə, məsuliyyətə əsaslanan mühasibat uçotu sistemi sənaye müəssisələrini maliyyə nəticələrini idarə etmək üçün güclü vasitə ilə təmin edir. Məsuliyyət mərkəzlərinin təşkilati xüsusiyyətlərindən istifadə etməklə, təşkilatlar hesabatlılığı artıra, qərarların qəbulunu təkmilləşdirə və ümumi performansı artıra bilər. Bununla belə, sistemin effektivliyini maksimuma çatdırmaq üçün icra problemlərini həll etmək və fərdi və təşkilati məqsədlər arasında tarazlığı saxlamaq vacibdir. Diqqətli planlaşdırma və davamlı monitorinq ilə təşkilatlar bu sistemin faydalarını əldə edə və bugünkü dinamik biznes mühitində rəqabət üstünlüyü əldə edə bilərlər.

## ƏDƏBİYYAT


1. B.Xankişiyev, Ş.Əliyev. "Büdcə təşkilatlarında uçot və hesabat". Bakı2013
2. A.H.Əliyeva Mühasibat uçotu Bakı: Elm və təhsil , 2015. 243 səh
3. V.İ.İsayev, Q.Ə.Abbasov, M.C.Hacıyev Mühasibat uçotunun nəzəriyyəsi Bakı. 2014
4. Q.Ə.Abbasov, Ə.Daşdəmirov, V.Quliyev Mühasibat uçotu Bakı, Elm,2012
5. Q.Rzayev Mühasibat uçotu və audit İqtisad Universiteti nəşriyyatı. Bakı-2006 səh 384


## Organizational characteristics of the responsibility-based accounting system in industrial enterprises


### Summary

The article talks about the organizational features of the responsibility-centered accounting system. The responsibility-centered accounting system plays a decisive role in the management of industrial enterprises. Directly here, all synthetic and analytical accounting is carried out on the basis of documents received from various departments of the enterpriseIn today's dynamic and complex business environment, industrial enterprises face numerous challenges to manage their operations effectively. One of the important aspects of effective management is the implementation of an appropriate accounting system that enables organizations to track and allocate costs, measure performance, and make informed decisions. A

responsibility-based accounting system is a widely accepted approach that aligns organizational goals with individual responsibilities, strengthens accountability, and improves overall performance. This article examines the organizational features of the responsibility-based accounting system in industrial enterprises and highlights its advantages in increasing operational efficiency.

**Keywords**: accounting, enterprise, industry, responsibility-oriented, organizational

## Организационная характеристика учетной системы ответственности на промышленных предприятиях

Резюме

В статье говорится об организационных особенностях системы учета, ориентированной на ответственность.Система учета, ориентированная на ответственность, играет решающую роль в управлении промышленными предприятиями. Непосредственно здесь ведется весь синтетический и аналитический учет на основании документов, поступающих из различных отделов предприятия.

В современной динамичной и сложной бизнес-среде промышленные предприятия сталкиваются с многочисленными проблемами, связанными с эффективным управлением своей деятельностью. Одним из важных аспектов эффективного управления является внедрение соответствующей системы учета, которая позволяет организациям отслеживать и распределять затраты, измерять производительность и принимать обоснованные решения. Система учета, основанная на ответственности, — это широко распространенный подход, который увязывает организационные цели с индивидуальными обязанностями, усиливает подотчетность и повышает общую производительность. В данной статье рассматриваются организационные особенности системы ответственного учета на промышленных предприятиях и выделяются ее преимущества в повышении операционной эффективности.

**Ключевыеслова**: бухгалтерский учет, предприятие, отрасль, ответственный, организационный.

**ETİMAD ƏSGƏROV**
**Bakı Biznes Universiteti**
**Magistrant**
**esgerovetimad48@gmail.com**
**Ünvan: Həsən Bəy Zərdabi st 88a, Baku Azerbaijan**

# TİKİNTİ TƏŞKİLATLARINDA MALİYYƏ NƏTİCƏLƏRİNİN UÇOTUNUN TƏŞKİLIİIN NƏZƏRİ METEDOLOJİ ƏSASLARI

**Xülasə**

«Tikinti təşkilatlarında gəlirlərin və xərclərin uçotu metodikası» onun təkmilləşdirilməsi» mövzusunda aparılmış tədqiqat aşağıdakı nəticələr çıxarmağa və təkliflər irəli surməyə imkan verir. 1. Tikinti – maddi istehsalın başlıca sferalarından biri olmaqla, ölkənin iqtisadisosial inkişafında mühüm rol oynayır. Tikinti biznesinin inkişafı bir çox digər şərtlərlə yanaşı, burada idarəetmə mexanizminin daim yenilənməsindən və təkmilləşdirilməsindən asılıdır. Həmin sahənin idarəetmə mexanizminin əsas elementlərindən birini uçot sistemi təşkil edir.

Uçot sisteminin, o cümlədən, gəlirlərin və xərclərin uçotunun adekvat şəkildə qurulması tikinti təşkilatlarının fəaliyyəti barədə münasib və faydalı informasiya formalaşdırmağın, bununla da sifarişçilərin investisiya qərarları qəbul etmələrinin çox mühüm şərtidir; 2. Araşdırmalar göstərir ki, gəlirlərin və xərclərin uçotunun düzgün və səmərəli təşkili həm nəzəri-metodoloji, həm də praktiki məsələlərin kömpleks və sistemli şəkildə həllindən aslıdır. Əsaslandırılmış nəzəri-metodoloji müddəalar və təsbitlər gəlirlərin və xərclərin uçotunun praktiki problemlərinin məqsədyönlü həllinə imkan verir.

**Açar sözlər: tikinti təşkilatları,uçot sistemi ,maliyyə nəticələri.**

## Giriş

Məqalədə maddi istehsalın əsas sferalarından biri olan tikinti təşkilatlarının ölkənin iqtisadi-sosial inkişafında oynadığı rol, maliyyə, həmçinin gəlir və xərclərin uçotu, uçotun metodologiyasından bəhs edilir.

Tikinti maddi istehsalın əsas sferalarından biri olmala ölkənin iqtisadi-sosial inkişafında mühüm rol oynayır.

Tikinti sektorunda baş verən durğunluq digər sferaların və sahələrin vəziyyətinə də təsir edir, bütövlükdə ümumi daxili məhsulun həcmini azaldır və s. neqativ nəticələrə gətirib çıxarır. Ona görə də, dövlət bu sferanın

inkişaf etdirilməsi üçün lazımi tədbirlər görür, bu sferada fəaliyyət mexanizminin təkmilləşdirilməsini həyata keçrir. Həmin mexanizmin çox mühüm tərkib hissəsini uçot və hesabat təşkil edir. Bu sistemin vasitəsilə tikinli təşkilatlarının maliyyə vəziyyəti, onun dəyişilməsi, maliyyə nəticələri, kapitalının tərkibi və quruluşu, pul vəsaitlərinin hərəkəti haqqında informasiya formalaşdırılır. Formalaşdırılan informasiya əsasında həm tikinti təşkilatlarının özləri, həm də kənar istifadəçilər iqtisadi qərarlar qəbul edirlər.

Məlum olduğu kimi, tikinti təşkilatları birbaşa sifarişlər əsasında, tikinti müqavilələrinin bağlanması əsasında fəaliyyət göstərir. Sifarişçilərin qoyduğu investisiyalar tikinti təşkilatlarının fəaliyyətinin demək olar ki, yeganə maliyyə mənbəyidir.

Digər tərəfdən, sifarişçilərin özləri onda maraqlıdır ki, onların sifarişlərini yerinə yetirən tikinti təşkilatlarının əmlak və maliyyə vəziyyəti, tədiyyə qabiliyyəti, maddi-texniki bazası möhkəm olsun ki, onlar sifarişləri vaxtında və yüksək keyfiyyətlə yerinə yetirsinlər. Bu da öz növbəsində tələb edir ki, tikinti təşkilatlarının gəlirlərini və xərclərini düzgün müəyyən edən, onlar barədə obyektiv informasiya formalaşdıran uçot sistemi yaradılmış olsun.

Tikinti təşkilatının sistem mühasibat uçotunda ən vacib yer maliyyə nəticələrinin müəyyən edilməsi və uçotudur.

Digər elmlərdə olduğu kimi, uçot sahəsində də, mövcud olan problemlərin və məsələlərin öyrənilməsində, müxtəlif obyektlər, elementlər üzrə kəmiyyətlərin formalaşdırılmasında metodologiyanın çox böyük rolu və əhəmiyyəti vardır. Metodologiya anlayışı iki sözün, metod və loqos sözlərinin birləşməsindən yaranmışdır. Fəlsəfədə metodologiya sözü insanın nəzəri və praktiki fəaliyyətinin təşkili və qurulmasının üsulları haqqında təlim kimi başa düşülür (17, s.405). Mühasibat uçotu sahəsində metodologiya müəssisə və şirkətlərin fəaliyyəti zamanı meydana çıxan hadisə və faktlar barədə məlumatların yığılması, təsnifatı, qruplaşdırılması və informasiya şəklinə salınmasını təmin edən metodların və üsulların məcmusu kimi başa düşülə bilər. Metodologiya anlayışı metodlardan və üsullardan daha genişdir. Uçot sahəsində metodologiyaya prinsipləri, standartları, onların müxtəlif elementlərini də aid etmək olar.

Uçot sferasında, o cümlədən, gəlirlərin və xərclərin uçotu sahəsində metodologiyanın başlıca funksiyası – iqtisadi qərarlar qəbul etmək üçün tələb olunan və faydalı informasiya formalaşdırmaqdan ibarətdir. Bu baxımdan metodologiyanın funksiyası uçotun məqsədləri ilə eyniləşir. Bu da aydındır, zira, metodologiya uçotun bir hissəsidir, onun məqsədlərinin həyata keçirilməsi üçün formalaşdırılmış olur.

Lakin metodologiyanı yalnız tələb olunan və faydalı informasiya formalaşdırma təlimi kimi başa düşmək olmaz. Sözün geniş mənasında, ümumfəlsəfi nöqteyinəzərdən metodologiya həm də, uçotun nəzəriyyəsini formalaşdırmaq üçün tətbiq olunur. Məsələn, maliyyə hesabatının elementlərinə, o cümlədən, gəlirlərə və xərclərə verilmiş təriflər, onların tanınma kriteriyaları, təsnifatı və digər nəzəri xarakterli məsələlər ümumfəlsəfi, ümumelmi metodlar olan elmi abstraksiya, dialektik məntiq, induksiya, deduksiya, təhlil, sintez kimi və digər metodların vasitəsilə nəzərdən keçirilir və həll olunur.

Konkret olaraq demək olar ki, aktivlərə, öhdəliklərə, gəlirlərə və xərclərə verilən təriflər, onların tanınma kriteriyaları dediktiv yanaşma nəticəsində yaranmışdır. Həmin elementlərin dəyərinin müəyyən olunması isə induktiv yanaşmanın köməyilə həyata keçirilir.

Təbiidir ki, uçotun metodologiyası təkcə ümumelmi metodlar əsasında deyil, həmçinin də, həmin elmin özünə məxsus olan, ya da ona xas olan prinsiplərdən və metodlardan formalaşır.

Hətta bir sıra digər funksional elmlər, məsələn, iqtisadi statistika, sırf uçot prinsipi kimi meydana çıxmış ikili yazılış prinsipindən geniş istifadə edir. Araşdırmalar göstərir ki, uçotun, o cümlədən, gəlirlərin və xərclərin metodologiyasına aşağıdakı elementləri aid etmək olar; metodologiya prinsipləri, standartları, metodları, üsulları. Həmin elementlərin hamısı bir-biri ilə qarşılıqlı əlaqə və asılılıqda mövcuddur.

Ədəbiyyat

**1.** «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının Qanunu, Bakı, 2004.
**2.** Cəfərli H.A. İqtisadi təhlil (dərslik). Bakı, 2009.
**3.** «Maliyyə və uçot» jurnalı: 2014-2017-ci illər.

Theory of organization of accounting of financial results in construction organizations methodological foundations

Summary

The research conducted on the topic of "methodology of accounting of income and expenses in construction organizations" and its improvement allows to make the following conclusions and put forward proposals. 1. Construction - being one of the main spheres of material production, plays an important role in the economic and social development of the country.

The development of the construction business, along with many other conditions, depends on the constant renewal and improvement of the management mechanism here. One of the main elements of the management mechanism of that area is the accounting system.

Adequate establishment of the accounting system, including the accounting of income and expenses, is a very important condition for forming appropriate and useful information about the activity of construction organizations, thereby allowing customers to make investment decisions; 2. Research shows that the correct and efficient organization of accounting of income and expenses depends on solving both theoretical-methodological and practical issues in a complex and systematic way.

Grounded theoretical-methodological provisions and determinations allow the purposeful solution of practical problems of income and expense accounting.

Keywords: construction organizations, accounting system, financial results

Теория организации учета финансовых результатов в строительных организациях методологические основы

Резюме

Проведенное исследование по теме «Методика учета доходов и расходов в строительных организациях» и ее усовершенствование позволяет сделать следующие выводы и выдвинуть предложения

. 1. Строительство - являясь одной из основных сфер материального производства, играет важную роль в экономическом и социальном развитии страны. Развитие строительного бизнеса, наряду со многими другими условиями, зависит от постоянного обновления и совершенствования здесь механизма управления. Одним из основных элементов механизма управления этой сферой является система бухгалтерского учета.

Адекватное построение системы бухгалтерского учета, в том числе учета доходов и расходов, является очень важным условием формирования адекватной и полезной информации о деятельности строительных организаций, что позволяет заказчикам принимать инвестиционные решения;

2. Исследования показывают, что правильная и эффективная организация учета доходов и расходов зависит от комплексного и системного решения как теоретико-методических, так и практических вопросов.

Обоснованные теоретико-методические положения и определения позволяют целенаправленно решать практические задачи учета доходов и расходов.

Ключевые слова: Строительные организации, система учета, результаты финансовой деятельности

Redaksiyaya daxil olma tarixi: 06.10.2022
Çapa qəbul olunma tarixi: 01.04.2023
Elmi rəhbər: i.ü.f.d.,Z.A.Quliyev
tərəfindən çapa tövsiyə olunmuşdur

**FİDAN HÜSEYNZADƏ**
**Bakı Biznes Universiteti**
**Magistrant**
**huseynzadefidan98@mail.ru**
**Ünvan: Həsən Bəy Zərdabi st 88a, Baku Azerbaijan**

# TİBB MÜƏSSİSƏLƏRİNDƏ MALİYYƏ NƏTİCƏLƏRİNİN TƏHLİLİ

**Xülasə**

Bir sıra tibb müəssisələrində xidmət sferasının makrosəviyyədə idarə olunması uçotanalitik təminatın kifayət qədər olması istiqamətində aparılır. Göstərilən xidmətlər isə son dərəcə rəngarəngdir. Buradan aydın olur ki, göstərilən tibbi xidmət növlərinin rəngarəngliyi , onların təqdim olunmasının iqtisadi, təşkilati vəqanunvericilik xüsusiyyətləri sənədləşməyə, maliyyə və idarəetmə uçotunun təşkilinə, xərcləri və maliyyə nəticələrinin müəyyənləşdirilməsinə, uçot-analitik proseslərin avtomatlaşdırlmasına fərdi yanaşmanı tələb edir. Mühasibat uçotu sisteminin adekvat kənar məkanının qurulması xidmət sferasının gələcək inkişafının mühüm amillərindən birinə çevrilə bilər.

Təşkilat üzrə işlərin səmərəliliyin və biznesin iqtisadiyyatının qiymətləndiriməsi zamanı təşkilatın maliyyə nəticələrinin,pul axınlarının və resurslardan istifadəsinin tədqiq edilməsi zəruridir. Bu məqsədlə təşkilatın əsas fəaliyyətinin gəlirliyinə xüsusi diqqət verilməli,mənfətin quruluşu dərindən öyrənilməlidir.

Təşkilatın istehsal imkanlarını əks etdirən qeyri-maliyyə göstəricilərinin onun maliyyə nəticələrinə uyğunluğu,mənfəətin keyfiyyətli indikatorları əks etdirilməlidir

**Açar sözlər**:Tibb müəssisələri, uçot sistemi,uçotun qiymətləndirilməsi

## Giriş.

Tibbi xidmət sferası maddi istehsalın sferalarından biri kimi cəmiyyətin məhsuldar fəaliyyətinin çox mühüm tərkib hissəsidir. Son illərdə tibbi xidmət sferasının inkişafı Azərbaycan iqtisadiyyatının fərqləndirici xüsussiyyətlərini özündə ehtiva edir . Bu qəbildən olan iqtisadi dinamika bir tərəfdən biznesin məqsədli quruluşundakı dəyişikliklərdən, digər tərəfdən isə əhalinin real gəlirinin yüksəlməsindən irəli gəlir. İstənilən tibbi təşkilatının fəaliyyətinin son məqsədi onların mülkiyyətinin, xüsusən də kapitalının artırılmasında təzahür edir. Müasir rəqabət şəraitində getdikcə daha çox tibb müəssisələri, həmin vəzifələri mövcud istehsal gücünü və istehsal olunan

məhsulların həcmini artırmaq yolu ilə deyil, ilk növbədə hər bir müştərinin özünə məxsus tələbatını daha tam ödəmək yolu ilə həll etməyə cəhd göstərir. Qeyd olunanları yeni məlumatlar hazırlananadək tam şəkildə nəzərə almaq üçün əvvəlcədən ilk növbədə marketinq tədqiqatı aparılmalıdır.

Bu gün reklam kompaniyası olmadan çox nadir istehsalatlar surətlə inkişaf edə bilir. İnnovasiyalı istehsalatları təhsil sferasında hazırlanan elmi tədqiqat işləri olmadan inkişaf etdirmək qeyri-mümkündür. Beləliklə, tibbi xidmət sferası müasir iqtisadiyyatda – maddi istehsal sferasının vacib atributudur. Tibbi xidmətlərə olan ehtiyacların artması son illərdə əhalinin həyat tərzinin durmadan yaxşılaşması ilə izah edilir. Belə ki, bilavasitətibbi xidmət, daha geniş həcmdə insanın fərdi ehtiyacalarını ödəməyə şərait yaradır

Mənbə: Müəssiənin uçot siyasəti haqqında əsasnamə –Bakı 1997

Akademik tibb mərkəzləri (yəni tədris xəstəxanaları) və akademik tibbi təcrübələr kommersiya məqsədli səhiyyə müəssisələri ilə rəqabət aparmaq üçün xərcləri nəzarətdə saxlamaq üçün təzyiq altındadır. Müəlliflər, xərcləri ağılla idarə etmək istəyən akademik həkim menecerlərinin əvvəlcə tibb mərkəzinin və ya təcrübənin xərc strukturunu necə anlamalı və bu strukturu kommersiya təşkilatları ilə müqayisə etməli olduqlarını izah edirlər. Bunu etmək, təşkilatın sağlamlığını və fəaliyyətini qiymətləndirmək üçün dəyərli alətdən, maliyyə hesabatlarının təhlilindən necə istifadə ediləcəyini dəqiq başa düşməyi tələb edir. Belə təhlil müxtəlif maliyyə əmsallarının hesablanmasından (məsələn, əməliyyat gəlirinin gəlirlərə bölünməsi; xalis gəlirin ümumi aktivlərə bölünməsi) və sonra onları sənaye normaları hesab edilən müvafiq əmsallarla müqayisə etməkdən ibarətdir.

Üç növ maliyyə hesabatı (ətraflı şəkildə müəyyən edilmişdir) bu yanaşmaya uyğun gəlir: balans hesabatı, mənfəət və zərər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat. Müəlliflər standart maliyyə əmsallarını müəyyən edir, onların istifadə və məhdudiyyətlərini qeyd edir və əmsalın mənasının onu bütövlükdə sənayedəki müvafiq meyar nisbəti ilə müqayisə etməkdən irəli gəldiyini vurğulayırlar. Nisbətlər maliyyə vəziyyətinin qiymətləndirilməsinin son nöqtəsi kimi deyil, əlavə araşdırma tələb edən mümkün problemlərin müəyyən edilməsi yolları kimi istifadə edilməlidir. Müəssisə daxilində zamanla nisbətlərin meyllərinin təhlili tamamlayıcı bir yanaşmadır.

Müəlliflər daha sonra institusional qiymətləndirmənin üç standart növündə əmsalların istifadəsini müzakirə edirlər: performans, likvidlik və leveraj və strateji planlaşdırma. Bundan əlavə, onlar maliyyə hesabatlarının təhlili üçün əmsallardan istifadə nümunəsi kimi uydurma akademik tibb mərkəzinin maliyyə hesabatını təqdim edirlər. Müəlliflər vurğulayırlar ki,

müzakirə etdikləri və yüzlərlə başqa əmsallardan istifadə etməyin açarı əvvəlcə hansı suala cavab vermək lazım olduğuna qərar vermək və sonra cavab tapmaq üçün əsas yaratmaq üçün müvafiq nisbətləri seçməkdir.

Bu gün DyPE adlanan səhiyyə təşkilatının regional forması qərarların qəbulu prosesində mərkəzsizləşdirmə yolu ilə daha rasional resurs bölgüsünə kömək etməkdir. Səhiyyə sektoruna ayrılan resurslardan daha səmərəli və səmərəli istifadə üçün qayğı, xüsusilə də onların zaman keçdikcə artan defisitini nəzərə alsaq, xəstəxanaları üstün iqtisadi göstəricilər axtarışında mühüm vasitəyə çevirir. İqtisadi fəaliyyət, ilk növbədə, iqtisadi vahidlər kimi xəstəxanaların maliyyə rifahının mahiyyətini təşkil edən mühüm elementləri əhatə edən xüsusi maliyyə əmsalları toplusu vasitəsilə izlənilir. Bir sıra maliyyə əmsalları tənqidi şəkildə nəzərdən keçirilir və onların birləşməsi effektiv maliyyə idarəetmə vasitəsi kimi təklif olunur.

Daha sonra səhiyyə sisteminə və xüsusən də xəstəxanalara qoyulan maliyyə gərginliyini yaxşılaşdırmaq lazımdır. Maliyyə fəaliyyəti cəlb olunan risklə əlaqədar kapitalın gəlirliliyi (mənfəətlilik) ilə müəyyən edilir. Hər iki amil yaradılmış dəyəri müəyyən edir ki, bu da öz növbəsində sektora cəlb edilən maliyyələşdirmənin həcminə təsir göstərir.

Nəzarət edən regional orqanlar (DyPE) üçün mövcud olan maliyyə məlumatları, xəstəxanaların maliyyə idarəçiliyini effektiv qiymətləndirmək üçün onların rəhbərliyi üçün yetərli hesab edilmir. Müvafiq iqtisadi məlumatların olmaması ikili mühasibat uçotunun müvafiq DyPE-ə hesabat verən təsərrüfat vahidləri tərəfindən hələ tam qəbul edilməməsi ilə əlaqədardır. Beləliklə, ikili mühasibat uçotu məqbul maliyyə göstəricilərinin hesabat və monitorinqi üçün ilkin şərtdir. Sağlamlıq sektorunun getdikcə artan sürətlə böyüyən maliyyə ehtiyaclarının ödənilməsini təmin etmək üçün son dərəcə vacibdir.

## Ədəbiyyat

**1.** Müslümov S.Y Maliyyə Təhlili. Dərslik- Bakı, CBC 2012

**2.** Səbzəliyev S.M Mühasibat hesabatı- Bakı 2003

**3.** Rzayev Q.Ə Beynəlxalq mühasibat uçotu standartları və maliyyə hesabatı-Bakı 2004- ci il

.

## Analysis of Financial Results in Medical Institutions

Summary

In a number of medical institutions, the management of the service sphere at the macro level is carried out in the direction of sufficient accounting provision. The provided services are extremely diverse. It is clear from here that the diversity of the provided types of medical services, the economic, organizational and legislative features of their provision require an individual approach to documentation, organization of financial and management accounting, determination of costs and financial results, automation of accounting and analytical processes. Building an adequate external space of the accounting system can become one of the important factors of the future development of the service sphere.

It is necessary to study the organization's financial results, cash flows and use of resources during the evaluation of the efficiency of the work and the economy of the business. For this purpose, special attention should be paid to the profitability of the main activity of the organization, the structure of profit should be studied in depth. The compatibility of non-financial indicators reflecting the production capabilities of the organization with its financial results, qualitative indicators of profit should be reflected.

Keywords: Medical institutions, accounting system, accounting evaluation..

## Анализ финансовых результатов медицинских организаций

Резюме

В ряде медицинских учреждений управление сферой услуг на макроуровне осуществляется в направлении достаточного бухгалтерского обеспечения. Предоставляемые услуги чрезвычайно разнообразны. Отсюда видно, что многообразие оказываемых видов медицинских услуг, экономические, организационные и законодательные особенности их оказания требуют индивидуального подхода к документированию, организации финансового и управленческого учета, -определения затрат и финансовых результатов, автоматизации бухгалтерского учета. и аналитические процессы. Построение адекватного

внешнего пространства учетной системы может стать одним из важных факторов будущего развития сферы услуг.

Изучение финансовых результатов организации, движения денежных средств и использования ресурсов необходимо при оценке эффективности работы и экономики бизнеса. Для этого особое внимание следует уделить рентабельности основной деятельности организации, глубоко изучить структуру прибыли, соотнести нефинансовые показатели, отражающие производственные возможности организации, с ее финансовыми результатами, качественными показателями. должны быть отражены показатели прибыли.

Ключевые слова: Медицинские учреждения, система бухгалтерского учета, бухгалтерская оценка.

Redaksiyaya daxil olma tarixi: 06.10.2022
Çapa qəbul olunma tarixi: 15.04.2023
Elmi rəhbər : Novruz Hüseynov
tərəfindən çapa tövsiyə olunmuşdur

**ƏLİYEV URFAN**
**Bakı Biznes Universiteti**
**Magistrant**
**Urfan607@gmail.com**

# İDARƏETMƏ UÇOTUNUN MAHİYYƏTİ, MƏZMUNU VƏ ƏHƏMİYYƏTİ

**Xülasə**

Bu məqalə idarəetmə uçotu ilkin anlayışların araşdırılması haqqındadır. İdarəetmə uçotunun yaranma tarixi, idarəetmə uçotunun firmalarda mahiyyəti, onun idarəetməyə birbaşa təsiri, yaranan problemin minimuma endirilməsi istiqamətində aparıla biləcək tədbir üsulları təhlil edilməsi. İdarəetmə uçotu firmaların qarşısında əsas məsələlərdən olub onun daim inkişaf etdirilməsini həyata keçirtməkdir. Firma daxilində idarəetmə uçotunun daha dolğun olması üçün menecerlər tərindən düzgün və dəqiq informasiyaların əldə olunmasıdır, informasiyanın idarəetmə uçotunda ən önəmli faktorlardan biri olması haqqında məlumat verimişdir. İdarəetmə uçotunun məzmunu və firmalarda nə qədər vacib olması haqqında məlumatlar verilmişdir. Həmçinin müəssisədə gəlirlər və xərclərin idarə edilməsi və qarşısında duran vəzifələrin həlli haqqında məlumatlar qeyd edilmişdir.

**Açar sözlər:** İdarəetmə uçotu, biznes planlaşdırılması, idarəetmə nəzarəti, idarəetmə səmərəliliyi, idarəetmə uçotunda informasiya.

İdarəetmə uçotu bir təşkilatın və ya bir prosesin fəaliyyətinin planlanması, təşkil edilməsi, nəzarət edilməsi və idarə olunması kimi bir çox xüsusiyyətlərdən bəhs edir. İdarərtmə sisteminin yaranması, onun mahiyyəti, məzmunu və başlıca xüsusiyyətləri açıqlanır. İdarəetmə uçotunun maliyyə uçotu ilə oxşar və fərqli cəhətləri, idarəetmə uçotunun nəzəriyyəsində fəlsəfi baxışlar və idarəetmə uçotunda tətbiq olunan metod və üsulların təkmilləşdirilməsi istiqamətləri haqqında açıqlamalar verilmişdir.

Bu termin ilk dəfə 1950-ci ildə məhsuldarlıq məsələsində İngilis-Amerikan Şurasının himayəsi altında ABŞ-a səfər edən mühasiblər qrupu tərəfindən istifadə edilmişdir. Maliyyət uçotu terminologiyası, bu iş qrupunun ziyarətindən əvvəl "idarəetmə mühasibatlığı" sözünə əsasən istinad etməmişdir. Artan rəqabətlər, geniş miqyaslı istehsal, texnologiyadakı dinamik inkişaflar və yaranan çətinliklər sonda bir çox problemi həll etmək üçün idarəetmə uçotunun inkişafına gətirib çıxardı. J. Batty İdarəetmə

Uçotunu "xüsusi bilik və bacarıqla birlikdə rəhbərliyə mənfəəti artırmaq və ya zərərləri minimuma endirmək vəzifəsində kömək edən mühasibat metodlarını, sistemlərini və texnikalarını təsvir etmək üçün istifadə olunan termin" olaraq təyin etmişdir. İdarəetmə uçotu, ənənəvi və yenilikçi metodlar, alətlər və praktikaların birləşdirilməsi ilə inkşaf etmişdir. Bu metodlar və alətlər,idarəçilərə təşkilatlarını idarə etmək üçün yol göstərici məlumatlarla təmin edir. Bu məlumatlar, planlama, təşkilatlandırma, iş proseslərinin idarə olunması, nəzarət və qiymətləndirmə kimi idarəetmə funksiyalarını icra etməkdə kömək olur.

İdarəetmə uçotu məhdud olmayan bir prosesdir və daima inkşaf edir. İdarəçilik nəzəzrə alındıqda, yeni yollar, texnologiyalar və məsələlər ortaya çıxır və bu da idarəetmə uçotunun dəyişməyə davam etməsinə səbəb olur. Son illərdə informasiya texnologiyalarının inkşafı idarəetmə uçotuna yeni imkanlar gətirib çıxarmışdır. Avtomatlaşdırma, verilənlər analitikası, süni intlekt və digər texnologiyalar idarəetmə prosesinin effektivliyini artırmağa kömək edir.

Qısaca olaraq ifadə etsək, idarəertmə uçotu biznes proseslərinin planlaşdırılmasının uğurlu yerinə yetirilməsi üçün müxtəlif şəkildə funksiyalarla həyata keçirilən idarəetmə, uçot və maliyyə əməliyyatlarını özündə birləşdirir. İdarəetmə uçotu geniş formada müəssisənin təsərrüfat-maliyyə fəaliyyətinin səmərəliliyi, onun gələcək dövrlərdə fəaliyyətinin planlaşdırılması, müəssisə və təşkilatlarda menecerlərin gündəlik maliyyə və uçot əməliyyatlarına dair daha dolğun qərarların qəbul edilməsi baxımından həyata keçirilir. İdarərtmə uçotu firmanın keçmişdə baş vermiş fəaliyyətlərinə deyil, onun gələcəkdə yerinə yetirə biləcəyi bazarda baş verə bilən dəyişikliklər və biznes əməliyyatlarının dəyişmə istiqamətlərinə əsaslanır**.** Başqa sözlə firmaların maliyyə menecerləri biznesi idarə edən rəhbərlərin iqtisadi qərarların qəbul edilməsi mərhələsində istifadə edəcəyi məlumatları sistemli və qruplaşdırılmış olaraq müəssisə rəhbərinə təqdim edən və bu məlumatlara əsasən strateji dəyərləndirmələr aparan əsas işçi, idarəetmə üzrə muhasib hesab olunur.

Müəssisələrdə idarəetmənin səmərəliliyi əsasən qəbul olunmuş qərarlarda istifadə olunmuş informasiyadan asılıdır. İdarəetmə uçotu müəssisədə informasiya sisteminin əsas tərkib hissəsi olub, idarəetmə qərarlarının qəbulunda müxtəlif idarəetmə pillələrinin rəhbərini operativ informasiya ilə təmin edir**.** Müəssisələrdə biznes fəaliyyətinin və idarəetmənin səmərəli şəkildə ola bilməsi üçün onun müəyyən olunmuş qayda və normalara uyğun hərəkət etməsi və fəaliyyətini bu normaları nəzərə almaqla yerinə yetirməsi tələb olunur.İnformasiyanın xüsusi etibarlığı, düzgünlüyü, şəffaflığı, dolğunluğu, ədalətliliyi və məsuliyyətlilik xüsusiyyətlərini özündə əks etdirən uyğun, əlaqəli və verilmiş

informasiyaların zamanında olması biznes idarəçiliyində son dərəcədə əhəmiyyətlidir. İnformasiyanın menecerlər üçün faydalı olmasına zəmin yaradan ümumi olaraq qəbul edilmiş bir xarakterik xüsusiyyətlər var ki, onlara aşağıdakılardan ibarətdir: - relevantlıq
- etibarlılıq
- müqayisəlilik
- anlaşıqlılıq

İdarəetmə uçotunun məzmunu bir neçə əsas mərhələdən ibarətdir:

Planlaşdırma: Şirkətin strategiyasını və məqsədlərini müəyyənləşdirmək, onları icra etmək üçün planlar hazırlamaq və hədəflər təyin etmək.

Təşkilat: İş proseslərini və resursları düzgün şəkildə təşkil etmək, vəzifələr və məsuliyyətlər təyin etmək, ehtiyaclar üzrə iş gücünü formalaşdırmaq və uyğun struktur təşkil etmək.

İdarəetmə: Fəaliyyətlərin icrasını nəzarət altında saxlamaq, təşkil edilmiş prosesləri tətbiq etmək, resursların idarə olunmasını təmin etmək və problemləri həll etmək üçün effektiv idarəetmə metodlarını tətbiq etmək.

Monitorinq və nəzarət: Performansı izləmək, məlumatları toplamaq, keyfiyyətinə nəzarət etmək, məsələlərin həlli üçün qiymətləndirilmələr aparılmasını təmin etmək və nəticələrin məqsədlərə uyğunluğunu müəyyənləşdirmək.

**İdarəetmə uçotu firmada fayda təmin etməsi üçün çox önəmli bir əhəmiyyətə malikdir. Aşağıdakı səbəblər idarəetmə uçotunun nə qədər əhəmiyyətli olduğunu göstərir.**

Bütün müəssisələr bağlanan inventarların həddən artıq qiymətləndirilməsi ehtimalını minimuma endirmək üçün mexanizmlərdən qaçmalı və tətbiq etməlidirlər.

## Ədəbiyyat siyahısı:

1. Saleh Məmmədov, M.Sadıqov – Maliyyə dərslik
2. Müslümov S.Y., Kazımov R.N. – Maliyyə təhlili
3. S.M. Səbzəliyev – Mühasibat (Maliyyə) hesabatı

**Rasim V. Seyfullayev**

**Capitalized and non-capitalized expenditures**
**Summary**

In this article, we have discussed the concepts of capitalized and non-capitalized expenditures and their significance in financial management. Capitalized expenditures are expenses incurred to acquire long-term assets that provide future economic benefits, such as property, plant, and equipment or research and development investments. These expenditures are recorded as assets on the balance sheet and are crucial for accurate financial reporting and assessing the long-term value of a company.

On the other hand, non-capitalized expenditures encompass the day-to-day operational costs incurred by a business. These expenses, including salaries, utilities, and advertising expenses, are recorded as expenses on the income statement and directly impact short-term profitability and cash flow. Understanding the distinction between these two types of expenditures is vital for businesses, investors, and financial analysts, as it enables them to evaluate the financial health, efficiency, and growth potential of a company. Proper classification and accounting treatment of capitalized and non-capitalized expenditures are essential for complying with accounting standards and making informed business decisions.

**Keywords: capitalized costs, inventory, fixed assets, short-term and long-term assets**

**Расим В. Сейфуллаев**

**Капитализированные и некапитализированные расходы**
**Резюме**

В этой статье мы обсудили понятия капитализированных и некапитализированных расходов и их значение в финансовом менеджменте. Капитализированные затраты — это расходы, понесенные для приобретения долгосрочных активов, которые обеспечивают будущие экономические выгоды, таких как основные средства, заводы и оборудование или инвестиции в исследования и разработки. Эти расходы отражаются как активы в балансе и имеют решающее значение для точной финансовой отчетности и оценки долгосрочной стоимости компании.

С другой стороны, некапитализированные расходы охватывают повседневные операционные расходы, понесенные бизнесом. Эти расходы, включая заработную плату, коммунальные услуги и расходы на рекламу, отражаются как расходы в отчете о прибылях и убытках и напрямую влияют на краткосрочную прибыльность и движение денежных средств. Понимание различий между этими двумя типами расходов жизненно важно для предприятий, инвесторов и финансовых аналитиков, поскольку позволяет им оценивать финансовое состояние, эффективность и потенциал роста компании. Надлежащая классификация и порядок учета капитализированных и некапитализированных расходов необходимы для соблюдения стандартов бухгалтерского учета и принятия обоснованных деловых решений.

**Ключевые слова: капитализированные затраты, товарно-материальные запасы, основные средства, краткосрочные и долгосрочные активы**

Redaksiyaya daxil olma tarixi: 06.10.2022
Çapa qəbul olunma tarixi: 10.06.2023
Elmi rəhbər: i.ü.f.d., R. C. Cavadov
tərəfindən çapa tövsiyə olunmuşdur

**RƏŞAD KAZIMOV**
**Bakı Biznes Universiteti**
**Magistrant**
**rashadkazim424@gmail.com**
**Ünvan: Bakı şəhəri, Həsən bəy Zərdabi 88a**

# MÜƏSSİSƏLƏRİNİN DAVAMLI İNKİŞAFININ TƏMİN EDİLMƏSINƏ KAPITAL QOYULUŞLARININ TƏSİRİ

Xülasə

Müasir dövrdə istər istehsal sahəsində, istər digər sahələrdə fəaliyyət göstərən müəssisələrin öz fəaliyyətinə davam etməsi, inkişaf etməsi və məhsuldarlıq əldə etməsi üçün kapital qoyuluşlarına ehtiyacı var.

Buna görə də burada kapital qoyuluşlarının hansı dövrləri əhatə etməsi, hədəf və vəzifələrin müəyyən olunması, nəzərdə tutulan strategiyalara çatılması kimi məsələlərə toxunulmuşdur. Bunda əlavə məqalədə müəssisələrin fəaliyyətində kapital qoyuluşlarının nə qədər əhəmiyyətli olması, fəaliyyətin uğurlu olmasına necə təsir etməsi, hansı üstünlüklər və mənfi cəhətlərə malik olması, şirkət rəhbərlərinin kapital qoyuluşu həyata keçirməkdə nəzərdə tutduqları əsas məqsədlərin hansılar olması kimi mövzular əhatə olunmuşdur.

Açar sözlər: kapital, kapital qoyuluşu, investor, kapital ehtiyyatları, kapital gəlirləri

Kapital qoyuluşu şirkət tərəfindən uzunmüddətli biznes məqsəd və vəzifələrini həyata keçirmək üçün fiziki aktivlərin əldə edilməsidir. Daşınmaz əmlak, istehsal avadanlıqları və maşınlar kapital qoyuluşu kimi alınan aktivlər sırasındadır.İstifadə olunan kapital ənənəvi bank kreditlərindən tutmuş vençur kapitalı sövdələşmələrinə qədər müxtəlif mənbələrdən gələ bilər.Kapital qoyuluşu iki fərqli şəkildə müəyyən edilə bilən geniş bir termindir:- Fiziki şəxs,maliyyə institutu və ya başqa qrup tərəfindən biznesə kapital qoyuluşu edə bilər.

Pul kredit və ya qazancın bir hissəsi kimi təqdim edilə bilər. Sözün bu mənasında kapital nağd pul deməkdir.- Bir şirkətin rəhbər şəxsləri biznesə kapital qoyuluşu edə bilərlər.

Onlar şirkətin daha səmərəli işləməsinə və ya daha sürətli böyüməsinə kömək edəcək avadanlıq kimi uzunmüddətli aktivlər alırlar. Bu mənada kapital fiziki aktivlər deməkdir.

Hər hansısa bir şirkət öz pul ehtiyatlarından istifadə edərək kapital qoyuluşu edə bilər və ya bankdan kredit istəyə bilər. Kapital qoyuluşunu maliyyələşdirmək üçün istiqrazlar və ya səhmlər buraxa bilər. Kapital qoyuluşunun minimum və ya maksimum miqdarı yoxdur.

Bu, mədənçıxarma, kommunal xidmətlər və infrastruktur kimi kapital tutumlu sektorlarda şirkətlər tərəfindən həyata keçirilən nəhəng layihələr üçün başlanğıc üçün 100.000 dollardan yüz milyonlarla dollara qədər dəyişə bilər. Kapital qoyuluşu uzunmüddətli perspektivdə şirkətə fayda gətirmək üçün nəzərdə tutulub, lakin buna baxmayaraq, onun qısamüddətli mənfi cəhətləri ola bilər. Bir müəssisənin kapital qoyuluşu etmək qərarı uzunmüddətli böyümə strategiyasıdır. (Tanrıverdiyeva G.Q. (2013) səh. 90-100) Şirkət gələcək inkişafını təmin etmək üçün kapital qoyuluşlarını planlaşdırır və həyata keçirir.

Kapital qoyuluşları ümumiyyətlə əməliyyat qabiliyyətini artırmaq, bazarın daha böyük hissəsini tutmaq və daha çox gəlir əldə etmək üçün edilir. Şirkət eyni məqsədlər üçün başqa şirkətin əməliyyatlarında iştirak payı şəklində kapital qoyuluşu edə bilər.

Bir çox hallarda kapital qoyuluşları sənayenin zəruri hissəsidir. Emal ediləcək xammalın çıxarılması üçün ağır texnikalara ehtiyacduyan bir neft qazma şirkətinə nəzər salsaq, aşağı və ya heç bir kapital qoyuluşu tələbləri olmayan hüquq firmasından fərqli olaraq, belə müəssisələr fəaliyyət göstərmək üçün adətən xüsusi aktivlərə ehtiyac duyurlar.

Bundan əlavə, kapital aktivinə sərmayə qoymaq və ya qoymamaq barədə qərar verərkən biznesdə nəzərə alınmalı strateji komponentlər var.

Məsələn, şirkət avtomobili kimi müəyyən bir ağır texnikanın necə icarəyə götürülə biləcəyini düşünsək, dövri "icarə" xərclərindən fərqli olaraq, şirkət uzunmüddətli perspektivdə kapital qoyuluşu ilə daha az pul xərcləyə bilər.Şirkətlər çox vaxt şaxələndirmə, modernləşdirmə və ya biznesin genişləndirilməsi üçün kapital qoyuluşları əldə edirlər. (Əliyev Q.İ. (2008) səh.120-125) Kapital qoyuluşlarının üstünlüklərinə baxsaq, bu konkret vəziyyətdən asılı olaraq dəyişə bilər.

Yeni avadanlıq və ya texnologiyaya sərmayə qoymaqla şirkətlər öz səmərəliliyini artıra, beləliklə, xərcləri azalda və hasilatı artıra bilərlər. Bu cür investisiyalar istehsal olunan məhsulların keyfiyyətini də yaxşılaşdıra bilər. Kapital qoyuluşları da zamanla xərclərə qənaət etməyə səbəb ola bilər. Məsələn, yeni avadanlıq köhnə modeldən daha çox enerjiyə qənaət edə bilər ki, bu da kommunal xərclərin azalması ilə nəticələnə bilər.

Eynilə, yeni texnologiya prosesləri asanlaşdıra və əl əməyinə ehtiyacı azalda bilər.

Kapital qoyuluşu üçün üstünlük verilən variant həmişə şirkətin öz pul vəsaitlərinin hərəkətidir, lakin, gözlənilən xərcləri ödəmək üçün şirkətin xaricdən maliyyələşdirməyə müraciət edəcəyi ehtimalı da var. Buna görə də, adətən kapital qoyuluşları üçün bir az çox risk var. Bu, xüsusilə özəlləşdirilmiş və ya ləğvi çətin olan kapital qoyuluşları üçün doğrudur; şirkət kapital qoyuluşunu satın aldıqdan sonra investisiyadan çıxmaq çətin ola bilər.

Kapital qoyuluşu uzunmüddətli perspektivdə şirkətə fayda gətirmək üçün nəzərdə tutulub, lakin buna baxmayaraq, onun qısamüddətli mənfi cəhətləri ola bilər. Kapital qoyuluşları qısa müddətdə mənfəət artımını azaltmağa meyllidir. Bu, xüsusilə də əməliyyat xərclərinə səbəb olan kapital qoyuluşları üçün doğru ola bilər. Bundan əlavə, maliyyələşdirmə variantı olan əlavə səhmlərin buraxılması şirkətin dövriyyədə olan səhmlərinin dəyərini azalda bilər. (İnvesting.com) Kapital qoyuluşunun üstünlüklərinə aid etmək olar:

Çatışmazlıqlara isə bunları aid edə bilərik:

Tək başına satın almanın bahalığı, şirkətin qısamüddətli gəlirliliyini məhdudlaşdıra bilər, əlavə əməliyyat xərcləri ilə müşayiət oluna bilər, şirkətin likvidliyini azalda bilər.

Aktivin dəyəri şirkətin mühasibat uçotunda qeyd edilməlidir. Bu, aktivin alış qiymətini, eləcə də quraşdırma və ya daşınma xərcləri kimi alışla bağlı hər hansı əlavə xərcləri əhatə edə bilər. Şirkətlər müəyyən şərtlər daxilində müəyyən kapital qoyuluşları üçün ədalətli bazar dəyərini təyin edə bilərlər, lakin kapital qoyuluşları ilkin dəyəri ilə qeydə alınmalıdır ( Accountingtools.com). Kapital qoyuluşunun faydalı istifadə müddəti, aktivin şirkət tərəfindən istifadə ediləcəyi illərin sayına bərabərdir.

İstifadə olunan amortizasiya metodu aktivdən və şirkətin uçot siyasətindən asılı olacaq, lakin geniş istifadə olunan metodlara düz xətt, azalan qalıq və illərin cəmi daxildir. Şirkətlər, həmçinin zərərə məruz qaldıqda kapital qoyuluşunun dəyərini azaltmaq üçün dəyərsizləşmələri qeyd edə bilərlər.

## Ədəbiyyat

1. Tanrıverdiyeva G.Q. (2013). Səhmdar cəmiyyətlərində xüsusi kapitalın uçotunun təkmilləşdirilməsi.

2. Əliyev Q.İ. (2008). İnvestisiyanın maliyyələşməsi və kreditləşdirilməsi
3. İnvesting.com
4. Accountingtools.com

The impact of capital investments on ensuring
the sustainable development of their enterprises

Summary

In modern times, enterprises operating in the field of production or in other fields need capital investments in order to continue their activities, develop and achieve productivity. Therefore, issues such as the periods of capital investments, determination of goals and objectives, and achievement of the intended strategies have been touched upon here.

In this additional article, topics such as how important capital investments are in the activity of enterprises, how they affect the success of the activity, what advantages and disadvantages they have, and what are the main goals of the company managers in making capital investments are covered.

Keywords: capital, capital investment, investor, capital reserves, capital income

Влияние капитальных вложений на обеспечение устойчивого
развития своих предприятий

Резюме

В современное время предприятия, работающие в сфере производства или в других сферах, нуждаются в капитальных вложениях, чтобы продолжать свою деятельность, развиваться и достигать производительности. Поэтому здесь затронуты такие вопросы, как сроки капитальных вложений, определение целей и задач, достижение намеченных стратегий.

В этой дополнительной статье рассматриваются такие темы, как насколько важны капитальные вложения в деятельности предприятий, как они влияют на успех деятельности, какие у них есть преимущества и недостатки, каковы основные цели руководителей компаний при осуществлении капитальных вложений. покрытый.

Ключевые слова: капитал, капитальные вложения, инвестор, резервы капитала, доход от капитала

Redaksiyaya daxil olma tarixi: 06.10.2022
Çapa qəbul olunma tarixi: 15.06.2023
Elmi rəhbər: İ.e.ü.f.d. Xatirə Əzizova
tərəfindən çapa tövsiyə olunmuşdur

**İLQAR QURBANOV**
**Bakı Biznes Universiteti**
**Magistrant**
**ilgargurbanbov14@yahoo.com**
**Ünvan: Həsən Bəy Zərdabi st 88a, Baku Azerbaijan**

# AZƏRBAYCAN İQTİSADIYYATINDA DAVAMLI İNKIŞAFIN TƏMİN EDİLMƏSİ ÜZRƏ MB-IN PUL-KREDİT SİYASƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Pul siyasətinin hədəfinə çatmaq məqsədilə Mərkəzi Bank pul siyasəti alətlərindən istifadə edir. Sərəncamında olan pul siyasəti alətləri vasitəsilə pul kütləsi, valyuta məzənnəsi və faiz dərəcələrinə təsir göstərməklə Mərkəzi Bank özünün son məqsədinə nail olmağa çalışır. Pul siyasətinə dair adekvat qərarlar qəbul etmək üçün Mərkəzi Bank daim ölkədəki makroiqtisadi vəziyyəti təhlil edir və proqnozlaşdırır.

Pul-kredit siyasətinin başlıca məqsədi maliyyə stabilliyinin, inflyasiyaya səbəb olmadan davamlı məşğulluq səviyyəsinin və iqtisadi artımın təmin edilməsi kimi qiymətləndirilir. AMB-nin fəaliyyətinin və onun pul-kredit siyasətinin mühüm istiqamətlərindən biri də bank sisteminin inkişaf etdirilməsi, bu sektorda risklərin azaldılması, likvidliyin yüksəldilməsi, bankların pul yaratma kimi keyfiyyət göstəricisinin daha da artırılmasıdır.

**Açar sözlər**: inflyasiya, uçot dərəcəsi, qiymətli kağızlar.

**Giriş.**

Məqalədə Azərbaycan iqtisadiyyatında davamlı inkişafın təmin edilməsi üzrə MB-ın pul-kredit siyasətindən bəhs edilir. Bu məqalədə Azərbaycanın Mərkəzi bankının pul-kredit siyasətinin əsas istiqamətlərinə, onu müəyyənləşdirən amillərə, səmərəlik dərəcəsinə və üsullarına diqqət yetirilir.

Azərbaycan Respublikası Mərkəzi Bankının pul siyasətinin əsas məqsədi ölkədə qiymət sabitliyini, başqa sözlə inflyasiyanın aşağı səviyyədə qorunmasını təmin etməkdən ibarətdir. Aşağı inflyasiya istehlakçılar və biznes üçün əlverişli iqtisadi mühit deməkdir. Qiymət sabitliyi sahibkarlara və ev təsərrüfatlarına imkan verir ki, onlar öz planlarını əminliklə və daha uzunmüddətli dövrə tərtib etsinlər. Aşağı inflyasiya milli valyutanın sabit alıcılıq qabiliyyətini təmin edir. Stabil aşağı inflyasiya gəlirlərin və yığımların dəyərsizləşməsinin qarşısını alaraq milli valyutada uzunmüddətli yığımları stimullaşdırır, dollarlaşmanı və faiz dərəcələrini azaldır. Bütün

bunlar da iqtisadi artıma və maliyyə sabitliyinə müsbət təsir edir. Pul siyasətinin son hədəfi olan inflyasiyanı ölçmək üçün istehlak qiymətləri indeksindən istifadə olunur. Azərbaycanda bu göstərici Dövlət Statistika Komitəsi tərəfindən bütün zəruri tələbat malları və xidmətlərin daxil edildiyi istehlak səbəti əsasında hesablanaraq ictimaiyyətə təqdim olunur. Əhalinin rifah səviyyəsindən və istehlak bazarındakı tendensiyalardan asılı olaraq istehlak səbətinə daxil olan məhsul və xidmətlər dəstinə vaxtaşırı baxılır. Mərkəzi Bankın inflyasiya üzrə hədəfinin kəmiyyət parametrləri növbəti il üçün müəyyənləşdirilərək ictimaiyyətə açıqlanır. İllik hədəf istehlak qiymətləri indeksinin son 12 ayda dəyişimi (və ya 12 aylıq inflyasiya) üzrə müəyyən olunur. Son hədəf əsasında pul siyasətinin aralıq və əməliyyat hədəfləri müəyyən olunur. Perspektivdə inflyasiyanın hədəflənməsi rejiminə keçidlə başlıca əməliyyat hədəfi olaraq banklararası pul bazarındakı qısamüddətli faizlərdən istifadə etmək nəzərdə tutulur. Pul siyasətinin əməliyyat çərçivəsinin mühüm elementlərindən biri faiz dəhlizidir. Faiz dəhlizi banklararası bazardakı qısamüddətli faizlərin dəhliz daxilində hərəkətini təmin etmək məqsədi daşıyır. Faiz dəhlizi eyni zamanda Mərkəzi Bankın likvidlik əməliyyatları üzrə faizlərinin iyerarxiyasını müəyyən edir. Mərkəzi Bankın faiz dəhlizi üç parametr olan uçot dərəcəsi, yuxarı hədd və aşağı həddən ibarətdir. Faiz dəhlizinin aşağı həddi sterilizasiya yönümlü daimi imkanlar alətlərindən olan 1 günlük depozit əməliyyatının faizidir. Faiz dəhlizinin yuxarı həddi isə 1 günlük likvidliyin verilməsi üzrə daimi imkanlar alətlərindən olan əks-REPO əməliyyatının faizidir. Uçot faiz dərəcəsi faiz dəhlizinin mərkəzi parametridir. Bu faiz dərəcəsini elan etməklə Mərkəzi Bank banklararası bazarda qısamüddətli faizləri bu parametrə yaxınlaşdırmağa çalışır. Dəhlizin aşağı həddi ilə uçot dərəcəsi arasında formalaşan faizlərlə sterilizasiya yönümlü qısamüddətli açıq bazar əməliyyatları həyata keçirilir. Uçot dərəcəsi ilə dəhlizin yuxarı həddi arasında formalaşan faizlərlə likvidliyin verilməsi yönümlü qısamüddətli açıq bazar əməliyyatları həyata keçirilir. Mərkəzi Bank sərəncamındakı alətlərlə banklararası pul bazarında faizlərin dəhliz daxilində formalaşmasına çalışır. Bu proses pul siyasəti qərarlarının transmissiyasının birinci həlqəsini təşkil edir. Banklararası bazarda qısamüddətli faizlər dəyişəndə digər faizlər, o cümlədən depozit və kredit faizləri də dəyişir. Bu proses pul siyasəti qərarlarının transmissiyasının ikinci həlqəsini təşkil edir.Pul siyasəti hədəflərinə nail olunması əhəmiyyətli dərəcədə bank sisteminin likvidlik mövqeyindən asılıdır. Bank sisteminin likvidlik mövqeyinə bir sıra amillər təsir göstərir. Likvidliyə təsir edən başlıca avtonom (yəni Mərkəzi Bankdan asılı olmayan) amil hökumət hesablarının, xüsusilə də xəzinə qalığının dəyişimidir. Bu amil dövlət büdcəsinin gəlir və xərclərindən asılıdır. Xəzinə qalığının azalması manatla müxbir hesablara artırıcı, onun artması isə

manatla müxbir hesablara azaldıcı təsir göstərə bilər. Bu amil dövlət büdcəsinin gəlir və xərclərindən asılıdır. Hökumət hesablarının dəyişiminin likvidliyə təsirini qiymətləndirə bilmək üçün Mərkəzi Bank Maliyyə Nazirliyi ilə əmək aşlıq edir.Açıq bazar əməliyyatları Mərkəzi Bankın təşəbbüsü ilə və Mərkəzi Bank tərəfindən müəyyənləşdirilən kəmiyyət parametrləri ilə aparılır. Açıq bazar əməliyyatları da sterilizasiya yönümlü və likvidliyin verilməsi yönümlü ola bilər. Sterilizasiya məqsədilə Mərkəzi Bank öncədən müəyyən edilən həcmlərdə 1,3,6 və 9 aylıq not hərracları keçirir. Not hərracları sabit həcmli olmaqla bazar faizləri əsaslı mexanizmlə keçirilir. Başqa sözlə notların gəlirliyi bazarda tələb-təklif nisbətindən asılı olaraq formalaşır.Məcburi ehtiyatların norması bankların öhdəliklərinin həcminin müəyyən faizi nisbətində müəyyənləşdirilir. Banklar tərəfindən məcburi ehtiyatlar "Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"na uyğun olaraq hesablanır və saxlanılır. Qaydaya uyğun olaraq məcburi ehtiyatlar bankın cəlb olunan öhdəliklərinin hesablama dövrü (1 ay) üzrə orta günlük qalığı əsasında hesablanır. Hesablama dövrü hər ayın ilk təqvim günü başlayır və son təqvim günü bitir. Banklar hesablama dövründən sonrakı 5 (beş) iş günü ərzində məcburi ehtiyatlar üzrə hesabatı Mərkəzi Banka təqdim etməlidir. Növbəti saxlama dövrünün məcburi ehtiyatları həmin hesabat əsasında müəyyən edilir.Banklar arasında pul bazarı əqdləri təminatlı və təminatsız əsasda bağlana bilər. Banklararası təminatlı pul bazarı əsasən Bakı Fond Birjasında (Birja) qiymətli kağızların girovu ilə bağlanan REPO əməliyyatlarından ibarətdir. REPO əqdi bağlandığı zaman REPO predmeti olan qiymətli kağızlar depozitar tərəfindən REPO alıcısının hesabında dondurulur. "REPO bazarında bağlanılan əqdlər üzrə indekslərin hesablanması və açıqlanması Qaydaları"na uyğun olaraq, Birja tərəfindən gündəlik əsasda banklar arasında bağlanan REPO əqdləri üzrə 1 günlük, 1 həftəlik və 2 həftəlik indekslərin hesablanması və Birjanın internet səhifəsində açıqlanması nəzərdə tutulur. Bu indekslər banklar arasında bağlanan təminatlı pul bazarı əqdləri üzrə reprezentativ faiz rolunu oynayır.Mərkəzi Bankın monetar siyasəti pul siyasətində mühim rol oynayır. Monetar siyasət Mərkəzi Bankın pul təklifinə təsir göstərməyə çalışmasıdır.Monetar siyasətin aşağıdakı növləri var.Daraldıcı siyasət - Bu zaman pul təklifi azaldılacaq və ya az artırılacaq, yaxud faiz dərəcəsi yüksəldiləcək.Genişləndirici siyasət – Bu zamanı isə pul təklifi kəskin artacaq və ya faiz dərəcəsi azaldılacaq.Bundan əlavə monetar siyasətin məqsədindən asılı olaraq aşağıdakı növləri var: Yumşaq pul siyasəti -Mərkəzi bank faiz dərəcəsin aşağı salmaqla iqtisadi artıma təkan verir.

Neytral pul siyasəti - Mərkəzi bank faiz dərəcəsində dəyişiklik etmir. Beləliklə nə iqtisadi artım təşviq edilir nə də inflyasiya ilə mübarizə aparılır.

Sərt pul siyasəti - Bu zaman faiz dərəcəsi yuxarı səviyyədə saxlanmaqla inflyasiya azaldılır. Monetar siyasətin əsas alətlərindən biri açıq bazar əməliyyatlarıdır. Bu alət dövlət istiqrazlarının, şirkətlərin səhmləri və xarici valyutaların alınması və satılması ilə pulun miqdarı idarə edilməsinə səbəb olur. Bütün bu əməliyyatlar zamanı az ya da çox həcmdəki valyuta bazar dövriyyəsindən çıxır və ya dövriyyəyə daxil olur. Adətən qısa müddətli açıq bazar əməliyyatlarının səbəbi qısa müddətli faiz dərəcəsinə nail olmaqdır. Digər tərəfdən isə bu əməliyyatlar hər hansı xarici valyutada (və ya qızılda) xüsusi mübadilə dərəcəsini qoruyub saxlamağa xidmət edir. Monetar siyasətdə istifadə edilən digər əsas alətlərə isə aşağıdakılar daxildir:

*Diskont faiz dərəcəsi,

*Məcburi ehtiyat norması,

*Mənəvi razısalma (ing. Moral suasion),

*Açıq ağız əməliyyatları (ing. Open Mouth Operations)

Monetar siyasət likvidlik tələsində effektsizdir. İnflyasiya və faiz dərəcəsi sıfıra yaxın olduqda Mərkəz Bankı ənənəvi yollarla monetar siyasət həyata keçirə bilmir. Bu zaman qeyri ənənəvi üsullar tətbiq edir: dövlət istiqrazları almaqdansa, korporativ qiymətli kağızlar almaqla istehsalın artımını təmin edir ya da uzunmüddətli istiqrazlar alır və qısa müddətli istiqrazlarını satır.

**Mənbə:** Azərbaycan Respublikasının Mərkəzi Bankının pul-kredit siyasəti haqqında qaydaları.

## Ədəbiyyat

**1.** N.Qreqori. Menkyu Ekonomiksin prinsipləri. Bakı 2014

**2.** Elnur Sadıqov. Bank əməliyyatları. Dərs vəsaiti. Bakı: "İqtisad universiteti" Nəşriyyatı, 2010-212səh.

**3.** Azərbaycan Respublikasının Mərkəzi Bankının pul-kredit siyasəti haqqında qaydaları.

Analysis and evaluation of monetary and credit policy of the Central Bank of Azerbaijan on ensuring sustainable development in the economy of Azerbaijan

Summary

In order to achieve the goal of monetary policy, the Central Bank uses monetary policy instruments. The Central Bank tries to achieve its ultimate goal by influencing the money supply, exchange rate and interest rates through the monetary policy instruments at its disposal. In order to make

adequate decisions on monetary policy, the Central Bank constantly analyzes and forecasts the macroeconomic situation in the country.

The main goal of monetary policy is to ensure financial stability, sustainable employment level and economic growth without causing inflation. One of the important directions of the Central Bank's activity and its monetary policy is the development of the banking system, reducing risks in this sector, increasing liquidity, and further increasing the quality indicator of banks such as money creation.

**Keywords**: inflation, discount rate, securities.

Анализ и оценка денежно-кредитной политики Центрального банка Азербайджана по обеспечению устойчивого развития экономики Азербайджана

Резюме

Для достижения цели денежно-кредитной политики Центральный банк использует инструменты денежно-кредитной политики. Центральный банк пытается достичь своей конечной цели, воздействуя на денежную массу, обменный курс и процентные ставки с помощью имеющихся в его распоряжении инструментов денежно-кредитной политики. Для принятия адекватных решений по денежно-кредитной политике Центральный банк постоянно анализирует и прогнозирует макроэкономическую ситуацию в стране.

Основной целью денежно-кредитной политики является обеспечение финансовой стабильности, устойчивого уровня занятости и экономического роста, не вызывая инфляции. Одним из важных направлений деятельности ЦБА и его денежно-кредитной политики является развитие банковской системы, снижение рисков в данном секторе, повышение ликвидности, дальнейшее повышение качественного показателя таких банков, как создание денег.

**Ключевые слова:** инфляция, учетная ставка, ценные бумаги.

Redaksiyaya daxil olma tarixi: 06.12.2022
Çapa qəbul olunma tarixi: 01.07.2023
Elmi rəhbər : i.f.d., dosent A.M.Mustafayev
tərəfindən çapa tövsiyə olunmuşdur

**ZEYNƏB MƏMMƏDLİ**
**Bakı Biznes Universiteti**
**Magistrant**
**Mammedliz99@gmail.com**
**Ünvan: Həsən Bəy Zərdabi st 88a, Baku Azerbaijan**

# AZZA CAKE HOUSE MMC-DƏ MƏHSULUN MAYA DƏYƏRININ UÇOTU VƏ KALKULASIYA SİSTEMİNİN TƏKİILLƏŞDIRİLMƏSİ İSTIQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə müəssisənin istehsal xərclərinin kalkulasıyasının araşdırılması mühüm amillərdən biridir. Çünki maya dəyərinin müəyyənləşdirilməsi həmin məhsulun hansı qiymətlə satışa çıxarılmasına , həmçinin satış bazarında fəaliyyətinin davam etdirməsinə köməklik edəcək. Maya dəyərinin düzgün araşdırılıb tertib edilməsi çox önəmlidir. Münasib qiymətli məhsullardan istifadə etməklə daha münasib qiymətli məhsul istehsal etmək mümkün olacaqdır. Bununla yanaşı müəssisənin əldə etdiyi gəlir onun xərclərini üstələməlidir. Bu üstələmə nəticəsində müəssisə öz fəaliyyetini uzun müddətli davam etdirə biləcək.

"Azza" - istənilən bayram və ya ən adi günü unudulmaz zövqlə bəzəyən, çoxillik təcrübə və biliklərə sahib, yaxşı təlim keçmiş, seçilmiş şirniyyatçılar, aşbazlar və menecerlərdən ibarət mehriban heyətdən ibarətdir. Bugünkü gün Azərbaycan ərazisində olan ən böyük şirniyyat mağazaları şəbəkəsidir. Mövzu əsasında aparılan araşdırmalara yiyələnmek, düzgün plan qurulması və bunun nəticəsində müəsissənin uzunmüddətli fəaliyyətinin təmin edilməsi.

Açar sözlər: Maya dəyəri, kalkulasiya, məhsul istehsalı

"Azza" - istənilən bayram və ya ən adi günü unudulmaz zövqlə bəzəyən, çoxillik təcrübə və biliklərə sahib, yaxşı təlim keçmiş, seçilmiş şirniyyatçılar, aşbazlar və menecerlərdən ibarət mehriban heyətdən ibarətdir. Bugünkü gün Azərbaycan ərazisində olan ən böyük şirniyyat mağazaları şəbəkəsidir. Məhsulun (işin, xidmətin) maya dəyəri istehsal (xidmət) prosesində istifadə olunan xammalın, materialın, yanacağın, enerjinin, əsas fondların, əmək ehtiyatlarının qiymətləndirilmiş dəyərini, həmçinin onların istehsalına və satışına sərf edilən digər xərcləri özündə əks etdirir.

Müəssisə, istehsal edilən məhsulun qiymətinin müəyyən edilməsi üçün, müxtəlif maya dəyərinin kalkulyasiyası metodlarından istifadə edə bilər.

Kalkulyasiya metodunun seçiminə müəssisənin sahəvi xüsusiyyəti, istehsal edilən məhsulların müxtəlifliyi, tətbiq edilən texnoloqiya, istehsalın müddəti təsir edə bilər.

Bir neçə kalkulyasiya metodu mövcuddur:

- mərhələ metodu;
- proseslər metodu;
- sifariş metodu;
- normativ metod (Standart kostinq);
- birbaşa məsrəflər əsasında kalkulyasiya metodu (Direkt kostinq);
- tam maya dəyərinin kalkulyasiya metodu (Abzorbşn kostinq).

Məhsulun maya dəyərinin kalkulyasiyası istehsalatın uçotunun son mərhələsi hesab olunur. Muhasibat uçotu dərslik (Bakı 2007)

Maya dəyərinin analizi xərclərin idarə olunması sistemində böyük əhəmiyyət kəsb edir. İstehsal növündən asılı olaraq maya dəyərini formalaşdıran bir sıra göstəricilər müəyyən olunur. Məhsulun istehsalında maya dəyəri vahidi göstəricisi istehsal xərcləri dinamikasıdır. Maya dəyərinin azaldılması ilə məhsulun rentabellik göstəricisi avtomatik olaraq Maya dəyərinin tərkibində müvəqqəti və daimi xərcləri ayırd etmək olur. Müvəqqəti xərclərin göstəriciləri istehsal edilən məhsulun həcminin artıb-azalması ilə dəyişir. Müvəqqəti xərclərə məhsulun maddi xərcləri, həmçinin işçilərin məvacibləri daxildir.

Daimi xərclər istehsal həcmindən asılı olmayaraq dəyişmir.

Bu xərclərə aşağıdakılar daxildir:

1. Avadanlıqların amortizasiyası
2. Ərazinin kirayəsi və bu qəlibdən olan digər xərclər

(Maya dəyərinin böyük hissəsi maddi xərclər və xammal xərcləri təşkil edir. Bu xərclər ümumi məhsul istehsalı xərclərinin 75%-ni təşkil edir. Bundan belə nəticəyə gəlmək olar ki, maddi xərclərə qənaət etməklə, istehsal olunan məhsulun rentabellik göstəricilərini artırmaq olar. Muhasibat hesabatı – S. M Səbzəliyev

İatehsal olunan məhsulların maya dəyəri müəssisələrin, onların filiallarının, iri bölmələrinin, seqmentlərinin, habelə onların istiqamətlərinin fəaliyyətlərinin mühüm xarakterik xüsusiyyətidir. Maya dəyəri məhsul istehsalına, iş və xidmətlərə material resurslarından və pul vəsaitlərindən ibarət xərcləri əks etdirir. Məhsulların maya dəyərinin başlıca məqsədi ondan ibarətdir ki, istehsal xərcləri hansı ölçüdə məhsulların, iş və xidmətlərin qiymətinə daxil edilir.

Bir çox hallarda maya dəyəri rəqabət amilləri ilə tənzimlənən bazar qiymətlərinin hesablanmasının bazası hesab olunur. O, müəssisədə istehsalın səmərəliliyini xarakerizə edən başlıca göstəricilərdən biridir. Maya dəyərinin səviyyəsi işçilərin əmək məhsuldarlığından və onların əmək haqqının kəmiyyətindən asıldır. Maya dəyərində əks etdirilir: fondveriminin səviyyəsindən asılı olmayaraq əsas vəsaitlərdən istifadənin səmərəliliyi; məsulların material tutumnun və enerji tutumunun səviyyəsi ölçüləri material dövriyyə vəsaitlərindən istifadə dərəcəsi. Sonuncuların səviyyəsi material istehsalının strukturundan, resursların istifadə dərəcəsindən və onlara bazar qiymətlərindən asılıdır. Maya dəyəri özündə dövriyyə vəsaitləri (dövriyyə kapitalı) və əsas kapitalın dəyərindən amortizasiya ayırmaları hesabına formalaşan birdəfəlik xərcləri birləşdirir. O, sərf olunan dövriyyə kapitalını tamamlamaq və əsas kapialı tədricən bərpa etmək üçün lazım gələn vəsaitləri təmin edir. Maya dəyərinin səviyyəsinə bazar amilləri – qiymətlər və tariflər təsir göstərir. Bir çox hallarda o, istehsal prosesinin təşkilindən asılıdır. Onun aşağı düşməsi geniş həcmdə istehsaldaxili amillərlə əlaqədardır və istehsalın səmərəlilini yüksəltmək üçün ehtiyatların axtarılması üzrə idarə heyətinin gücünü əks etdirir. Maya dəyərinin səviyyəsi istehsal tsiklinin davamiyyətindən, təchizat və alışın vəziyyətindən, kooperasiyanın səmərəliliyindən, nəqliyyat və təmir xərclərinin ölçüsündən, zaydan və tullantılardan, itkilərdən əməyin istifadə olunan materialların və texniki vəsaitlərin keyfiyyətindən asılıdır.

Maya dəyəri elə bir sintetik göstəricidir ki, onda ayrı-ayrı fiziki və hüquqi şəxslərin, habelə dövlətin maraqları kəsişir. Ba da təsadüfi deyildir ki, maya dəyərinə daxil edilən xərclərin tərkibi hökümət tərəfindən müəyyənləşdirilmiş qaydada uçot və hesabatda əks etdirir. Bazar iqtisadiyyatına keçid, müştərə müəssisələrin yaradılması, xarici investisiyaların respublikaya cəlb olunması istehsal xərclərinin uçotu məsələsində kifayət qədər yeni məzmun və yeni mahiyyət gətirir. Tədqiq edilən problemin bəzi məsələləri Azərbaycanda bir sıra iqtisadı alimlərin (məs., A.Səlimov, F.Quliyev, S.Səbzəliyev, V.Quliyev, Q.Abbasov, S.Yaqubov, Ə.Daşdəmirov, H.Hacıyev və s.) əsərlərində araşdırılmışdır. Aici ölkə alimlərindən həmin məsələ ilə V.Bezrukix, İ.Basmanov, N.Kondrakov, İ.Lamıkin, A.Şeremet, S.Polyakova və b. məşğul olmuşlar. Deyilənlərə baxmayaraq, istehsal xərclərinin uçotunda və məhsulların maya dəyərinin kalkulyasiya edilməsində, onların metodlarında əsaslı bir dəyişiklik, yenilik hələ ki çox azdır. Mövcud qaydalar real bazar münasibətlərinin tələblərinə cavab vermir və beynəlxalq standartlara uyğun deyildir. Ona görə də, bu sahədə elmi-tədqiqat işlərinin aparılması vacib və zəruridir.

Bu məqsədə uyğun olaraq dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur: - müvafiq maddələr üzrə faktik istehsal xərclərinin öz vaxtında və düzgün əks etdirilməsi yollarını göstərmək; - istehsalat resurslarından istifadəyə operativ nəzarəti həyata keçirmək üçün zəruri sayılan informasiyaları sadalamaq; - məhsulun maya dəyərinin səviyyəsinə təsir edən amilləri aşkara çıxarmaq və konkretləşdirmək; - müəssisənin struktur bölmələri üzrə istehsaldaxili təsərrüfat hesabının nəticələrini müəyyənləşdirməyin konkret yollarını aşkara çıxarmaq; 6 - istehal xərclərinin və məhsulun maya dəyərinin iqtisadi məzmununu açıqlamaq, xərclərin tərkibini dəqiqləşdirmək, onların təsnifatının mövcud vəziyyətini öyrənmək, təkmilləşdirilməsi barədə təkliflər vermək; - istehsala sərf edilən müstəqim və qeyri-müstəqim, sabit və dəyişən xərclərin uçotun, həmçinin məhsulun maya dəyərinə daxil edilməsi üsulunu öyrənmək və onların təkmilləşdirilməsi barədə tövsiyyələr vermək; - xərclərin uçotunun "direkt-kostinq" və "standart-kost" sistemlərinə keçirilməsinin və həmin sistemlərin Azərbaycanda tətbiq edilməsi imkanlarını nəzərdən keçirmək; - xərclərin beynəlxalq praktikada qəbul edilmiş qaydada təsnifatını araşdırmaq və təsnifata münasibət bildirməkdir.

Ədəbiyyat siyahısı

Muhasibat uçotu dərslik (Bakı 2007)
Muhasibat hesabatı – S. M Səbzəliyev
Muhasibat uçotu və audit – BAKI 2006

Directions for improving product cost accounting and calculation system in Azza cake house LLC

Summary

In the article, one of the important factors is the examination of the calculation of production costs of the enterprise. Because determining the cost will help to determine the price at which the product will be sold, as well as help to continue its activity in the sales market. It is very important to correctly research and arrange the cost of Maya. By using affordable products, it will be possible to produce more affordable products. At the same time, the income of the enterprise must exceed its expenses. As a result of this increase, the enterprise will be able to continue its activity for a long time.

"Azza" consists of a friendly staff of well-trained, selected confectioners, chefs and managers with many years of experience and knowledge, who decorate any holiday or the most ordinary day with unforgettable taste. Today it is the largest network of confectionery stores in Azerbaijan. Mastering the research conducted on the basis of the topic, making the right plan and as a result, ensuring the long-term operation of the enterprise.

Keyswords: calculation, cost, production of the product

Направления по совершенствованию системы учета и калькуляции себестоимости продукции в ООО «Кейк Хаус «Азза»

Резюме

В статье одним из важных факторов является рассмотрение калькуляции себестоимости продукции предприятия. Потому что определение себестоимости поможет определить цену, по которой товар будет продаваться, а также поможет продолжить его деятельность на рынке сбыта. Очень важно правильно исследовать и оформить стоимость Мауа. Используя доступные продукты, можно будет производить более доступные продукты. При этом доходы предприятия должны превышать его расходы. В результате этого увеличения предприятие сможет продолжать свою деятельность еще долгое время. «Азза» — это дружный коллектив хорошо обученных, отборных кондитеров, поваров и менеджеров с многолетним опытом и знаниями, которые украшают незабываемым вкусом любой праздник или самый обычный день. На сегодняшний день это крупнейшая сеть кондитерских магазинов в Азербайджане. Освоение исследований, проводимых на основе темы, составление правильного плана и, как следствие, обеспечение долгосрочной работы предприятия.

Ключевые слова;, расходы, производство , расчет

Redaksiyaya daxil olma tarixi: 06.10.2022
Çapa qəbul olunma tarixi: 04.07.2023
Elmi rəhbər : X.C.Əzizova
tərəfindən çapa tövsiyə olunmuşdur

# MÜNDƏRİCAT

**DAĞBƏYİ ALLAHVERDİYEV**
**VÜSALƏ BƏKİROVA**
**GEOSİYASİ MƏNZƏRƏDƏ MAKROİQTİSADİ MƏNAFELƏRİN GÜCLƏNDİRİLMƏSİ** ........................................ 3
**ФАРИД НАБИЗАДЕ**
**ЛОЯЛЬНОСТЬ ПЕРСОНАЛА КАК КОНКУРЕНТНОЕ ПРЕИМУЩЕСТВО** ........................................ 19
**İLKIN BEHBUDOV**
**SIĞORTA SEKTORUNDA SƏMƏRƏLİLİK GÖSTƏRİCİLƏRİ SİSTEMİ** ........................................ 24
**AYTAC XALIQZADƏ**
**UZUNMÜDDƏTLİ AKTİVLƏRİN TƏSNİFATI** ........................................ 29
**SƏDAN DADAŞOVA**
**KOMMERSİYA BANKLARINDA KAPİTAL EHTİYYATLARIN UÇOTUNUN TƏHLİLİNİN NƏZƏRİ METEDOLOJİ ƏSASLARI** ........................................ 34
**ELGÜN NƏCƏFOV**
**KOMERSIYA BANKLARINDA AUDIT FƏALIYYƏTININ QIYMƏTLƏNDIRILMƏSI ISTIQAMƏTLƏRI** ........................................ 39
**ELTUN ELŞƏN OĞLU XƏLİLOV**
**SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ MƏSULİYYƏTMƏRKƏZLİ UÇOT SİSTEMİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ** ........................................ 44
**ETİMAD ƏSGƏROV**
**TİKİNTİ TƏŞKİLATLARINDA MALİYYƏ NƏTİCƏLƏRİNİN UÇOTUNUN TƏŞKİLIİIN NƏZƏRİ METEDOLOJİ ƏSASLARI** ........................................ 49
**FİDAN HÜSEYNZADƏ**
**TİBB MÜƏSSİSƏLƏRİNDƏ MALİYYƏ NƏTİCƏLƏRİNİN TƏHLİLİ** ........................................ 54
**ƏLİYEV URFAN**
**İDARƏETMƏ UÇOTUNUN MAHİYYƏTİ, MƏZMUNU VƏ ƏHƏMİYYƏTİ** ........................................ 59
**MEHDİ HƏZİYEV**
**İSTEHLAK KREDİTLƏRİNİN NƏZƏRİ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ** ........................................ 64
**İLQAR BƏŞİROV**
**YENİ STRATEGİYALARLA İSTEHSAL XƏRCLƏRİNİN BÖLÜŞDÜRÜLMƏSİNİN OPTİMALLAŞDIRILMASI** ........................................ 69
**ORXAN MƏHƏRRƏMLİ**
**TİCARƏT MÜƏSİISƏLƏRİNDƏ MAL VE TARALAR UÇOTUNUN TƏŞKİLİNİN ƏSAS PRİNSIPLƏRİ, ƏHƏMİYYƏTİ VƏZİFƏLƏRİ** ........................................ 74

**RASİM VEYSƏL SEYFULLAYEV**
**KAPITALLAŞAN VƏ KAPITALLAŞMAYAN MƏSRƏFLƏR .... 79**
**RƏŞAD KAZIMOV**
**MÜƏSSİSƏLƏRİNİN DAVAMLI İNKIŞAFININ TƏMİN EDİLMƏSİNƏ KAPITAL QOYULUŞLARININ TƏSİRİ ........ 84**
**İLQAR QURBANOV**
**AZƏRBAYCAN İQTİSADIYYATINDA DAVAMLI İNKIŞAFIN TƏMİN EDİLMƏSİ ÜZRƏ MB-IN PUL-KREDİT SİYASƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ............ 89**
**ZEYNƏB MƏMMƏDLİ**
**AZZA CAKE HOUSE MMC-DƏ MƏHSULUN MAYA DƏYƏRININ UÇOTU VƏ KALKULASIYA SİSTEMİNİN TƏKİLLƏŞDIRİLMƏSİ İSTIQAMƏTLƏRİ ...... 94**

**"Elm və təhsil" nəşriyyatının direktoru:**
**İnal Məmmədli**

Dizayn: **Zahid Məmmədov**
Texniki redaktor: **Yadigar Bagırova**

Çapa imzalanmış **05.07.2023**
Şərti çap vərəqi **4,5** Sifariş **№ 6**
Kağız formatı **70x100 1/16.** Tiraj **300.**

***Jurnal "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.***
***E-mail: elm.ve.tehsil@mail.ru***
*Тел: 497-16-32, 012-511-05-58, 050-201-05-58*
*Ünvan: Bakı, İçəri şəhər, 3-cü Maqomayev döngəsi 8/4.*